# ŞEYTANIN TƏKƏBBÜRÜ



Şeytan onlara
hakim olmuş və Allahı
zikr etməyi onlara
unutdurmuşdur.
Onlar şeytanın firqəsidirlər.
Bilin ki, ziyana uğrayanlar
məhz onlar şeytanın
firqəsidir!
(Mücadilə surəsi, 19)

HARUN YAHYA

ADNAN OKTAR

# ŞEYTANIN TƏKƏBBÜRÜ

(HARUN YƏHYA)

*"Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsidirlər. Bilin ki, ziyana uğrayanlar məhz onlar şeytanın firqəsidir!"*

**(Mücadilə surəsi, 19)**

# MÜNDƏRİCAT


OXUCUYA ... 4

YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA ... 5

1. GİRİŞ ... 7

2. TƏKƏBBÜRLÜ OLMAĞIN SƏBƏBLƏRİ ... 9

3. TƏKƏBBÜRÜN İNSANIN RUHUNA TƏSİRİ ... 19

4. TƏKƏBBÜRÜN İNSAN ORQANİZMİNƏ MƏNFİ TƏSİRLƏRİ ... 24

5. GİZLİ TƏKƏBBÜR ... 26

6. QURANDA VERİLƏN TƏKƏBBÜR NÜMUNƏLƏRİ ... 29

7. FİRON ... 35

8. QARUN ... 42

9. HAMAN ... 44

10. Hz. İBRAHİMİN ATASI ... 45

11. ƏBU LƏHƏB ... 46

12. BAĞ SAHİBİ ... 47

13. QÖVMLƏRİN BAŞÇILARI ... 48

14. ALLAHI İNKAR EDƏN QÖVMLƏR ... 57

15. MÖMİNLƏRİN TƏVAZÖKARLIĞI ... 67

16. TƏKƏBBÜRLÜ OLUB DİN ƏXLAQINA UYĞUN YAŞAMAQ MÜMKÜNDÜRMÜ? ... 78

17. TƏKƏBBÜRLÜ İNSANLARIN AXİRƏTDƏKİ VƏZİYYƏTİ ... 86

18. TƏKƏBBÜRLÜ İNSANLARIN YOLDAN ÇIXARDIĞI ADAMLARIN AXİRƏTDƏKİ VƏZİYYƏTİ ... 92

19. NƏTİCƏ ... 94

20. TƏKAMÜL YALANI ... 96

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

I FƏSİL

# GİRİŞ

Allah Hz. Adəmdən əvvəl mələkləri və cinləri yaratmışdı. Onlar Allahı vəsf və mədh etməklə təsbih edirdilər. Allah sonra ilk insan olan Hz. Adəmi yaratdı və mələklərə ona səcdə etmələrini əmr etdi.

Mələklər Allahın əmrinə qəlbən itaət edərək Hz. Adəmə səcdə etdilər. Lakin mələklər arasında yer alan və cinlərdən olan İblis Allahın bu əmrinə qarşı çıxaraq Ona üsyan etdi. Çünki İblis özünün Hz. Adəmdən daha üstün olduğuna inanırdı. İblis bu təkəbbürünə görə ondan “Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?” (Səd surəsi, 75) soruşan Allaha belə cavab vermişdi:

> *“Mən ondan daha xeyirliyəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmİsan!.*
>
> **(Səd surəsi, 76)**

Allahın əmri qarşısında belə itaətsizliyə cürət edən İblis Allah tərəfindən lənətlənmiş və o, əbədi cəhənnəm əzabına layiq görülmüşdür.

İblisin Allaha qarşı çıxmasına səbəb olan amil onun “təkəbbürü” və ya başqa sözlə desək, “özünü üstün hesab etməsi” idi. İblisin həmin lovğalığını ortaya çıxaran ən böyük səbəb onun nəfsində gizlədiyi bir xüsusiyyət idi - “ənaniyyət”, “təkəbbür”...

Ərəb dilindəki “ənaniyyət” termini “mən” mənasında olan “ənə” sözündən əmələ gəlmişdir. Bir insanın özünə sərbəst şəkildə mənlik hissi verməsi, həm özünün, həm də ətrafında olanların varlığının Allahdan heç bir asılılığının olmamasını iddia etməsi onun öz hərəkət və davranışlarını, baxışlarını və fikirlərini həmin düşüncə əsasında formalaşdırıb tənzimləməsi deməkdir.

Təkəbbür də ənaniyyətin təzahürlərindən biridir. Əgər bir insan həyatda bircə dəfə də olsa özünü mühüm şəxs kimi hiss edərsə, həmin insan Allahın ona verdiyi imkan və xüsusiyyətlər sayəsində qısa müddət ərzində təkəbbürlülük psixologiyasına düşər.

Belə bir insan özünü hər zaman ön planda, ən yüksək mövqedə görməyə və göstərməyə başlayar. Quranın ifadəsi ilə desək, belə azğın vəziyyətdə olan insan özünə ilahlıq xüsusiyyəti vermiş olur.

Bu səbəbdən də ənaniyyət və bununla bağlı olan təkəbbürlülük və lovğalıq Allaha şərik qoşmaqla və küfr etməklə eyni tutulmuşdur. Belə ki, İblisin bu xüsusiyyəti Quranda “Səd” surəsinin 74-cü ayəsi ilə bildirilmişdir:

> *...təkəbbür göstərdi və kafirlərdən oldu.*
>
> **(Səd surəsi, 74)**

İblisin Hz. Adəmə səcdə etmək əmri alan zaman ortaya çıxan təkəbbürü onun əbədi əzaba düçar olmasına səbəb olmuşdur. Bu hal lovğalıq və təkəbbürlülüyün həmin kimsə üçün necə böyük bir təhlükə olduğunu göstərməyə kifayət edir.

Təkəbbürlülük və lovğalıq şeytanın xarakterinin ən başlıca xüsusiyyətidir. Bu səbəbdən də "ənaniyyət" hissi və bundan doğan təkəbbürlülük bütün azğınlıqların əsas qaynağı və təməlidir. Həmin xüsusiyyətlər milyonlarla insanı tarix boyunca sonsuz cəhənnəm oduna saldığı kimi bu gün də saysız-hesabsız insanın mənlik hissini təhlükə altında qoyur və onları İblisin yoluna çəkir.

Təkəbbürlü və lovğa olan, yəni özünə xüsusi bir mənlik hissi verərək Allaha qarşı haqsız olaraq təkəbbürlülük göstərən, Onun qarşısında nə qədər aciz olduğunu bilməyən, Onun ayələrindən üz döndərən hər bir insan şeytanın bu hiyləsinə düşməyə məhkumdur. Əlinizdə olan kitabın əsas məqsədi də təkəbbürlülüyü və təkəbbürlülük hissinə tutulanların xüsusiyyətlərini Quranda bildirilən şəkildə hər baxımdan üzə çıxarmaq, lovğalığın və təkəbbürlülüyün öz təsiri altına salmağa çalışdığı hər bir insanı bu mənfi təsirdən təmizlənməyə və çəkinməyə dəvət etməkdir.

Bu səbəblə də lovğa və təkəbbürlü insanların bütün kitab boyunca ayələrdə qeyd olunan halları onların ən əsas xüsusiyyəti olan "ənaniyyət" anlayışı çərçivəsində incələnib nəzərdən keçiriləcək.

Ümidvarıq ki, bu kitab onu oxuyanların İblisə aid bu xüsusiyyətlərdən uzaq olmaları üçün bir xəbərdarlıq və nəsihət olacaqdır.

II FƏSİL

2

# TƏKƏBBÜRLÜ OLMAĞIN SƏBƏBLƏRİ

Bir qədər əvvəl də qeyd etdiyimiz kimi, təkəbbürlülüyün əsasında insanın özünü Allahdan asılı olmayan bir varlıq kimi görüb malik olduğu bəzi xüsusiyyətlərin özündən qaynaqlanmasını güman etməsi, bu səbəbdən də özünə "mənlik" kimi bir hiss verməsi dayanır. Halbuki bunun nə qədər cəfəng bir məntiq olduğunu görmək üçün müəyyən bir inanca və etiqada malik olmağa heç bir ehtiyac yoxdur.

Əgər insan bir qədər düşünsə, bu dünyaya öz istəyi ilə gəlmədiyini, burada nə qədər qalacağını bilmədiyini, malik olduğu fiziki xüsusiyyətlərin ona şəxsi istəyinə əsasən verilmədiyini asanlıqla görə bilər. Öz bədəni də daxil olmaqla sahib olduğu hər şeyin müvəqqəti olduğunu və onların nəhayət bir gün yox olacağını dərk edər. Bütün bu qeyd olunanlar həmin insanın tamamilə aciz olmasının, heç nəyin, hətta əlində olan ən böyük şeylərin də əslində ona aid və onun nəzarətində olmamasının ən böyük dəlilləridir. Bunlar barədə bir qədər də dərindən düşündüyümüz zaman həmin dəlillərin sayını artırmaq olar. Bütün bu həqiqətlərdən sonra bir insanın təkəbbürlülük göstərib lovğalanmasının nə qədər alçaldıcı, nə qədər ağıldan və məntiqdən kənar bir hərəkət olması göz qabağındadır. Lakin əksər insanlar hətta belə sadə həqiqətləri də dərk etməyəcək və ya unudacaq bir halı yaşayırlar. Elə bu səbəbdən də yaşadığımız dövrdə bir qədər az və ya çox şəkildə təkəbbür göstərməyən, lovğalanmayan insana rast gəlmək çox çətindir.

Halbuki Allahın böyüklüyünü, Onun bütün mövcud olanları yoxdan yaratdığını, insanların malik olduğu bütün imkanların və özəlliklərin onlara Allah tərəfindən verildiyini, Allahın dilədiyi anda hər şeyi onlardan ala biləcəyini, bütün canlıların bir gün öləcəyini, əbədi qalan (baqi, yəni varlığının sonu olmayan) varlığın yalnız Allah olduğunu bilən və daim bunu düşünən bir insanın təkəbbürlü və lovğa olub azğınlıq etməsi qeyri-mümkündür. Yalnız bütün bunları dərk edə bilməyən, öz qüsurlarını, acizliyini və sonda öləcəyini unudan insan belə bir şeyə cürət edə bilər.

Təkəbbürlülüyə səbəb olan amillər çox müxtəlifdir. Bəzən bir insanın əhəmiyyət vermədiyi bir məsələ digər bir insan üçün lovğalanmağa ən böyük səbəb ola bilər. Lakin bütövlükdə təkəbbür göstərib lovğalanmağa səbəb olan amillər bir çox insanlarda eynidir. Bu amillər bir insanın malik olduğu fiziki və ya əqli, maddi və ya mənəvi imkan və xüsusiyyətlərdən qaynaqlanır. Ən çox rast gəlinən səbəblər isə aşağıdakılardır:

1. güc və zənginlik;
2. gözəllik və gənclik;
3. vəzifə, ictimai mövqe və nüfuz;
4. zəka, mədəniyyət və təhsil səviyyəsi.

Əlbəttə, bütün bu xüsusiyyətləri öz aralarında təsnifləşdirərək çoxaltmaq da olar. Burada insanın düşdüyü mühitə və şəraitə görə təkəbbür göstərə biləcəyi başqa səbəblər də ola bilər.

Lakin əsas etibarilə ətrafındakı adamların təkəbbür göstərməsinin səbəblərini araşdıran hər bir insan yuxarıda qeyd olunan xüsusiyyətlərdən birinə və ya bir neçəsinə mütləq rast gələcək.

Yuxarıda sadalanan bu xüsusiyyətlərə ayrı-ayrılıqda diqqət yetirildiyi zaman bütün bunların müvəqqəti amillər olması, insanın bunlara əbədi şəkildə sahib ola bilməyəcəyi aydın olur. Bir insan nə qədər gözəl, nə qədər varlı, nə qədər ağıllı olursa-olsun, bütün bunlar müvəqqətidir və onlar bəlkə 50 il, bəlkə 80 il və ya ən çoxu 100 il davam edə bilər... Dünyanın hətta ən varlı insanı da, ən gözəl qadını da bundan artıq həyat sürə bilməz. Nəhayət, hər zaman qaçdığı ölüm insanı bir gün haqlayacaq və öyündüyü bütün cəhətlərini onun əlindən alacaq. Həmçinin bunu da yaddan çıxarmamaq lazımdır ki, heç bir insan həyatı boyu bütün istədiklərinə nail olacağına və onları bir daha itirməyəcəyinə əmin ola bilməz; onun buna heç bir zəmanəti yoxdur. İnsan sahib olduğu üçün lovğalandığı bütün maddi və mənəvi imkanları hər zaman itirə bilər. Biz insanlar ətrafımızda buna bənzər hadisələrlə tez-tez rastlaşırıq. Dünya həyatının əsl tərəfləri müqəddəs Qurani-Kərimdə də bütün insanların nəsihət alıb dərk edəcəyi şəkildə bildirilmişdir:

> *“Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi məhsul əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. Axirətdə şiddətli əzab, Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan başqa bir şey deyildir.*
>
> **(Hədid surəsi, 20)**

Bir qədər əvvəl də bildirdiyimiz kimi, təkəbbürə və lovğalığa səbəb olan bu xüsusiyyətlər əslində insana aid olan üstünlüklər deyil. Bütün bunlar Allahın insanlara Ona şükür etmək üçün verdiyi nemətlərdir. Lakin insan bu nemətləri ona verənin Allah olması həqiqəti və onların insana verilmə məqsədi barədə düşünmədikdə insanın təkəbbürü artır və o, əlində olan bütün nemətlərin mənbəyinin elə özü olduğunu güman etməyə başlayır.

İndi isə təkəbbür və lovğalığa səbəb olan bu xüsusiyyətləri və insanın vərdiş halına çevirdiyi həyatın iç üzünü, həmçinin bu həyatın müvəqqəti olması həqiqətini bir-bir nəzərdən keçirək...

## Güc və zənginlik

Tarix boyunca yaşamış ən təkəbbürlü və lovğa insanlara nəzər yetirdiyimiz zaman onların mütləq böyük qüvvə və böyük sərvətlər sahibi olduğunu görürük. Bu insanlar əllərində olan gücə və imkanlara görə doğru yoldan azaraq ətraflarında olan insanlara zülm etmişlər.

Halbuki öz var-dövlətləri və sərvətləri ilə lovğalanan bu insanların dərk edə bilmədikləri çox mühüm bir həqiqət var: bu həqiqət də ondan ibarətdir ki, varlı və ya yoxsul olmasından asılı olmayaraq hər bir insan bir gün torpağa tapşırılacaq. Pul, mal-dövlət və sərvətlər isə insan öldüyü zaman öz dəyərini və mənasını itirəcək və bu dünyada qalacaq, insanı qarşıda gözləyən axirət həyatı isə davam edəcək. Bu dünyada əldə etdiyi pulu və sərvəti Allah yolunda sərf etməmişdirsə, həmin insan əbədi həyatda bunların heç bir faydasını görməyəcək. Əlindəki var-dövlətə görə təkəbbür göstərib lovğalanan, özünü üstün sayan insan yaddan çıxarır ki, o, hətta ən kiçik bir virusa da çox asanlıqla məğlub ola bilər. Ən əsası isə odur ki, belə insanların hətta bir dünya qədər var-dövlətləri olsa da onlar təkcə bir mikrob qarşısındakı acizlikdən xilas ola bilmirlər. Hətta bundan artıq var-dövlətləri olsa da onlar ölümdən qaça bilməzlər.

Üstəlik bu insanlar özlərindən sonra qoyub getdikləri var-dövlətləri ilə bu dünyadakı hörmət, etibar və nüfuzlarını qoruyub saxlayacaqlarını fikirləşsələr də axirətdə hesab verəcəkləri gün məyus olacaqlar. Çünki belə adamlar nə qədər varlı olsalar da öləndən 3-5 il sonra onları bəlkə də yalnız bir neçə nəfər xatırlayacaq. Eyni zamanda istisna olaraq hətta bir çoxları tərəfindən xatırlansalar da bunun onlara heç bir faydası olmayacaq. Çünki bütün həyatları boyunca Rəbbimiz qarşısında göstərdikləri təkəbbürün əvəzini alarkən kimlərinsə onları yada salmasının heç bir faydası olmayacaq.

Bu mövzu ilə bağlı başqa mühüm məqam isə təkəbbür göstərib lovğalanan insanların özlərinin bu cəhətləri ilə şəxsiyyət dərəcəsinə yüksəlmələridir. Halbuki əsl şəxsiyyət var-dövlət və zənginliklə əldə edilmir. Çünki bütün bu sərvətlər əldən çıxdıqda və ya həmin var-dövlətin daha artığına sahib olan bir insanla qarşılaşanda bu güc, bu hörmət-izzət, bu mövqe və yüksək mərtəbə qəfildən yoxa çıxır. Əgər bir insan öz sərvəti, var-dövləti və zənginliyi ilə özünə etimad və mövqe qazanıb yüksək mərtəbəyə çatırsa, bütün bunların olmadığı və ya az olduğu hallarda həmin insan təbii olaraq məyus və ya etibarsız olacaq.

Halbuki bütün varlıqları yaradan Allaha iman gətirən, yalnız Ona etibar edib arxalanan bir insan nə qədər böyük ölçüdə maddi ziyana düşsə də bundan onun şəxsiyyətinə heç bir xələl gəlməz. Çünki gücün yeganə mənbəyi Uca və Qadir Allahdır və Allahın olmaması və itməsi (bu ifadələrdən Allaha sığınırıq) kimi bir anlayış da qeyri-mümkündür. Deməli, bir insanın özünə etibarını və inamını formalaşdıran yeganə güclü səbəb onun imanından və inamından qaynaqlanan Allaha güvənc hissidir.

Özünün hər bir işində yalnız Allaha etibar edib arxalanan insan çox güclü insandır. Allahın fövqündə heç bir qüvvə yoxdur. Allah dilədiyi təqdirdə iman gətirən insana heç bir zərər gəlmədiyi kimi bir hadisənin baş verməsi üçün də Allahın yalnız "Ol!" deməsi kifayət edir. Təbiətən aciz və möhtac olan insan övladı üçün Allaha olan yaxınlıqdan daha böyük bir güc barədə hətta düşünmək də mümkün deyil. Bu səbəbdən də var-dövlətdən və ya başqa imkan və xüsusiyyətlərdən irəli gələn şəxsiyyət anlayışı möminə xas deyildir. Əsl mömin bütün bunları yalnız Allahın bir neməti və yalnız Onun yolunda istifadə edilməli olan imkanlar kimi qiymətləndirir. Bir ayədə belə buyrulur:

> *"Mal-dövlət, oğul-uşaq bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarilə daha xeyirlidir!*
>
> **(Kəhf surəsi, 46)**

Yuxarıdakı ayədən də aydın olduğu kimi, təkəbbürlü və lovğa insanlar hətta öz övladlarına da bir növ maddiyyat gözü ilə baxır və onlardan öyünmək və lovğalanmaq vasitəsi kimi istifadə edirlər. Belələri övladlarının malik olduğu bütün xüsusiyyətlərdə öz əməklərinin olduğunu bildirir, elə təkəbbür göstərirlər ki, sanki bu uşaqları yaradan da elə özləridir. Belə insanlar öz övladlarını onlara verilmiş bir nemət və Allahın dilədiyi şəkildə tərbiyə edilməli olan əmanət kimi yox, başqaları ilə rəqabətdə istifadə edəcəkləri bir vasitə kimi görürlər. Buna görə də uşaqlarının nə yeməsi, nə geyməsi, hansı məktəbə getməsi, hansı avtomobil və ya hansı ixtisas sahibi olması kimi məsələlər bu cür insanlar üçün çox böyük əhəmiyyət kəsb edir.

İnsanlar arasında geniş yayılan "özünü nümayiş etdirmək, özünü göstərmək" xəstəliyi yalnız onların övladları ilə məhdudlaşmır. Cəmiyyətin mühüm hissəsini təşkil edən insanlar özlərini bir-birinə yedikləri, içdikləri, geyindikləri, avtomobilləri, yaşadıqları evlər və onların içində olan əşyalarla nümayiş etdirirlər. Burada ən maraqlı cəhət isə odur ki, belə insanlar bütün həyatları boyunca etdikləri hər şeyin başqaları tərəfindən təqdir olunub qiymətləndirilməsini qarşılarına bir məqsəd kimi qoyurlar. Qısaca olaraq belə demək olar ki, heç kim öz sağlamlığı, ehtiyacı və ya rahatlığı üçün hərəkət etmir. Evlərinin nə ilə döşənməsindən başlayaraq avtomobillərinə, hətta geyimlərinə qədər hər şey onların öyünə və lovğalana bilmələri üçün bir vasitədir. Ətraflarında olan insanların nə deyəcəkləri onlar üçün çox mühümdür. Bu da daimi ehtirasa və daha artığını istəməyə səbəb olur. Görəsən, həmin ehtiras insanın nəfsinin bütün istəklərini təmin etmək üçün kifayətdirmi?

Allah inkarçı bir insanın ehtirasının heç bir zaman bitib-tükənmək bilmədiyini Öz ayələri ilə bizim diqqətimizə çatdırır. İnsanın inkarçılığı və təkəbbürü artdıqca onun var-dövlət ehtirası və acgözlüyü də artır. Belə ki, aşağıdakı ayələr inkarçı insanın malik olduğu mənəvi ruh halını bizə aydın şəkildə açıqlayır:

Məni Öz yaratdığım kimsə ilə tək burax! Mən ona bol mal-dövlət əta etdim. Yanında hazır duran oğullar. Ona hər şeyi artıqlaması ilə müyəssər etdim. Bütün bunlardan sonra yenə də artırmağımı istəyir. (Muddəssir surəsi, 11-15)

Ayədə də ifadə edildiyi kimi, bu dünya həyatında nəfsinin istəkləri heç vaxt bitmədiyinə görə insan daim ondan daha artığını əldə etmək istəyir. Arzuladığına sahib olana qədər ehtirasla istəyir, sahib olduqdan dərhal sonra isə yenisini istəməyə başlayır və bu ehtiras onun bütün həyatı boyunca davam edir. İnsan övladı belə hesab edir ki, o, arzuladığı bir şeyi əldə etdikdən sonra çox xoşbəxt olacaq, lakin bu, bir neçə dəfədən sonra bunun əslində belə olmadığını anlayır. Buna baxmayaraq daxilində olan ehtirasın təsiri ilə daha yaxşısını və gözəlini əldə etməyə tamah salır. Məsələn, bir mənzil almaq üçün illərlə çalışır. Həmin mənzili aldıqdan bir-iki il sonra daha

yaxşı, daha rahat və geniş bir mənzil görür və bu dəfə onu almaq istəyir. Fərz edək ki, onu da aldı, bundan da üç-beş il keçəndən sonra ayrıca bir evə köçmək kimi xəyallar qurmağa başlayır. Yaxşı, bunu da aldıqdan sonra nə olacaq? Yəqin ki, sonra da daha yüksək quruluşa malik, lüks döşənmiş, üzgüçülük hovuzu və ya müxtəlif özəllikləri olan yeni bir yer istəməyə başlayacaq.

Ətrafımızda da bunun müxtəlif nümunələri ilə rastlaşırıq. İnsanlar ev, avtomobil, bağ kimi şeylərlə və övladları ilə məşğul olarkən özlərini çox dar çərçivəyə salır və həyatlarının sonuna qədər vaxtlarını bunlarla keçirirlər. Əlbəttə, insanların bunları istəməsi çox təbii və məqbuldur, lakin onların bütün həyatlarını belə işlərə sərf etməsi son dərəcə mənasızdır. Beləliklə, bəzi insanlar belə həyat oyunlarında öz istəklərinə nail olsalar da onların əksəriyyəti öz arzusuna çatmır və həyatdan da ürəklərində qalmış həmin arzu və ehtirasları ilə birgə köçürlər.

Belə böyük var-dövlət ehtirasına malik olmaq əslində çox mənasız işdir. Bu mənasızlıq yalnız dünyanın müvəqqəti olması və həyatın bir göz qırpımında keçməsi ilə bağlı deyil. Bunu da unutmaq olmaz: dünyada ən zəngin insanların həyatına nəzər yetirdiyimiz zaman görürük ki, belə adamlar onlarla otaqdan ibarət olan malikanələrə malik olsalar da onlar eyni anda bütün otaqlardan istifadə edə bilmədiklərinə görə bu otaqların yalnız birində yaşayırlar. Onlar qarderoblarla dolu olan geyimlərə malik olsalar da eyni anda yalnız bir geyimdən istifadə edirlər. Həmçinin hər saatda bir geyim dəyişdirsələr də bir müddətdən sonra bundan da bezirlər. Allahın neməti olan minlərlə növ yeməklərə malik olsalar belə ən çoxu iki-üç qab yeməklə kifayətlənir, çox yemək istəsələr də bu, onlardan ötrü bir işgəncəyə çevrilir... Bütün bu qeyd olunanlardan aydın görünür ki, insanların əksər davranışları yalnız boş ehtirasdan irəli gəlir. Halbuki adi gözlə baxdığımız zaman bu sadalananlar nə ehtiras, nə də təkəbbür qaynağıdır, tam əksinə, bütün bunlar müvəqqəti dünyanın aldadıcı üzüdür. İnsanların qulaqardına vurduğu və diqqət yetirmədiyi bu həqiqət Quranda belə ifadə edilir:

> *“Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. (Lakin bütün) bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır.*
>
> **(Ali-İmran surəsi, 14)**

Burada diqqət yetirilməli olan başqa bir mühüm cəhət isə insanın sahib olduğu hər şeyin yalnız Allahın diləməsi ilə mövcud olmasıdır. Allah bəzi insanları onlar dünyaya gələndən etibarən varlı edir, bəzilərini də bütün ömrü boyu yoxsulluqla imtahana çəkir. Lakin bir insanın Allahın ona verdiyi nemətlərə görə təkəbbür göstərib lovğalanması ağılsızlıqdır. Çünki Allah insanlar arasında istədiyi adama çox az, bəzilərinə isə daha artıq nemət və ruzi verə bilər. Hər iki hal da imtahan üçündür, dünyada kimin daha yaxşı və gözəl əməl sahibi olacağını sınamaqdan ötrüdür. Bu da bir ayədə belə ifadə edilir:

> *Allah istədiyi bəndəni ruzisini bol da edər, azaldar da. Onlar isə dünya həyatı ilə sevindilər. Halbuki dünya həyatı axirət həyatı ilə müqayisədə çox cüzi bir şeydir.*
>
> **(Rəd surəsi, 26)**

Bu halda müddəti bir göz qırpımına bərabər olan dünya həyatında bir tələyə düşməmək və əlindəki var-dövlətdən Allaha təkəbbür göstərmək vasitəsi kimi yox, Ona şükür etmək vasitəsi kimi istifadə etmək lazımdır. Çünki qiyamət günü bütün var-dövlətin və övladların yox olub gedəcəyi dəhşətli bir gündür. Hər şeyin alt-üst və darmadağın olacağı həmin qiyamət günü həm bunlardan bir əsər-əlamət qalmayacaq, həm də Allaha qarşı işlənən hər bir günahın cəzası veriləcək.

Bu kitabın sonrakı fəsillərində əllərindəki var-dövlətə görə təkəbbür göstərib lovğalanan və bu cəhətlərinə görə adları Quranda çəkilən insanların həyatından müfəssəl şəkildə nümunələr verəcəyik.

## Gözəllik və gənclik

Gözəllik də insanın nəfsinin üzə çıxmasına və onun təkəbbür göstərməsinə səbəb olan cəhətlərdən biridir. Bir çox insanlar dünyanın belə müvəqqəti və tez sıradan çıxa bilən bəzəklərinə aldanırlar. Halbuki gözəllik hər şeydən əvvəl insanın öz səyləri ilə əldə edə bilmədiyi, ona yalnız Allah tərəfindən verilən və hər an geri alınması da çox asan olan bir üstünlük və nemətdir.

Hamı bilir ki, gözəllik çox asanlıqla əldən çıxa bilər. Xalq arasında buna aid “Bir qığılcım da kifayətdir” deyimi var. İnsanın üzündə əmələ gələn bir yara, yanıq və ya bədənin bir əzasının itirilməsi gözəlliyin məhv olması üçün kifayətdir. Bu da cəmiyyətdə tez-tez rast gəldiyimiz bir haldır. Belə ki, heç bir insan özünü bu təhlükədən uzaq hesab edə və ya ondan sığortalana bilməz.

İnsan həmin təhlükələrin hətta heç biri ilə rastlaşmasa belə gözəlliyin qaçılmaz və amansız bir düşməni var ki, o da qocalıqdır. Dünyanın ən gözəl insanı da bir gün yaşlaşıb qocalır və bir qədər sonra onun əvvəlki gözəlliyindən heç bir əlamət qalmır. Cəmiyyət tərəfindən tanınan məşhur insanlar bunun ən bariz nümunəsidir. Belə insanlar bir müddət xalq tərəfindən olduqca bəyənilən, heyranlıqla izlənilən, hamının idealı olan və onların yerində olması arzulanan insanlardır. Lakin müəyyən bir müddət keçdikdən sonra onlar da Allahın istəyi ilə qocalırlar, Allahın bu yazısına qarşı çıxa bilmir, qocalmağa əngəl olmağı bacarmır, yaşlanmaqdan xilas ola bilmirlər. Onlar əllərində olan bütün sərvət və imkanlardan özlərini cavanlaşdırmaq üçün istifadə etsələr də bu səyləri ilə qaçılmaz bir yazını ən böyük ehtimalla 3-5 il gecikdirə bilərlər, bundan artıq heç nəyə nail ola bilməzlər.

Gözəllik və gənclikdən irəli gələn təkəbbürün mənasızlığını dərk etmək üçün gətirilən bu nümunələr diqqət çəkicidir. Lakin çox gözəl bir insanın ölümündən sonrakı ilk on gün ərzində düşəcəyi vəziyyətə diqqət yetirmək də çox faydalı olardı.

İnsanın bədəni torpağın altına qoyulduqdan sonra sürətli şəkildə parçalanma mərhələsinə qədəm qoyur. Mikroblar fəaliyyətə başlayır, qarın boşluğunda toplanan qazlar cəsədi şişirdir və bədəni tanınmaz bir vəziyyətə salır. Qazın diafraqmaya göstərdiyi təzyiq nəticəsində ağızdan və burundan qanlı köpüklər gəlməyə başlayır. Hər xarici, həm də daxili orqanlarda çürümə başlayır və ətrafa dözülməz dərəcədə pis qoxular yayılır. Beyin tamamilə çürüyür. Sümüklər oynaqlardan tam ayrılır və insanın skeleti dağılmağa başlayır. Bu hal yalnız sümüklər qalana qədər davam edir.

İnsan bütün bunları gözünün önünə gətirmək istəməsə də bu, hamının qarşılaşacağı qaçılmaz bir həqiqətdir. Əgər insan gözəlliyin yalnız ona aid olduğunu güman edirsə, ondan qalan həmin çürümüş bədəni də özünə aid etməlidir. Lakin dünyanın ən gözəl adamı da bütün bunlardan dəhşətli dərəcədə diksinəcək. Çünki o bu çürümüş cəsədlə özünü insanlara nümayiş etdirə və Rəbbimiz qarşısında təkəbbür göstərib lovğalana bilməyəcək.

Bura qədər söylədiklərimizdə təkəbbürü bir lovğalıq və yekəxanalıq kimi təqdim etdik. Təkəbbürün təsiri nəticəsində ortaya çıxan bir başqa cəhət də məyusluqdur. Bəzi insanlar iddia etdikləri gözəlliyə sahib ola bilmədiklərinə görə məyus olurlar. Əslində bu da elə təkəbbürün başqa bir əlamətidir. Çünki insan öz bədəninə sahib çıxır, gözəlliyinin mənbəyinin özü ilə bağlı olduğunu güman edir və ona verilməmiş bir cəhəti bir qüsur və çatışmazlıq sayır. Ən doğru hərəkət isə Allaha iman gətirənlərin davranışlarıdır. Möminlər Allahın verdiyi bütün nemətlərdən razı qalır, öz cismani xüsusiyyətlərinə görə isə nə məyus olur, nə də bu cəhətləri ilə lovğalanırlar. Onlar öz bədənlərinin əsl sahibinin Allah olduğunu anlayıb dərk edir və bununla sınağa çəkildiklərini bilirlər. Onlardan ötrü ən mühüm məsələ insanın ruhu, insanın Allaha olan səmimi yaxınlığıdır.

Gözəlliyin insana Allah tərəfindən verildiyini bilib Ona şükür etmək və təvazökar olmaq ən doğru davranışdır, əsl müsəlman əxlaqıdır. Belə ki, Allah malik olduğu nemətlər səbəbi ilə həddini aşmayan, təkəbbürlülük etməyən və hər şeyin sahibinin Allah olduğunu bilən insana Öz dərgahından bir rəhmət, sevgi və nur verər, beləliklə də o, cismani mənada gözəl sayılan bir çox insanlardan daha üstün cəhətlərlə nemətləndirilmiş olar.

## Vəzifə, ictimai mövqe və nüfuz

> *“Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki sən nə yeri yara bilər, nə də (boyca) yüksəlib dağlara çata bilərsən.*
>
> **(İsra surəsi, 37)**

Cəmiyyətdə müəyyən bir mövqe sahibi olmaq və bunun verdiyi nüfuz və etibar dünya həyatının tələlərindən biridir. Buna görə də insanın özünü üstün hesab etməsi, təkəbbür göstərib

lovğalanması son dərəcə boş və mənasız işdir. Çünki tarixdə güclü ictimai mövqe sahibi olub yüksələn və çox böyük qüvvəyə sahib olduqları halda onların hamısını bir anda itirən insanlar çox olmuşdur. Bütün insanlar belə nümunələrə şahiddir. Bunları gördükləri halda tutduqları mövqeyə, vəzifəyə və ya sənətlərinə görə təkəbbür göstərib lovğalanan insanlar özləri də bilmədən ağılsız bir vəziyyətə düşürlər. Çünki mövqe və ya nüfuz bu dünyada əldə edilən, bu dünyada qalacaq və üstəlik də yalnız müəyyən insanlar tərəfindən təqdir edilən xüsusiyyətlərdir. Məsələn, varlı bir insan yalnız onun ətrafında işləyənlərin yanında etibar qazana bilər. Yaxud da bir dövlət adamı yalnız öz ölkəsinin insanları tərəfindən yüksək qiymətləndirilə bilər. Bu insan əgər məşhur bir sənət adamıdırsa, o, yalnız əyləndirdiyi insanları razı sala bilər. Hətta bir adamın bütün dünyanın insanları tərəfindən təqdir edilib sevildiyini fərz etsək də vəziyyət yenə dəyişməyəcək. Çünki onu təqdir edən insanlar nəticə etibarilə adi insanlardır və həmin hal da qısamüddətli olub bir gün bitəcək.

Dünyada əsla dəyişməyəcək yeganə həqiqət isə budur: Bir insan istər yüksək ictimai mövqe sahibi olsun, istərsə də adi adam, istər şah olsun, istərsə də çoban, fərq etməz, o da öləndən sonra bütün insanlar kimi torpağın altına gedəcək. Dünyada əldə etdiklərinin ona heç bir faydası olmayacaq, yəni məzarda sadəcə olaraq öz sümükləri ilə baş-başa qalacaq. Belə bir halda heç kimin vəzifəsinə, sənətinə, qüvvəsinə və ya gözəlliyinə baxılmayacaq, yalnız onun bu dünyada Allahın istədiyi şəkildə yaşayıb-yaşamaması haqqında soruşulacaq. Hər bir insanın əbədi həyatındakı mövzu da bu dünyadakı davranışları, Rəbbinə qəlbən bağlı olub-olmaması haqqında olacaq. Bu insanlardan və onların axirətdəki vəziyyətindən Quranda belə bəhs olunur:

> *“Dinlərini oyun və əyləncə sayanları, dünya həyatının məğrur etdiyi şəxsləri boşla getsinlər. Onlara xatırlat ki, heç kəs qazandığı əmələ görə özünü həlaka düçar etməsin. Onun Allahdan başqa heç bir dostu və havadarı yoxdur! O hər hansı bir fidyəni versə belə, qəbul olunmaz. Onlar etdikləri əməllərə görə əzaba düçar olanlardır. Onları küfr etdiklərinə görə qaynar su və şiddətli əzab gözləyir!.*
>
> **(Ənam surəsi, 70)**

Eləcə də tutduğu mövqeyə və vəzifəyə görə təkəbbür göstərib lovğalananlar, bütün bunları digər insanlar qarşısında bir üstünlük kimi görənlər bunun ağrı-acısını daha çox özləri çəkəcəklər. Çünki həmin məntiqlə baxdığımız zaman hamıdan daha üstün və daha yüksək mövqedə olan bir nəfər mütləq var. Əllərində olanlarla öyünən bu insanlar məqam və nüfuz baxımından onlardan bir pillə yüksəkdə dayanan adamların yanında əzilib alçalırlar. Bu da onları utandıran bir davranış tərzidir.

Bu mövzunun başqa bir tərəfi isə bu təkəbbürlü xarakterin dünyada həmin insana heç nə verməməsidir. Belə insanlar öz yaxın ətrafları tərəfindən nə qədər yüksəldilsələr də onlar əslində

sevilməyən və yaxınlarının arzulamadığı insanlardır. Təvazökar insanlar isə ruhun, ağlın və əxlaqın daha mühüm şərt olduğunu anlayırlar. Onlar belə cəhətləri hətta gündəmə də gətirməzlər. Təvazökar olduqlarına görə də insanların gözündə ucalır, daha çox sevilir və sayılırlar.

## Zəka, mədəniyyət və təhsil səviyyəsi

Təkəbbürün ən başlıca səbəblərindən biri olan pul, gözəllik və mövqedən başqa insanların yüksək nəzərlərlə baxdıqları, böyük əhəmiyyət verib qürur məsələsinə çevirdikləri başqa mövzular da var. Məsələn, bitirilən və ya təhsil alınan məktəbin adı və xüsusiyyətləri bir çoxlarından ötrü çox mühüm etimad və nüfuz qazanmaq mənbəyidir. Həmin məktəb ələlxüsus da ödənişli və yaxud imtahanla qəbul edilən bir məktəbdirsə, insanlar bunu tez-tez dilə gətirib öz aralarında bununla öyünürlər. Lakin başqa məsələlər kimi bu məsələ də Allahın onlar üçün qoyduğu müəyyən yola əsasən həyata keçir. Buna görə lovğalanmaq əslində haqsız yerə təkəbbür göstərmək deməkdir. Çünki axirətdə heç kimdən bitirdiyi məktəb, mədəniyyət səviyyəsi, ağıl səviyyəsi haqqında soruşmayacaqlar (təbii ki, insanların bu məsələ ilə bağlı özlərini inkişaf etdirməsi çox vacibdir, lakin onların bunu edərkən özlərini öyüb ucaltması səhv hərəkətdir). İnsanlar öz Rəbbinin qarşısına çıxdıqları zaman yalnız Ona olan səmimi münasibəti, qəlbindəki təqvaları (Allah qorxusu), göstərdikləri təvazökarlıq və yerinə yetirdikləri ibadətləri haqqında sorğu-suala tutulacaqlar.

Yalnız dünya həyatının müvəqqəti nemətlərini əldə etməyi özlərinə məqsəd sayan bu insanlar kiçik və böyük olmasından asılı olmayaraq malik olduqları bütün xüsusiyyətlərə əsasən təkəbbür göstərib lovğalanırlar. Xüsusən də mədəniyyət sahəsində bir bilik sahibi olmaq, özünə görə çox mühüm biliklər əldə etmək təkəbbürlü insanların əsas xüsusiyyətlərindəndir. Səthi düşüncənin xüsusiyyətləri yenə də bu məqamda ortaya çıxır. Çünki bir insan biologiya sahəsində dünyanın ən savadlı professoru ola və ya bu günə qədər dünyaya gəlib-getmiş insanlar arasında fizika sahəsində ən düzgün nəzəriyyələri irəli sürə bilər. Lakin onun qulaqardına vurmamalı olduğu bir məsələ var. Belə ki, o, hətta bütün biliklərindən istifadə etsə belə fizikanın bircə qanununu da dəyişdirə və yaxud bircə hüceyrəni də yarada bilməz.

Bura qədər sadalanan müəyyən məsələlərdən başqa kiçik məsələlərin felinə uyub təkəbbürə qapılan və üstünlük iddiasında olan insanlar da var. Məsələn, saçlarının xüsusiyyəti, boyunun uzunluğu, avtomobili, geyimi, kompüteri yaxşı bilməsi, gözəl səsə malik olması, vəzifəli dostlarının olması kimi primitiv mövzular bir çoxlarından ötrü təkəbbür göstərib lovğalanmağa səbəb olur. Lakin ağıllı insanlar bu tipli davranışların nə dərəcədə bəsit və mənasız olduğunu yaxşı anlayırlar.

Ağıllı insanlar olaraq öz həyatlarını təvazökarlıq üzərində quran peyğəmbərlər və möminlər bizlərdən ötrü ən gözəl nümunələrdir. Məsələn, Hz. Süleyman çox zəngin və güclü idi, lakin o bu imkanlarından yalnız Allahın razılığını qazana bilmək üçün istifadə etmişdi. Eyni zamanda Hz. Zülqərneyn də qövmlər üzərindəki hakimiyyətini Allahın dininə xidmət etmək üçün bir vasitə sayırdı. Hz. Davud isə əldə etdiyi mövqedə durarkən Allahın rizasına uyğun davranmağa və ədalətli olmağa xüsusi diqqət yetirmişdi.

Bu üstün insanlarla yanaşı Peyğəmbərimizin (s) yanında olan səhabələrin həyatı da müsəlmanlar üçün gözəl bir örnəkdir. Onların bir çoxu öz qövmünün yüksək, zəngin və mədəni təbəqəsinə məxsus ailələrin üzvləri olduqları halda Allahın dininə uyğun yaşamaqla ictimai mövqe, var-dövlət və ətrafdakı insanlar arasında seçim etmək lazım gəldikdə hamısı düşünmədən Allahı və Onun Rəsulunu (s) seçmişdi. Çünki onlar dünya həyatının vacib olmadığını, axirətin mühüm olduğunu bilirdilər. Onlar Allahı razı salmaq məqsədilə Peyğəmbərimizin (s) cərgəsində yer aldılar, lazım gələndə hicrət etdilər, mal-dövlətlərinə və sərvətlərinə, mövqe və nüfuzlarına əhəmiyyət vermədilər, bütün həyatlarını dinə xidmət etməyə sərf etdilər.

Allahın razı olduğu yol hamıya məlumdur. Var-dövlət, pul, gözəllik, zəka, nüfuz, gənclik və s. bu kimi bəzi xüsusiyyətlərə malik olan insanlar bilməlidirlər ki, bütün bunlar onlara Allah tərəfindən verilib və onlar bu nemətlərlə sadəcə olaraq imtahana çəkilirlər. Axirətdə də bunların hər birinə görə bir-bir imtahana çəkiləcəklər. Bunları dərk etməyib Allah qarşısında təkəbbür göstərən insanların mənəvi aləmindən bəhs edən bir ayə aşağıdakı kimidir:

Məgər insan heç kəsin ona gücü çatmayacağını zənn edir? Və: "Mən xeyli mal-dövlət sərf etmişəm!" - deyir? Məgər o heç kəsin onu görmədiyini güman edir? (Bələd surəsi, 5-7)

Bunu oxuyarkən seçiləcək ən doğru yol insanın bütün bunları öz üzərində hiss edərək düşünməsidir. Çünki nəfs təkəbbür göstərib lovğalanmağa çox meyllidir və özünə bununla bağlı çox asanlıqla mövzu tapır. Nəfs üçün ağıl, mədəniyyət, sənət, ev, avtomobil, təhsil, cismani gözəllik və ya təkəbbür doğura biləcək bu kimi çox amillər var. Onların da hər birini öz içində təsnifləşdirmək mümkündür. Ən əsas məsələ Allahın "dünyanın müvəqqəti bəzəyi" adlandırdığı bu şeylərin heç birinə qapılmamaqdır. Yaddan çıxarılmamalı olan mühüm məsələlərdən biri də odur ki, təkəbbür və lovğalıq insanı həm bu dünyada, həm də axirətdə başıaşağı edir.

III FƏSİL

# 3 TƏKƏBBÜRÜN İNSANIN RUHUNA TƏSİRİ

Təkəbbürlü insanlar həm öz hərislikləri, həm də ad-san, nüfuz, şan-şöhrət ardınca qaçmaları ilə diqqət çəkirlər. Onlar düşdükləri şəraitdə həmişə ən üstün, ən fərqli, ən qüvvətli, ən diqqət çəkici insan olmaq istəyirlər. Məsələn, onlar gözəllikləri, var-dövlətləri, mal-mülkləri, ağılları və ya mövqeləri kimi təkəbbür doğuran xüsusiyyətlərinə çox güvənirlər. Həmçinin əllərindəkiləri əbədi olaraq itirməyəcəklərini güman edirlər. Öz ağıllarına və mənasız məntiqlərinə heç bir şübhələri olmur. İnsanların bir çoxu onlardakı bu böyük qüsurları gördüyü halda özləri bunu görməyərək ideal olduqlarını zənn edirlər. Belə ki, bu təkəbbürlü insanlar əslində düçar olduqları düşüncə və qavrayış çatışmazlığı ilə yanaşı hətta fərqinə belə vara bilmədikləri daha bir acizlik içindədirlər. Allah belə insanların düşüncələrində olan qüsuru və əqli çatışmazlıqlarını Quranda belə ifadə etmişdir:

Onların içərisində səni dinləyənlər də vardır. Ağlıkəsməz, anlamaz karlara sənmi eşitdirə biləcəksən?! Onların içərisində sənə baxanlar da vardır. Bəsirəti olmayan korlara doğru yolu sənmi göstərə biləcəksən?! (Yunus surəsi, 42-43)

Bu insanları təkəbbür göstərməyə sövq edən məsələ onların malik olduğu xüsusiyyətlərə görə müxtəlif olsa da təkəbbürlü insanların ruhi vəziyyətinin və mənəvi durumunun bəzi ortaq məqamları vardır. Bu məqamlar da öz içində təfsilatı ilə incələnib təsnif edilə bilər. Lakin burada onları bir neçə başlıq altında toplamaq daha faydalı olardı.

## Xəstə və nizamsız ruhi vəziyyətə malikdirlər

Normal insanlarda özünü açıq büruzə verən səmimi, şən olduqları halda təkəbbürlü insanların mənəviyyatında və ruhi vəziyyətlərində böyük çatışmazlıqlar, qaranlıqlar və nizamsızlıq olur. Lovğalıq və yalan olan bu insanların daxili aləmi stress və qorxu ilə, beyinləri isə xırda və əhəmiyyətsiz məsələlərlə doludur və onların şüuru zülmət qaranlıq bir dünyadır. Belə bir hal insanı üzür, tez qocaldır və onun ruhi sağlamlığını da pozur.

Mənəvi baxımdan başqalarından zəif olan bu insanlar soyuq təbiətli və nadan olurlar. Demək olar ki, belə insanlardan gözəl mimika, sevgi əlaməti, təqdirəlayiq nə isə gözləmək və yaxud müsbət əməllərə sövq edən bir söz eşitmək qeyri-mümkündür. Onların olduğu yerdə gülmək, əylənmək çox çətindir. Xüsusən də kişilər arasında ani hücumlar, kobudluq, aqressivlik, barıt kimi tez partlamaq əlamətləri geniş yayılıb. Qadınlarda isə təkəbbür özünü narahatlıq və gərginlik kimi xüsusiyyətlərin timsalında büruzə verir. Buna görə də onların içində olduqları mühit daim gərgin olur, hətta ən kiçik bir məsələni də bəhanə edərək onu şişirdir, necə deyərlər, “qaşınmayan yerdən qan çıxarırlar”.

## Ən çox qorxduqları şey səhv etməkdir

Beyinləri lovğalıq və təkəbbürlə dolu olan insanların bütün hərəkət və düşüncələri insanların gözündə bir dəyər və hörmət qazanıb üstün olmağa xidmət edir. Buna görə də belə adamlar səhv etməkdən çox qorxurlar. Çünki səhv etdikləri zaman insanların gözündən düşəcəklərini, onların etibarını itirəcəklərini düşünürlər. Özlərinə qeyri-adi bir tərzdə arxayındırlar, lakin bu arxayınçılıqları ilə yanaşı səhv addım atma ehtimallarının narahatlığını daim hiss edirlər. Özlərini hər bir səhv hərəkətdən uzaq tutmağa çalışır, heç bir səhvi özlərinə yaraşdırmır və xətalarını qəbul etmirlər. Onlar əsla səhv etməyəcəklərini fikirləşirlər. Özlərini hər bir məsələdə həmişə təmizə çıxarmağa çalışırlar. Ayələri birində belə insanlar haqqında belə bildirilir:

> *“Özlərini təmizə çıxaranları görmürsənmi? Xeyr, Allah istədiyini təmizə çıxardar və onlara xurma çərdəyindəki nazik tel qədər zülm olunmaz!*
>
> **(Nisa surəsi, 49)**

Başqa tərəfdən, həmin insanlarla eyni xarakterə malik olan digər insanlar da onların yanında səhv etməkdən çəkinirlər. Çünki onlar başqalarının səhvlərini çox şişirdir və bunu tez-tez dilə gətirirlər. Səhv edən adamlara qarşı amansız olur, onları lağa qoyur və təhqir edib alçaldırlar. Çünki o biri insanların səhvləri üzə çıxarılıb yayıldıqca özlərinin haqlı yaxud səhvsiz insan olmalarını ortaya qoymaq asanlaşır. Belə təkəbbürlü və lovğa adamların bu hərəkətlərinə görə də heç kim onların yanında özünü rahat hiss etmir, hər kəs onlarla birlikdə olmaqdan bir sıxıntı və narahatlıq duyur. Belə insanlar öz ətrafına həmişə mənfi enerji verirlər.

Təkəbbürlü və lovğa insanlar özlərinin haqqında danışılan bu hərəkətlərinə görə səmimiyyətin nə olduğunu heç vaxt bilə bilməzlər. İnsanlardan hər zaman uzaq olduqlarına və qeyri-səmimi davrandıqlarına görə bu zövqdən məhrum olurlar. Bu səbəbdən də həm özləri başqalarına qarşı səmimiyyət göstərə bilmirlər, həm də başqaları onlarla səmimi davranmır. Çünki bu normal adamlar öz səmimi hərəkətləri, səhvləri, təbii qüsurları, zövq və ya əyləncələri ilə lovğa və təkəbbürlü adamlar tərəfindən hər an lağa qoyulmaqdan qorxurlar. Belə ki, lovğa adamların bu mənfi hərəkətləri və pis əxlaqı onların əllərindəki qüvvəni və ya sərvəti itirdikləri zaman tək qalmasına səbəb olur. Lakin bu da yaddan çıxarılmamalıdır ki, onlar özlərini hətta ən yüksək hesab etdikləri zamanlarda belə Quran əxlaqından uzaq olan xüsusiyyətlərinə görə mənəvi baxımdan təkdirlər.

## Tənqidə dözə bilmirlər

Tənqid edilmək təkəbbürlü və lovğa insanların böyük narahatlığına və qəzəbinə səbəb olur. Onlar tənqid edildikdə və ya səhvləri üzlərinə deyildikdə əl və üz əzələləri gərilir, sifətləri donuqlaşır. Onlar nüfuzlarını itirməyi sanki “dünyanın başlarına uçması” kimi qəbul

edirlər. Özləri başqalarının səhvlərini ələ saldıqlarına və onları lovğa-lovğa tənqid etdiklərinə görə başqalarının da onlara eyni gözlə baxacağını, onları ələ salıb alçaldacağını güman edirlər. Bir məsələdə tənqid edildikləri zaman və ya onlara öyüd-nəsihət veriləndə hamının qarşısında alçaldıqlarına inanırlar. Belə ki, bu ruhi vəziyyət də onların yalnız mənəvi cəhətdən deyil, cismani baxımdan təsirlənmələrinə səbəb olur. Mimikalarının təbiiliyi aradan qalxır, səs tonlarında enib-qalxmalar müşahidə olunur, adi halda onlarda rastlanmayan davranışlar ortaya çıxır, beləliklə də maddi və ya mənəvi baxımdan böyük sıxıntı və əzginlik vəziyyətinə düşürlər. Onlar belə bir vəziyyətdə rahatlığı, sakitliyi heç vaxt əldə edə bilməzlər.

Lovğa adamlar həyata hər şeydən əvvəl "ən gözəl", "ən ağıllı", "ən üstün", "ən keyfiyyətli" olmaq iddiası ilə başlamışlar. Bu da onları daim sıxıntıya salan, gərginlik içində saxlayan bir məsələdir. Özlərini bu qədər üstün və qüsursuz hesab etdiklərinə (daha doğrusu, göstərməyə çalışdıqlarına) görə təbii şəkildə hətta ən kiçik bir xatırlatma və ya məsləhət də onları əsəbiləşdirir. Lakin Allahdan qorxmayan və öz nəfslərini ilahlaşdıran bu insanlar bir şeyi unudurlar. Ola bilsin ki, onlar özlərini başqa insanlar qarşısında səhvsiz, ideal göstərməyə çalışsınlar. Bu zaman bəzən istədiklərinə çata da bilərlər, yəni ətrafında olan bir çox insanlar onların həqiqi mənada qüsursuz olduğunu düşünə bilər. Lakin kiçik və ya böyük olmasından asılı olmayaraq etdikləri bütün səhvlər axirət günü bir-bir onların qarşısına çıxacaqdır. Çünki "Məgər onlar bilmirlərmi ki, Allah onların gizlində də, aşkarda da nə etdiklərini bilir?!" (Bəqərə surəsi, 77) ayəsində də ifadə edildiyi kimi, üstün qüdrət sahibi olan Allah belə adamların nəfsləri ilə bağlı olan hər bir xırda şeyi də bilir. Onlar isə insanları aldatmağa çalışdıqları halda özləri olduqca axmaq bir vəziyyətə düşmüş, Yaradanı və hesab verəcəkləri günü yaddan çıxararaq yalnız özlərini aldatmışlar.

## Ən çox xoşladıqları şey başqaları tərəfindən təriflənməkdir

Təkəbbürlü və lovğa insanın ruhi vəziyyəti onun həyata baxışlarından və danışıq tərzindən asanlıqla aydın olur. Belə insanlar özlərini ya hədsiz dərəcədə öyür, ya da başqaları tərəfindən təriflənmələri üçün şərait yaradırlar. Digər tərəfdən isə belə adamların qəlbində başqa insanlara qarşı onların üstün xüsusiyyətlərinə görə bir kin və qəzəb olur. Bu da onların baxışlarından aydın olur. Belə insanların üzərinə lovğalıq və təkəbbürdən irəli gələn bir ağırlıq çökmüşdür. Onlar ümumiyyətlə hər bir şəraitdə, hər bir məsələdə yalnız özlərini düşünərək xüsusən də başqa insanlardan "ağır" davranmağa, fərqlənməyə çalışırlar. Xoşladıqları yeganə şey yalnız özlərini öymək, başqaları tərəfindən təriflənmək və ön plana çıxmaqdır.

## Təkəbbür sevməyin və sevilməyin qarşısında bir maneədir

Belə insanlar ən çox özlərini sevir, buna görə də həqiqi sevgini əsla yaşaya bilmirlər. Belə adamlar ən çoxu müəyyən bir həddə qədər sevgini təqlid edə bilirlər. Başqalarını sevmək onlara ar gəlir, hər zaman sevilən kəs və maraq dairəsində qalan adam olmaq istəyirlər. Sevməyi və ya sevgi göstərməyi bir növ zəiflik kimi qiymətləndirirlər.

Bu adamların sevmək kimi qabiliyyətləri onların içindəki təkəbbürə görə hələ inkişaf etməmişdir. Çünki birini sevə bilmək üçün həmin insanda hər şeydən əvvəl müsbət cəhətləri

görə bilmək lazımdır. Lakin lovğa və təkəbbürlü insanlar bunları görmək istəmirlər. Çünki onların gözündə həmişə ən üstün olan insan elə məhz özləridir. Bu səbəbdən də başqalarının sahib olduğu gözəlliyə, ağıla, əxlaqa və ya var-dövlətə qısqanclıqla yanaşır, onların sahib olduqlarına həsəd aparırlar. Bu həsəd hissi bəzən elə bir həddə çatır ki, həmin insanların bütün müsbət və gözəl xüsusiyyətlərini itirməsini arzulayırlar.

Lovğa adamların sevgi hissini duya bilməməsinin başqa bir səbəbi isə onların qarşı tərəfin sahib olduğu müsbət cəhətləri görə bilməmələridir. Üstəlik onlar bu cəhətləri görsələr də onu dilə gətirməkdən çəkinirlər. Əgər olduqları şəraitdə özlərindən daha üstün xüsusiyyətlərə malik olan insanlar varsa, dərhal oradan uzaqlaşmaq istəyirlər. İçlərində gəzdirdikləri həsəd və qısqanclıq səbəbi ilə başqa insanlarla anlaşa və yola gedə bilmirlər.

Belə bir davranış sərgiləyən təkəbbürlü insanlar əslində çox böyük səhvlərə yol verirlər. Allahın insanlara verdiyi mühüm nemət olan sevgini beləcə əllərindən qaçırır və əsl sevgini bütün həyatları boyunca hiss etmirlər. Belə insanlar sevməyi bacarmadıqları kimi hətta ağıllı və gözəl olsalar belə heç kim tərəfindən həqiqi mənada sevilə bilməzlər. Ola bilər ki, onların yanında özlərinin müəyyən şəxsi mənfəətlərini əsas götürən insanlar olsun. İnsanların əksəriyyəti isə belələrini öz aralarında hətta görmək də istəməz. Çünki onların xarakterində və xüsusiyyətlərində insanları özlərindən diksindirib uzaqlaşdıran cəhətlər var. Əlbəttə, lovğa və təkəbbürlü adamların imkanları nə qədər geniş və böyük olursa-olsun, fərqi yoxdur, sevgi, yaxınlıq, səmimiyyət və təvazökarlıq olmayan yerdə hamının belələrindən qaçıb uzaqlaşması təbiidir.

## Heç nədən zövq almırlar

Təkəbbürlü və lovğa insan normal şəkildə əylənməyi də bacarmır. Hamı tərəfindən bəyənilən, insanlarda sevincə və könül xoşluğuna səbəb olan hadisə və məkanlar onun üçün tamamilə başqa bir məna ifadə edir. Onlar belə şəraitdə başqalarında mənfi cəhətlər axtardıqları halda digər bir tərəfdən də özlərinin “ideal” olmalarını nümayiş etdirməyə çalışırlar. “Ağır hərəkət etməyi” və fərqlənməyi üstünlük, əylənməyi isə bəsitlik kimi qiymətləndirirlər.

Lakin nəticədə bunun acısını özləri çəkirlər. Onlar əylənmək, sevinmək, mənəvi rahatlıq, şadlanmaq kimi nemətlərin dadını bilmir və daim öz qaranlıq dünyalarında yaşayırlar. Çox maraqlıdır ki, belə adamlar düşdükləri sıxıntılı vəziyyətin səbəbini də heç cür dərk edə bilmirlər. Çünki belələri öz aləmlərində bir çox üstünlüklərə malikdirlər. Lakin daxillərində olan bu qüssədən, sıxıntıdan və narahatlıqdan heç bir vəchlə xilas ola bilmirlər. Belə ki, bu da Allaha qarşı təkəbbür göstərən insanların düşüncə və anlayışlarının qapalı olduğunu göstərən dəlillərdən biridir. Çünki onların qəlblərinə bu sıxıntını verən qüvvə Onun qarşısındakı acizliklərini unutduqları və bununla da böyük bir aldanışa salan Rəbbimizdir.

Quranın “Ona: “Allahdan qorx!” - deyildiyi zaman lovğalıq onu günah törətməyə vadar edər. Beləsinə cəhənnəm kifayətdir. Ora nə pis məskəndir!” (Bəqərə surəsi, 206) ayəsində təkəbbürlü insanların necə lovğalanmasından bəhs edilir. Allah da həmin “böyüklük iddiasının və təkəbbürün” və Onu “unutmalarının” müqabilində onlara daimi sıxıntı, narahatlıq və mənəvi əzabla dolu bir ruhi vəziyyət və mənfi cəhətlər vermişdir. Bu həqiqət bir ayədə belə ifadə olunur:

> *“Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü İslam üçün açıb genişləndirər, kimi azdırmaq istəsə, onun ürəyini daraldıb sıxıntıya salar. O, sanki göyə çıxar. Allah iman gətirməyənlərə pisliyi belə edər!*
>
> **(Ənam surəsi, 125)**

Əlbəttə, bütün bu xüsusiyyətlər insana bu dünyada verilmiş bəlalardır. Belə insanların axirətdə görəcəyi əzab isə daha böyük olacaq.

IV FƏSİL

# TƏKƏBBÜRÜN İNSAN ORQANİZMİNƏ MƏNFİ TƏSİRLƏRİ

Təkəbbür insanın ətraf aləmə qarşı həmişə quru və laqeyd davranmasına səbəb olduğuna görə bir müddət sonra onda böyük bir narahatlıq və stress əmələ gətirir. Səhv etmək, tənqid olunmaq, alçalmaq, nüfuzunu itirmək, önə çıxmaq, üstün olmaq, baxıb lovğalandığı şeylərini itirmək kimi qayğılar insanı çox yorur, ondan daim diqqətli olmağı tələb edir. Bu da stress və narahatlığın meydana çıxması üçün ideal şərait yaradır. Buna görə də təkəbbürlü insanın üzünün ifadəsi və ruhi vəziyyəti təvəkkül (Allaha qəlbən güvənən) sahibi olan təvazökar insanın analoji vəziyyətindən çox fərqlənir.

Təkəbbürlü insanlar stress və narahatlıq içində keçirdikləri həyatları ilə ətraflarına verdikləri zərərdən daha artığını öz orqanizmlərinə verirlər. Lakin onların əksəriyyəti bunun fərqinə vara bilmir. Onlar öz yaxın ətraflarına hər zaman ən yaxşı və ən üstün görünmək istədiklərinə görə beyinlərində böyük bir gərginlik var. Bunun əlamətlərini onların bütün orqanizmində görmək mümkündür.

Lovğa və təkəbbürlü insanların daxili gərginliyi, stressi və narahatçılığı onların vücudunda müxtəlif təsir və əlamətlərlə ortaya çıxır. Məsələn, belə adamların saçları gec uzanır, cod və cansız olur. Dəriləri təravətini itirmiş kimi görünür, quru və yaşlı insanın dərisini xatırladır. Qocalığın və yaşlılığın əlamətləri özünü çox tez büruzə verir. Dərilərində ani surətdə qırışlar yarana bilir. Ağızlarında quruluq olur. Zahiri cəhətdən çox gözəgəlimli insanlar olsalar da diqqət yetirildiyi zaman vücudlarında mənfi bir təsir dərhal gözə çarpır. Gözlərinin canlılığı itir, baxışları donuq görünüş alır. Üz əzələlərinin yığıldığı və təbii olmadığı çox asanlıqla sezilir. Qadınların dərilərində təkəbbürün təsiri ilə anlaşılmaz bir şəkildə kişiləşmə əlamətləri ortaya çıxır, onların dərisi qalınlaşır, tüklənir, damarları çıxır, əllərində olan sümüklər aydın görünür, həmçinin dərilərində saralma halları olur.

Təkəbbürlü və lovğa insan fiziki baxımdan nə qədər gözəl və gözəgəlimli olsa da onun təkəbbürdən və ağılsızlıqdan irəli gələn cismani qüsurları dərhal nəzərə çarpır. Lakin bununla yanaşı səmimi və təvazökar bir mömin (o hətta orta gözəllikdə də olsa) gözə imanın təsiri ilə daha xoş və şirin gələ bilər.

Başqa bir tərəfdən isə təkəbbürlü və lovğa insanlarda diqqəti onların danışıq qüsurları cəlb edir. Belə adamlar rahat, rəvan, səlis və səmimi danışa bilmirlər. Belə insanlar yalnız öz ağıllarını bəyəndiklərinə görə onların məntiqi çox nizamsız və anlaşılmaz olur. Onlar səmimi və hikmətli danışmaq əvəzinə öz qüsurlarını örtə biləcək şəkildə gəlişigözəl sözlər deyir, səhvlərinin ortaya çıxmasının qarşısını almaq və yaxud da insanların etimadını qazanmaq məqsədilə danışırlar. Buna görə də qurduqları hər bir cümlə həm ağılsız olur, həm də onun doğru olmaması dərhal üzə çıxır. Xüsusən də nəfsləri sıxıldığı zaman, yəni səhvləri ortaya çıxanda və ya xoşlamadıqları bir şey xatırlananda bütün bu xüsusiyyətlər özünü daha aydın büruzə verir.

Təkəbbürün insanın zahiri və ya fiziki görünüşünə göstərdiyi bu mənfi təsirlər onların daxili orqanlarında da mühüm zədələrə səbəb olur. Təkəbbürdən irəli gələn böyük narahatlıq və stress öz təsirini eynilə içki, siqaret kimi yavaş-yavaş göstərir, lakin son nəticədə mühüm problemlərə səbəb olur. Mütəxəssislər tərəfindən də isbat edildiyinə görə, stressin bir çox xəstəliklərə səbəb olması hamıya məlum olan bir həqiqətdir. Stressin ən çox müşahidə edilən nəticələri mədə ağrıları, qastrit, həzm pozuntularıdır. Başqa daxili orqanlarda da bu və ya bir çox başqa mənfi nəticələr meydana gəlir.

Yaddan çıxarmaq olmaz ki, haqqında bəhs olunan bütün bu təsirlər onlar yalnız diqqətlə müşahidə edilib qiymətləndirildiyi zaman görünür. Həmin əlamətləri daşıyan insanlardan soruşanda, onlar bunu rədd edər və ya başqa izahlar verə bilərlər. Lakin təkəbbürlü və lovğa bir insanla Allaha təslim olmuş səmimi bir mömin müqayisə edildiyi zaman onların aralarındakı bu fiziki və mənəvi fərqlər dərhal gözə çarpar. Bu fərqlər xüsusən də yaş artdıqca daha qabarıq və inkaredilməz bir şəkil alır. Təkəbbürlü və lovğa insan bu halda ən böyük zərəri elə özünə vurmuş olur. Belə adamlar həm mənəvi-ruhi, həm də cismani baxımdan zədə alırlar. Halbuki möminlər yalnız Allaha təslim olub yalnız Ona güvənməyin və alın yazısına inamın insanda doğurduğu ruhi halla olduqca rahat, sevincli, hüzurlu, dinc həyat tərzi keçirirlər. Əlbəttə ki, yaşlaşma əlamətləri onlarda da görünür. Lakin bu əlamətlər təkəbbürdən qaynaqlanan stressin, ruhi sıxıntı və gərginliyin təsiri ilə meydana gələn əlamətlərdən çox fərqlənir. Beləliklə, möminlər həm bu dünyada rahatlıq içində yaşayır və çox şey qazanmış olur, həm də axirətdə...

V FƏSİL

# 5 GİZLİ TƏKƏBBÜR

Təkəbbürün, yəni özünü üstün hesab etmənin başqa bir növü də gizli təkəbbürdür. Gizli təkəbbürə malik olan insanlar davranış baxımından klassik təkəbbürlü insanlardan fərqlənirlər. Onların arasında olan ən böyük fərq təkəbbürlü insanın kənardan çox asanlıqla bilinməsi, gizli təkəbbürə malik olanların isə kənardan uzun müddət tanınmamasıdır.

Təkəbbürlü insanlar öz lovğalıq və təkəbbürünü büruzə verməkdən, özlərini açıq şəkildə böyük göstərməkdən çəkinmirlər. Digərləri isə öz təkəbbürünü gizləyir. Şeytani bir düşüncəyə malik olan bu insanlar öz təkəbbür və lovğalıqlarının nəzərə çarpmaması üçün böyük səylər göstərirlər. Əlbəttə ki, burada insanın ağlına belə suallar gəlir: Bu insanlar öz təkəbbürlərini niyə gizlədirlər? Nə üçün buna belə böyük səy göstərirlər?

Bunun müxtəlif səbəbləri var. Klassik təkəbbürlü insanlardan fərqli olaraq daha ağıllı olan bu insanlar əslində nəyin doğru, nəyinsə səhv olduğunu yaxşı bilirlər. Bu səbəblə də təkəbbürün və lovğalığın digər insanlarda mənfi hisslər doğuracağını və onları təbii şəkildə əsəbiləşdirəcəyini anlayırlar. Beləlləri insanların etibarını qazanmağa olduqca böyük əhəmiyyət verdiklərinə görə onların etibarını itirməmək məqsədilə öz təkəbbürlərini gizləməyə üstünlük verirlər. Təvazökar olmağın bir üstünlük, bir müsbət cəhət olduğunu bildiklərinə görə də elə görünməyə çalışırlar.

Həmin insanlar inanırlar ki, gizli şəkildə “ən ağıllı”, “ən haqlı” adamlar elə onların özləridir. Onlar özlərini öz gözlərində demək olar ki, ilahlaşdırır, bu halda da hər hansı bir qüsuru və ya səhvi özlərinə sığışdıra bilmirlər. Bu səbəbdən də öz daxili aləmlərini ətrafdakılara, yəni başqa insanlara bildirməməyə çalışırlar. Buna görə də özlərini təkəbbürlü göstərmək istəmir, bundan çox utanırlar. Belə adamlar yalnız Allahdan qorxmalı, yalnız Ondan çəkinməli olduqları halda sadəcə olaraq insanların etibarını itirməkdən qorxurlar.

Belə insanların ən çox xoşladığı şeylərdən biri də insanlara öz qəlblərində, gizli şəkildə, arxada lağ etməkdir. Onlar öz nəfslərini bu yolla təmin etmək istəyirlər. Hər zaman olduğu kimi bunun da kənardan sezilməməsinə diqqət yetirirlər.

Belə adamlar öz təkəbbürlərini olduqca şeytani bir şəkildə gizlədirlər. Burada ilk öncə bunu qeyd etmək lazımdır ki, belə insanlar düşdükləri mühitdə özləri barədə ən ideal insan təsəvvürü yaratmaq istəyirlər. İnsanların onları “təmiz qəlbli” adam kimi tanıması onlar üçün həyati əhəmiyyətli məsələlərdən biridir. Bu səbəblə də özlərini qüsursuz və günahsız göstərməyə çalışırlar. Beləliklə də insanların rəğbətini və sevgisini qazanmaq, ətrafdakılar tərəfindən qiymətləndirilmək və bəyənilmək, insanların gözündə ucalmaq, bunun sayəsində isə təkəbbürlərini gizli-gizli davam etdirmək istəyirlər.

Təkəbbürlü insanların özlərini daim öyməsi və ön plana çıxarmaq istəməsi ilə müqayisədə gizli təkəbbürə malik olan adamlar ola bilsin ki, özlərini bir o qədər də öyməsinlər. Onların planları daha incə, bir qədər də dəqiq desək, daha şeytanidir. Onlar əksər hallarda başqalarının onları tərifləyəcəkləri bir şərait yaradırlar.

Belə bir təkəbbür forması çox təhlükəli olub aysberqə bənzəyir (aysberqin görünən hissəsi suyun altında qalan hissəsi ilə müqayisədə çox kiçikdir). Klassik təkəbbürlü insanların davranışları asanlıqla seçildiyindən onlardan qorunmaq, tədbir görmək mümkündür. Lakin öz təkəbbürünü gizləyən insanlarla bağlı vəziyyət bundan çox fərqlənir. Onların təkəbbürü gec hiss olunur. Beləliklə də onlara nəsihət vermək, düşdükləri vəziyyəti başa salmaq daha çətindir.

Belə insanlar bu vəziyyətə adətən yaxşı bir vəzifə, mövqe və ya böyük bir səlahiyyət səbəbi ilə düşürlər. Daha doğrusu, onların içindəki təkəbbür və lovğalıq mərəzi adətən belə hallarda şiddətlənir. Onlar belə hesab edir ki, üstün olduqlarına görə həmin məsuliyyət və səlahiyyət onlara həvalə edilmişdir. Onlara bunun əksini inandırmaq çox çətindir. Xüsusən də əgər bu vəzifədə hər hansı bir uğur qazana bilsələr, onların içindəki bu təkəbbür bütün qəlblərini bürüyər.

Gizli təkəbbürün ortaya çıxdığı bir çox başqa sahələr də var. Məsələn, zahirən təvazökar görünən bir vəzifə sahibi həmin vəzifəsini itirdikdən sonra gözlənilməz dərəcədə dəyişir, özünə qapanıb qalır, ümidsiz, əzgin və durğun bir vəziyyətə düşür. Bax, bu, onun təkəbbürünün ən mühüm əlamətidir. Təvazökar bir insan var-dövlət, mal-mülk, vəzifə kimi nemətlərin olması və ya itirilməsi hallarında öz tövrünü, davranışını və hərəkətlərini əsla dəyişməz. Çünki o, bunların hamısında bir xeyirin və hikmətin olduğunu bilir və hansı halda olursa olsun Allahın razılığını əldə etmək istəyir. Bu davranışın əksini göstərən bir insanın isə nüfuza, mövqeyə, var-dövlətə böyük əhəmiyyət verməsi, beləliklə də lovğa bir adam olması həqiqəti sübuta yetir.

Təvazökar bir insan həddən artıq sadə və səmimi bir şəxsiyyətə malikdir, onun rahatlığını əlindən alacaq heç bir cəhəti yoxdur. Lakin bunu da xüsusi qeyd etmək lazımdır ki, hədsiz təvazökarlıq göstərmək də təkəbbürün və lovğalığın mühüm əlamətlərindən biri sayılır. Çünki öz daxilində gizli şəkildə təkəbbür saxlayan bir insan təvazökarlığın təqdir edildiyi şəraitlərdə qeyri-səmimi təvazökarlıq göstərərək insanların etibarını və rəğbətini qazanmaq, onlar tərəfindən təriflənmək istəyir.

Bir qədər əvvəl də qeyd edildiyi kimi, gizli təkəbbür gözlənilməz məqamlarda ortaya çıxdığına görə mühüm bir təhlükə yaradır. Ətrafdakı insanlar ilk dəfə üz-üzə gəldikləri həmin təkəbbürlü insanın əsl siması qarşısında çaşqınlığa düşürlər. Məsələn, təkəbbürsüz və təvazökar bir adam kimi tanınan lovğa bir adam səhv etdiyi və yaxud da tənqid edildiyi bir anda çox əsəbiləşib öz hərəkətlərinə nəzarət etməyə bilər. Bunun səbəbi onun səhvinin başqa insanlar tərəfindən öyrənilməsidir, bu vəziyyət onu çox narahat edir. Onun təkəbbürünün həmin ana qədər ortaya çıxmamasının səbəbi isə şəxsi maraqları ilə ziddiyyət təşkil edən bir vəziyyətin yaranmamasıdır. Lakin indi insanların gözündə bütün etibar və nüfuzunun sarsıldığını düşünür və elə hərəkətlər edir ki, daxilindəki bütün təkəbbür və azğınlıqlar üzə çıxır.

Gizli təkəbbür özünü əxlaqi pozğunluqlarla da büruzə verir. İnsan öz qüsurlarının ortaya çıxmaması üçün yalan danışa və ya yüksəlmək üçün başqalarının qüsurlarını ortaya çıxarmağa çalışa bilər. Səhv etməkdən də möhkəm qorxar. Bir qüsuru üzə çıxdığı zaman özünü qınayaraq, məyus olaraq yaxud da ağlayaraq ona gələ biləcək mümkün təzyiqləri zərərsizləşdirməyə, beləliklə də özünü qorumağa çalışar.

Təkəbbürlü insanlar öz narazılıqlarını səssiz etiraz formalarına əl atmaqla, naz etməklə, küsməklə, ətrafında olan insanları acılamaqla ifadə edirlər. Bu səbəbdən də hər kəs bu əlamətləri gördüyü zaman sırf təkəbbür əlamətləri ilə üz-üzə olduğunu anlaya bilər. Halbuki bu qeyd olunanların əksəriyyəti gizli təkəbbürdə yoxdur. Gizli təkəbbürə malik olan insanlar kənardan baxıldığı zaman şən, qıvraq, normal insanlar kimi görünürlər. Onların gündəlik həyatlarındakı davranışları da əsasən çox təbiidir. Hətta bəzən təvazökarlığı da çox yaxşı təqlid etdiklərinə görə ətrafdakı insanlar onlara inanırlar. Lakin belə insanların ən bariz xüsusiyyəti onların özlərini elə öz gözlərində çox böyütmələridir. Onlar öz sənətlərində, məktəblərində, içində olduqları mühitlərdə və ya məşğul olduqları sahələrdə "ən yaxşı" olduqlarına inanırlar. Bu hal onların şüuraltısına möhkəmcə yerimişdir. Yuxarıda da qeyd olunduğu kimi, kənardan buna əks təsir aldıqları zaman onların əsl xüsusiyyətləri üzə çıxır, buna ani olaraq reaksiya verir, əsəbiləşirlər. Haqlarının tapdalandığını düşünərək öz içlərində qarmaqarışıq bir ruhi vəziyyət şəraitində yaşayırlar. Bu da sözügedən insanların ağrılı yerlərinin və zəif nöqtələrinin olmasına işarədir. Onların bu "sarı simi"nə toxunulduğu anda təkəbbürləri üzə çıxır, ani olaraq divanəlik dərəcəsinə çatırlar.

Gizli təkəbbürə malik olan və özlərini daim təmizə çıxarmağa çalışan insanlar qəlblərində olan təkəbbürü və lovğalığı ola bilsin ki, bir müddət gizləyə bilsinlər, lakin Allah onların qəlbində olanları yaxşı bilir və onları mütləq üzə çıxarır. Belə ki, Quran ayələrində də bu məsələyə belə diqqət yetirilir:

> *"Şübhəsiz ki, Allah onların gizlində də, aşkarda da nə etdiklərini bilir. Allah təkəbbür edənləri sevməz!*
>
> **(Nəhl surəsi, 23)**

Haqqında bəhs olunan hər iki qrupun, yəni açıq və gizli təkəbbür sahiblərinin mühüm ortaq xüsusiyyətlərindən biri də onların qaçılmaz olan aqibətidir: Onların hər ikisinin sonu cəhənnəmdir. Açıq və gizli şəkildə olmasından asılı olmayaraq dünyada Rəbbimizə qarşı təkəbbür göstərənlərin hansı aqibətlə qarşılaşacaqları Quranın bir çox ayəsində bildirilmişdir. Bu ayələrdən biri aşağıdakı kimidir:

> *"Haydı, girin əbədi qalacağınız cəhənnəmin qapılarına. Təkəbbürlülərin məskəni necə də pisdir!*
>
> **(Nəhl surəsi, 29)**

VI FƏSİL

# QURANDA VERİLƏN TƏKƏBBÜR NÜMUNƏLƏRİ

## Təkəbbürlü insanların başçısı şeytandır

Şeytanın təkəbbür göstərməsi və buna görə də Allahın hüzurundan qovulması Quranda insanlara bir ibrət kimi göstərilir. Bu kitabın girişində də toxunduğumuz kimi, Allah Hz. Adəmi yaratmış və mələklərə ona səcdə etmələrini əmr etmişdi. Mələklər Allahın əmrini yerinə yetirdikləri zaman cinlərdən olan İblis Hz. Adəmə səcdə etməmişdi. O, özünün insandan üstün yaradıldığı iddiasını irəli sürmüş və itaətsizlik nümayiş etdirmişdi. Bu hərəkəti də onun Allahın hüzurundan qovulmasına səbəb olmuşdu.

Quranda şeytan haqqındakı hekayədə İblisin Allaha qarşı çıxmasının səbəbi belə izah edilir:

> *“Allah: “Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?” - deyə buyurdu. (İblis:) “Mən ondan daha yaxşıyam, çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!” - dedi.*
>
> **(Əraf surəsi, 12)**

İblis özünün daha üstün varlıq olması iddiasını irəli sürərək insana səcdə etməyi rədd edir. Lakin onun üsyan etməsinin əsasında dayanan arqument çox çürük və mənasızdır. O, özünün oddan, insanın isə palçıqdan yaradıldığını bildirir və odun palçığa nisbətən daha üstün bir maddə olması fikrini irəli sürür. Yəni onun təkəbbür göstərməsinin səbəbləri iki maddə arasında olan fiziki quruluş fərqinə söykənir. Lakin palçıqdan yaxud da oddan yaradılmalarından asılı olmayaraq həm İblis, həm də insan Allah tərəfindən yaradılmış varlıqlardır. Yaradılmış varlığın özünün yaradıldığı maddəni əsas götürməklə onu Yaradanın əmrinə qarşı çıxması həm böyük bir ağılsızlıq, həm də böyük bir nankorluqdur.

Bunlarla yanaşı İblisin özünü üstün hesab etdiyi məqam diqqətlə incələnəndə onun hətta zahirən də nə qədər yanıldığı, gümanının nə qədər səhv olduğu asanlıqla aydın olur. Od palçıqdan zahirən daha parıltılı və nəzərəçarpan ola bilər, lakin torpağın tərkibi bir çox mineral və maddələrlə zəngindir. Bütün qiymətli maddələr və daşlar torpağın tərkibindədir. Allah diləməsə, torpaq asanlıqla sıradan çıxmaz, yox olmaz, lakin od bir anda sönə bilər. Torpağın başqa bir üstün xüsusiyyəti də var. Belə ki, torpaq odun üzərinə atılanda onu söndürür.

Bütün bunları bir kənara qoyaq, Allahın verdiyi hökmün əhəmiyyətsiz, saf-çürük edilməsindən, onun müzakirəyə çıxarılmasından hansı səbəblə olursa-olsun söhbət belə gedə bilməz. Lakin İblisin təkəbbürü onun ağıllı davranmamasına, bütün varlıqların tək və şəriksiz Yaradıcısı olan Uca Allahın yüksək qüdrətini dərk etməməsinə, Onu lazımınca təqdir edib

qiymətləndirməməsinə səbəb olmuşdur. Bu ağılsızlığının bir nəticəsi kimi də sadə bir fiziki fərq onun aldanması üçün kifayət etmişdir. İblis Allahın hüzurunda olmasına, cənnətdəki gözəlliyi və cəhənnəmdəki əzabı bilməsinə baxmayaraq təkəbbüründən irəli gələn bu aldanışı onun öz Yaradanının əmrinə qarşı çıxmasına səbəb olmuşdur:

> *"Yadına sal ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" -deyə əmr etmişdik. İblisdən başqa hamısı səcdə etdilər. İblis: "Sənin palçıqdan yaratdığına mən səcdə edərəmmi?!" -demişdi.*
>
> **(İsra surəsi, 61)**

Ayədəki son ifadə İblisin nə qədər təkəbbürlü olmasının göstəricisidir. Başqa birisinin yüksəldilməsi, özünün isə arxa planda qalması, hətta həmin o kimsəyə səcdə etməsinin ondan tələb olunması İblisin həmin ana qədər öz daxilində gizlətdiyi təkəbbür hissini üzə çıxardı. İblis belə bir halın ona verdiyi şüursuzluq içində də Allaha qarşı çıxdı, Uca Yaradanı lazımınca təqdir edə bilmədi, Ona qarşı hörmətsiz davrandı (Allahı bunlardan uzaq tuturuq). Bu hərəkətinə görə Allah Quranda şeytana belə buyurur:

> *"Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?*
>
> **(Səd surəsi, 75)**

Şeytanın özünü yüksəltmək üçün Allaha qarşı qaldırdığı üsyan tərsinə çevrilərək onun elə öz başında çatladı. Allah şeytanın batil yoluna tabe olan bütün təkəbbürlü insanlara ibrət olsun deyə şeytanı alçaltdı və onu cənnətdən qovdu:

> *"Allah buyurdu: "Oradan rüsvay olmuş və qovulmuş halda çıx. Onlardan hər kim sənə uysa, əlbəttə, cəhənnəmi sizin hamınızla dolduracağam!*
>
> **(Əraf surəsi, 18)**

Ayələrdən də gördüyümüz kimi, şeytanın ən böyük ağılsızlığı onun öz məntiqsizliyi ilə izahlar verməsi və bunları həqiqət kimi qəbul etməsidir. Belə bir məntiqsizlik şeytanın felinə uyan və içində "şeytani təkəbbür" daşıyan hər bir insanda rast gəldiyimiz başlıca cəhətlərdən biridir. Təkəbbürün insanı nə dərəcədə kor etməsi şeytanın və ona tabe olanların onları yaradan sonsuz qüdrət sahibi Allaha qarşı üsyan etmələrindən də aydın şəkildə görünür. Bütün hadisələri yalnız

bir nöqteyi-nəzərdən, öz mənfəəti və razılığı çərçivəsində qiymətləndirən bir insanın bəsirət gözünün tamamilə kor olması da çox təbii haldır. Belə insanlar hər şeyi olduğundan daha fərqli şəkildə qəbul edir və tam əksinə olan şərhlər verirlər.

## Şeytanın insanları yoldan çıxarması

Şeytanın məntiqsiz düşüncəsinə əsasən onun alçalmasına insan səbəb olmuşdur. O da Allahın hüzurundan qovulmazdan əvvəl bu vəziyyətə düşməsinə səbəb olan insanı özü kimi azdırıb ondan intiqam almaq üçün Allahdan müəyyən bir möhlət istəmişdi. Beləliklə, şeytan qısqandığı, özündən üstün olmasını istəmədiyi insanı müxtəlif yollarla doğru yoldan azdıracaq və bu, onun Allah qarşısında təkəbbür göstərməsinə səbəb olacaqdı. Şeytan özü alçaldıldığı bir halda insanın üstün olması onun təkəbbürünə sığışmayan bir vəziyyətdir. Quranın şeytan haqqında olan hekayəsində bu hadisə belə bildirilir:

Allah: “Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?” - deyə buyurdu. (İblis:) “Mən ondan daha yaxşıyam, çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!” - dedi”. Allah buyurdu: “Oradan aşağı en. Orada sənə təkəbbür göstərmək yaramaz. Çıx, çünki sən alçaqlardansan!” İblis dedi: “Mənə qiyamətə qədər möhlət ver!” Allah buyurdu: “Sən möhlət verilənlərdənsən!” İblis dedi: “Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam! Sonra Onların qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən! (Əraf surəsi, 12-17)

Bu hadisədən sonra İblisin insana qarşı mübarizəsi başlandı. Bundan sonra İblis ona verilən möhlət ərzində insanları Allah yolundan çəkindirəcək, bu məqsədlə də hər bir yoldan istifadə edəcək və insanların əksəriyyətini özünə tabe edəcəkdi. Belə ki, Quranda həqiqətən də əksər insanların şeytana tabe olduğu və bu səbəbdən də çox alçaldıldığı bildirilir. Həmin andan sonra İblis insan nəslindən olan bir çoxlarını yolundan azdırdı və öz tərəfinə çəkdi. Onun özü kimi cinlərdən də bir çox köməkçiləri oldu.

İblisin köməkçiləri olan bu cinlər və insanlar da onun kimi şeytani sifətə malikdirlər. “Şeytan” sözünün kökü “uzaq olmaq” kəlməsindən gəlir və bu söz təkəbbür göstərərək Allahın rəhmətindən qovulub uzaqlaşdırılmış hər bir yolundan azmış və günahkar olan bəndənin əsl sifətini müəyyən və ifadə edir. Bu cin və insanlar İblisin yolu ilə gedir, özləri təkəbbür göstərərək yoldan azdıqları kimi başqa insanları da düz yoldan azdırmaq istəyirlər. Quranda həmin cin və şeytanlardan belə bəhs olunur:

Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar aldatmaq məqsədilə bir-birinə təmtəraqlı sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər! (Ənam surəsi, 112-113)

Şeytanın təkəbbürü eyni zamanda onun yoldan azdırdığı, özünə tabe etdiyi, özünə bənzətdiyi insanların da ən böyük əlamətidir. Təkəbbür şeytanın möhürü və imzası kimi bir şeydir. Şeytan öz nəzarəti altına aldığı, özünə tabe etdiyi adamları məhz bunun vasitəsilə damğalayır.

Buradan da aydın olduğu kimi, öz təkəbbürü səbəbi ilə Allahın hüzurundan qovulmuş şeytanın sözügedən xəstəliyi insanlar üçün böyük bir təhlükə törədir. Çünki şeytan insanı özünə yaxınlaşdırmaq üçün ilk növbədə öz xəstəliyini bu insanlara yoluxdurur. Lovğalıq və təkəbbürlülük kimi pis xəstəliyə tutulan insanın ağlı və şüuru qapalı olur, onun bəsirət gözü kor olur. Bu səbəbdən də möminlər Quranda şeytanın tamamilə əksinə olaraq sadəliyə, səmimiliyə və gözütox olmağa sövq edilmişlər:

> *...Sizin ilahınız yalnız bir olan Allahdır. Yalnız Ona təslim olub itaət edin. Sən də itaət edənlərə müjdə ver!*
>
> **(Həcc surəsi, 34)**

Şeytanın təsiri müxtəlif formalarda ortaya çıxa bilər. Məlum olduğu kimi, şeytan Allahın ona verdiyi nemətlərdən Rəbbimizə yaxınlaşmaq və Ona şükür etmək üçün istifadə etmək əvəzinə elə həmin nemətlər sayəsində azğınlaşıb yoldan azmışdır. Şeytan Allahın sadəcə olaraq bircə dəfə diləməsi ilə onu yox edəcəyini düşünmədən Allahın əmrinə qarşı çıxmışdır. Bu xüsusiyyət şeytana tabe olan insanlarda özünü daha açıq şəkildə büruzə verir. Məsələn, bir insan zahirən dinə xidmət etmiş kimi görünə bilər. Lakin insan bu xidməti ona yalnız Rəbbi tərəfindən verilmiş və nəticədə ona Allahın razılığını qazandıracaq bir imkan kimi qiymətləndirməlidir. Əks halda insanın bunu Allahın nəzarəti olmadan, öz gücünə əldə etdiyi bir uğur kimi təsəvvür etməsi və bununla öyünməsi səhv olardı. Çünki əldə etdiklərini özünə aid etmək və malik olduğu xüsusiyyətlərlə lovğalanıb öyünmək şeytana və ona tabe olanlara xas olan bir cəhətdir. Belə ki, malik olduğu zənginliyi öz şəxsi əməyinin nəticəsi sayan, bununla lovğalanıb "Bu mənə yalnız məndə olan elm sayəsində verilmişdir" (Qəsəs surəsi, 78) deyən Qarun yolundan azması səbəbi ilə Allah tərəfindən cəzalandırılmış insanlara dair mühüm bir örnəkdir.

Unutmaq olmaz ki, şeytan insana özünü hiss etdirmədən, yəni çox hiyləgərcəsinə yaxınlaşır. O bu zaman lazım gələndə çox asta şəkildə, ehtiyatla hərəkət edir, tələsmir. Özünü yüksək tutmaq kimi təlqinini insanlara uzun müddət ərzində və bir çox müxtəlif hadisənin timsalında çox asta-asta edə bilir. Əgər insan şeytanın bu üsulu qarşısında ayıq-sayıq olmasa, həmin təlqinlərin təsiri bir müddət sonra get-gedə artıb böyüyəcək. Məsələn, əldə edilən kiçik bir müvəffəqiyyətdən sonra şeytan insana mütləq müəyyən şeyləri təlqin etmək istəyəcək. Həmin təlqinlər nəticəsində insanlar ola bilsin ki, "bu işi mən gördüm, mən çox bacarıqlıyam, çox qabiliyyətliyəm" kimi bəzi ifadələri işlətməsinlər. Lakin şeytanın burada işə saldığı taktika həmin sözləri açıq şəkildə dedizdirmək əvəzinə o hissləri insanın qəlbinə salıb ona daxilən təsir etməyə çalışmaq kimi bir hiyləyə əl atmaqdan ibarətdir. Əgər insan bu müvəffəqiyyətin tək sahibinin Allah olduğunu qəlbən hiss etməsə, o, şeytanın arasıkəsilməz vəsvəsələri, hiylələri və təlqinləri nəticəsində bir müddət sonra bütün uğurların yalnız özünə aid olmasına qəlbən inanmağa başlayacaq.

İnsanın həmin ruhi vəziyyəti bir qədər də davam edərsə, təkəbbür onun bütün xarakterinə hakim kəsiləcək. Artıq yalnız öz bildiyini edən, özü göstəriş verən, "öz əli öz əməli" olan, ağlını başqa insanların ağlından üstün tutan bir insan tipi ortaya çıxmış olur. Yəni insanın daxilindəki

özünü üstün tutma mərəzi üzə çıxır. Belə bir psixologiyaya qapılan insanın ruhunda zaman keçdikcə çox ciddi zədələr əmələ gəlir. Bir müddət sonra isə onun qəlbi Allahın ayələrinə qarşı etinasız olur. Belə ki, Quranda təkəbbür göstərməyənlərin Allahın ayələrinə iman gətirə biləcəkləri bildirilir:

> *“Bizim ayələrimizə ancaq ayələrimizlə öyüd-nəsihət olunduqları zaman səcdəyə qapananlar və təkəbbür göstərməyərək Rəbbini həmd-səna ilə təqdis edənlər iman gətirərlər.*
>
> **(Səcdə surəsi, 15)**

## Şeytana uyanların aqibəti

Təkəbbürə meylli, lovğa qəlblərdə şeytanın təsiri daha böyükdür. Allahın qüvvəsini tanıyacaq bir imana və ağıla sahib olmayan insanlar (Quranda insanların əksəriyyəti bu qrupa aid edilir) şeytanın addımlarına uymuş və onun firqəsinə çevrilmişlər. Ayədə bu insanlardan belə bəhs edilir:

> *“Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsidirlər. Bilin ki, ziyana uğrayanlar məhz onlar şeytanın firqəsidir!*
>
> **(Mucadələ surəsi, 19)**

Şeytanın arxasınca gedənlər və ona aldananlar ən böyük çaşqınlıqla əlbəttə ki, axirətdə rastlaşacaqlar. Çünki onlar həm cəhənnəmlə qarşılaşacaq, həm də şeytan orada onları tək qoyacaq. O zaman həmin insanlar şeytanın yalnız boş vədlər verdiyini, onun sözlərinin yalandan başqa bir şey olmadığını görəcəklər. Lakin çox gec olacaq, çünki şeytanın onları aldatdığı məlum olmuşdur, indi onları cəhənnəm əzabı gözləyir. İş-işdən keçdikdən sonra şeytan belə deyir:

*“ İş bitdikdə şeytan belə deyəcək: “Allah sizə doğru vəd vermişdi. Mən də sizə vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm yox idi. Lakin mən sizi çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə sizin məni şərik qoşmağınızı da inkar etmişdim. Həqiqətən, zalimləri şiddətli bir əzab gözləyir!*

**(İbrahim surəsi, 22)**

VII FƏSİL

# FİRON

Allaha qarşı təkəbbürlü və lovğa olması səbəbi ilə adı Quranda çəkilən insanlardan biri də Firondur. Quranda insanlara ibrətamiz nümunə kimi göstərilən Fironu yalnız fərd olaraq qiymətləndirmək mövzunu məhdud çərçivədə görməyimizə səbəb olardı. Fironun Quranda verilən hekayəsini müxtəlif aspektlərdən qiymətləndirməkdə əsas məqsədimiz ayələrdə haqqında bəhs olunan Hz. Musa qarşısındakı Fironla bağlı məlumat verməklə yanaşı təkəbbürlü insanlarda tez-tez rast gəlinən "Firon xarakteri"ni də açıqlamaqdır.

Tarixdə belə xarakterə malik olan bir çox tanıdığımız və tanımadığımız insanlar olub. Əslində bu xüsusiyyətlər xalqa da yad deyil. Xalq arasında təkəbbürü və lovğalığı ilə məşhur olan azğın insanlar barədə "Firon kimidir", "Fironluq edir" ifadələri işlədilir.

İndi isə haqqında Quranda bəhs olunan Firon və onun ailəsi barədəki yazılanlara diqqət yetirək:

> *"Eynilə Firon nəslinin və onlardan əvvəlkilərin hərəkətləri kimi. Onlar Rəbbinin ayələrini yalan hesab etdilər, Biz də onları günahlarına görə məhv etdik. Firon nəslini batırdıq. Onların hamısı zalım idi!*
>
> **(Ənfal surəsi, 54)**

Həm Fironun, həm də ondan əvvəl yer üzündən silinən qövmlərin ortaq xüsusiyyətləri onların təkəbbürlü olmalarıdır. Onların daxilindəki təkəbbür hissi Allahın elçisini tanımalarına və ona itaət etmələrinə mane olmuşdu. Təbii ki, onların bu hərəkətləri həm bu dünyada, həm də axirətdə əzaba düçar olmalarına səbəb oldu. Fironun təkəbbüründən danışarkən həm Quranda bəhs olunan qövmlərlə, həm tarix boyunca yaşamış təkəbbürlü insanlarla, həm də bu günümüzlə müəyyən bir əlaqə yaratmaq bu mövzunun əhəmiyyətinin üzə çıxarılmasına kömək edəcək.

Fironun və onun yaxın ətrafının Allahın elçisinə göstərdiyi münasibət bütün azğın qövmlərin ortaq cəhətidir. Həmin insanların qəlbi təkəbbür hissi ilə o qədər dolmuşdu ki, onlar Allahı və Onun elçisini tanımamış, bu təkəbbür hissi onları Allahın elçilərini və ayələrini hətta lağa qoymaq rəzalətinə qədər alçaltmışdı. Bu hal ayələrdə belə xəbər verilir:

Biz Musanı Öz möcüzələrimizlə Firon və onun əyan-əşrafının yanına göndərmişdik. O demişdi: "Mən aləmlərin Rəbbinin elçisiyəm!" (Musa) möcüzələrimizlə onların yanına gələr-gəlməz onlar bu möcüzələrə lağ edib gülmüşdülər. (Zuxruf surəsi, 46-47)

Fironun ən qabarıq xüsusiyyətlərindən biri də onun öz başçısı şeytan kimi zahiri dəyərlərə böyük əhəmiyyət verməsidir. O, öz yanlış düşüncəsi və məntiqsizliyi ucbatından hadisələri ağıllı şəkildə qiymətləndirəməmiş və bu səbəbdən də Hz. Musanın üstünlüyünü dərk edə bilməmişdi.

Çünki Firona görə, üstünlüyün ölçüsü yalnız var-dövlət, güc, iqtidar və hakimiyyət kimi bəzi dünyəvi dəyərlərlə müəyyən edilir. Bu məntiqsiz və çürük dünyagörüşü Quranda belə səciyyələndirilir:

Firon öz qövmünə müraciət edib dedi: "Ey qövmüm! Məgər Misir səltənəti, altımdan axıb gedən bu çaylar mənim deyilmi?! Məgər görmürsünüzmü?! Yaxud mən az qala aydın deyə bilməyən bu zavallı kimsədən daha yaxşı deyiləmmi?! Əgər düz deyirsə, onun üstünə qızıl bilərziklər atılmalı və onunla birlikdə bir-birinin ardınca mələklər gəlməli deyildimi?! (Zuxruf surəsi, 51-53)

Bu ayələrdə diqqəti cəlb edən cəhətləri təsnif edəsi olsaq, onları aşağıdakı kimi sıralamaq olar:

1. Firon üçün üstünlüyün ölçüsü təqva (Allah qorxusu) deyil, var-dövlət və sərvət etibarilə üstün olmaqdır. Həmçinin əsil-nəcabət amili də mühüm idi.

2. Peyğəmbərlərin göndərilməsinin yalnız Allaha aid məsələ olduğunu dərk etmədiyinə görə Hz. Musanın elçi kimi göndərilməsini qəbul etməmişdi.

3. Hz. Musaya yuxarıdan aşağı baxmış, onun aşağı sinifdən (təbəqədən) olduğunu bildirmiş və danışığındakı qüsuru irad tutmuşdu. Belə ki, hər kəsdə çatışmayan bir cəhət tapmaq təkəbbürlü insanların ən başlıca xüsusiyyətlərindən biridir. Əlbəttə, onların bir insana yuxarıdan aşağı baxması həmin insanın Allah dərgahında olan qiymətini və üstünlüyünü isbat edən hadisədir.

4. Fironun üstünlük ölçüləri var-dövlət, mal-mülk və güc olduğuna görə elçi gəldiyi zaman onunla birlikdə buna uyğun özəlliklər və ya möcüzə kimi mələklər olmasını gözləmişdi.

## Firon Hz. Musanın yanında özünü ucaltmağa çalışmışdı

Hz. Musa ilə Firon arasındakı söhbət Quranda belə bildirilir:

İsrail oğullarını bizimlə birlikdə göndər!" Firon dedi: "Biz səni körpə uşaqkən yanımıza alıb böyütmədikmi? Sən illərcə yanımızda qalmadınmı? Axırda elədiyini də elədin. Sən nankorun birisən!" Musa dedi: "Mən onu edərkən cahillərdən idim. (Şuəra surəsi, 17-20)

Yuxarıda qeyd olunan ayələrdə Fironun təkəbbürünün fərqli bir təzahür şəklini görürük. Hz. Musa Fironu Allaha itaət etməyə dəvət etdiyi zaman Firon dərhal cəhalət dövrünün metodlarından istifadə etmiş, onun boynuna minnət qoymaq istəmişdi. Firon Hz. Musa uşaq ikən onu tərbiyə edib böyütdüyünü, ona zəhmət çəkdiyini, buna görə də Hz. Musanın ona borclu olduğunu demişdi. Bundan dərhal sonra isə Hz. Musanın keçmişdə, dinə görə hələ məsuliyyət daşımadığı cəhalət dövründə istəmədən etdiyi bir səhv hərəkəti ona bildirmişdi. Beləliklə, Firon Hz. Musanı sözdə alçaldıb özünün ondan və onun xalqından yüksək olması kimi məntiqsiz bir fikir söyləmişdi.

## Fironun böyüklük arzusu ilə Hz. Musanı öldürməyə çalışması

Firon dedi: "Buraxın məni Musanı öldürüm, qoy o da Rəbbini (köməyə) çağırsın. Doğrusu, mən onun sizin dininizi dəyişdirəcəyindən və yer üzündə fitnə-fəsad törədəcəyindən qorxuram". Musa dedi: "Mən haqq-hesab gününə inanmayan hər bir təkəbbür sahibindən həm mənim Rəbbim, həm də sizin Rəbbiniz olan Allaha pənah aparıram!" (Mumin surəsi, 26-27)

Firon o qədər təkəbbürlü idi ki, o, yalnız Hz. Musanı öldürməklə rahat ola bilərdi. Onun bu lovğa hərəkəti eyni zamanda Allaha qarşı bir üsyan idi. Əslində Firon Hz. Musanın ondan üstün olduğunu bilir, bu səbəbdən də onu öldürüb qövmünün gözündə yeganə hakim olmaq istəyirdi. Hz. Musa isə Fironun azğınlığı qarşısında gözəl davranmış və Allaha sığınmışdı.

Ayədə Fironun lovğalığına diqqət yetirilərkən onun hesab gününə iman gətirməməsindən də bəhs edilir. Əlbəttə, əgər bir insan Allahın Kitablarına, eləcə də elçiləri vasitəsilə varlığını bildirdiyi hesab gününə iman gətirmirsə, bu, həmin insanın azğınlığının və təkəbbürünün nə qədər böyük olduğunu göstərir. Lakin belə təkəbbürlü insanlar bu davranışlarının, bu lovğalıqlarının cəzasını axirətdə ən ağır şəkildə alacaqlar. Fironun da cəzalanacağı kimi...

## Fironun ilahlıq iddiası

Firon (istehza ilə) dedi: "Ey Haman! Mənim üçün bir uca qəsr tik ki, bəlkə, yollara yetişim. Göylərin yollarına və Musanın Allahını görüm. Doğrusu, mən onu yalançı sayıram!" Firona pis əməli beləcə yaxşı göstərildi. O, (haqq) yoldan çıxarıldı. Fironun hiyləsi ancaq boşa çıxdı. (Mumin surəsi, 36-37)

> *“Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir ilah olduğunu bilmirəm. Ey Haman! Mənim üçün od qalayıb palçıqdan kərpic bişir və bir qüllə tikdir ki, bəlkə, Musanın ilahsına tamaşa edim. Axı mən onu, həqiqətən, yalançı sayıram!"*
>
> **(Qəsəs surəsi, 38)**

Firon ayələrdə bildirilən ifadələri və Allaha qarşı yönələn mübarizəsi ilə çox çirkin və ağılsız bir "cəsarət" nümunəsi göstərmişdi. O, həmçinin öz yanlış zənni ilə Allahı yalnız "göylərin Rəbbi" adlandırmışdı. Halbuki Allah göylərin, yerin və bunların arasında olanların Rəbbidir, amma Firon bunu dərk edə bilməmişdi. Firon öz aləmində özünü yerdə "ilah" elan etdiyinə görə Allahın varlığını qəbul edəcəyi təqdirdə onun gücünün, hakimiyyətinin bir mənası qalmayacaqdı. Bu səbəbdən də Firon Allahı yalnız göylərin ilahsı, hakimi kimi göstərmək istəmişdi. Firon Allahı yalnız göylərdə axtarmış, lakin "Mumin" surəsindəki ayələrdə də qeyd olunduğu kimi, bu, ona

yalnız zərər və itki gətirmişdi. Lakin Firon bu zərəri görənə qədər özünün azğın təkəbbürü ilə lovğalanmaqda və ilahlıq iddiasında qalmaqda davam etmişdi. O, hətta yaxın ətrafındakı adamların və Hz. Musanın bu iddianı qəbul etməsi üçün güc tətbiq etməyi, hədə-qorxu gəlməyi də məqbul saymışdı. Bu məsələ ayələrdə belə bildirilir:

Firon dedi: “Aləmlərin Rəbbi nədir? Musa: “Əgər yəqin inanacaqsınızsa, bilin ki, O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!” - deyə cavab verdi. Firon ətrafındakılara: “Eşitdinizmi?” - dedi. Musa dedi: “O sizin də, ulu babalarınızın da Rəbbidir!” Firon: “Sizə göndərilmiş peyğəmbər, şübhəsiz ki, divanədir!” - dedi. Musa dedi: “Əgər düşünə bilirsinizsə, O, şərqin, qərbin və onların ikisinin arasında olanların Rəbbidir!” Firon: “Əgər məndən başqa ilah qəbul etsən, səni mütləq dustaq edəcəyəm!” -dedi. (Şuəra surəsi, 23-29)

Bu ayələrdə də Fironun ilahlıq iddiası və onun Allaha qarşı mübarizəsi ilə rastlaşırıq. Firon əvvəlcə Allah haqqında bir sual vermiş, lakin bunu xoş niyyətlə etməmişdi. Onun təkəbbürü o qədər qüvvətli idi ki, Hz. Musanın verəcəyi hər bir cavabı hətta bəri başdan rədd etmək niyyətində idi. O, hansı dəlili görməsindən asılı olmayaraq Allahın böyüklüyünü qəbul edə bilməyəcək bir haldadır. Hz. Musa onun suallarına cavab verdikdə, yəni Allahın həm keçmişdə yaşayanların, həm də o dövrdə yaşayan hər bir insanın Rəbbi olduğunu dedikdə Firon daha da azğınlaşmışdı. Bu azğınlığının nəticəsində də ona göndərilmiş elçini dəlilikdə ittiham etmiş, sonra isə onu həbs etməklə qorxutmağa çalışmışdı. Firon Hz. Musa ilə mübarizəyə başlamışdı. Lakin yalnız möminlərə xas olan ağıl onda olmadığı üçün mühüm bir məsələni, özü (yəni Firon) və onun malik olduqları da daxil olmaqla hər şeyin yeganə sahibi olan Allahın Hz. Musanı dəstəkləyən qüvvə olması faktını yaddan çıxarmışdı.

## Fironun təkəbbürü onun möcüzələri görməsinə mane olurdu

Hz. Musa Fironu Allaha iman gətirməyə çağırdığı zaman Fironun ilk şərti ondan bir möcüzə göstərməsini istəmək olmuşdu. Özünün bacarıqlı sehrbazlarına güvənən Firon bütün insanları bir yerə toplayaraq hamının gözü qarşısında hər iki tərəfin öz möcüzələrini göstərməsini tələb etmişdi. Hz. Musa sehrbazların sehr və möcüzələrini yox etdikdə isə Firon məğlub olmuşdu. Lakin Firon belə vəziyyətdə baş əyməli olduğu halda onun təkəbbürü daha da artmışdı.

Hz. Musanın möcüzəsi sehrbazların sehrini puça çıxarandan sonra hətta Fironun yanında olan və sehrbazların ən üstünü sayılanlar da həqiqəti görüb Allaha iman gətirdilər. Lakin bu da Fironun getdikcə artan təkəbbürünə, onun artıq daşlaşmış ürəyinə heç bir təsir etmədi, əksinə, o, daha da azğınlaşdı və beləliklə də zorakılığa əl atmaq qərarına gəldi:

Onlar səcdəyə qapanıb dedilər: “Biz iman gətirdik aləmlərin Rəbbinə - Musanın və Harunun Rəbbinə!” Firon dedi: “Mən sizə izn vermədən əvvəl siz ona iman gətirdiniz?” Bu, şübhəsiz ki, əhalisini çıxartmaq məqsədilə şəhərdə qurduğunuz bir hiylədir. Bunun əvəzində nə edəcəyimi biləcəksiniz! Əl-ayağınızı çarpaz kəsdirəcək, sonra isə hamınızı çarmıxa çəkdirəcəyəm!” (Əraf surəsi, 120-124)

## Fironun ibrətamiz aqibəti

Bu fəslin əvvəlində də bəhs olunduğu kimi, Firon yer üzündəki təkəbbürlü insanlara ən bariz nümunələrdən biridir. O, azğınlıqda məhz şeytanı özünə nümunə seçmişdi. Belə ki, Firon da əməllərinin cavabını öz başbiləni olan şeytan kimi hədsiz alçalma və təhqirlə almışdı. Üstəlik bu, elə bir alçalma idi ki, o, yalnız öz nəfsi qarşısında alçalmamışdı, Allah onu qiyamətə qədər bütün bəşəriyyət üçün bir ibrət vəsiləsinə çevirmişdir. Fironun ibrətamiz aqibəti Quranda belə bildirilir:

İsrail oğullarını dənizdən keçirtdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər. Firon batacağı anda: “İsrail oğullarının inandıqlarından başqa ilah olmadığına iman gətirdim. Mən artıq təslim olanlardanam!” - dedi. İndimi? Halbuki əvvəlcə Allaha qarşı çıxmış və fitnə-fəsad törədənlərdən olmuşdun! Səndən sonrakılara bir ibrət olsun deyə, bu gün səni xilas edəcəyik. Həqiqətən, insanların çoxusu ayələrimizdən qafildir! (Yunis surəsi, 90-92)

Ölüm ayağında olarkən xilas olmağın mümkün olmadığını və ölümdən qaça bilməyəcəyini görən Firon tövbə etmiş, lakin bu tövbə həqiqi olmadığı üçün ona heç bir faydası olmamışdı. O, Allahı və elçisini tanıya bildiyi, ona həqiqətlər təbliğ edildiyi və möcüzələr də göstərildiyi halda təkəbbür və inad göstərmişdi. Fironun lovğalanması və üstünlük iddiasında olması onu bu vəziyyətə gətirmiş, qarşı çıxdığı Allaha son anda tövbə etməsi də ona heç bir fayda verməmişdi.

Burada başqa bir məqama da diqqət yetirmək lazımdır. Fironun Allahı inkar etməsinin əsas səbəbi onun təkəbbürlü olmasıdır. Firon iman gətirmək üçün lazım olan dəlilləri görmədiyi və ya dərk etmədiyi üçün yox, iman gətirməyi qüruruna sığışdırmadığı üçün inadla inkar etmişdi. Məsələn, sehrbazlarının Hz. Musanın üstünlüyünü və doğruluğunu qəbul edərək Allaha iman gətirməsi onun üçün ən böyük dəlil idi. Hz. Musanın möcüzələri də böyük bir dəlil mənasına gəlirdi. Normal məntiqə əsasən bunları görən bir insan dərhal iman gətirməli idi.

Fironun təkəbbürü şüurunu üstələdiyinə görə isə o, normal məntiqlə düşünə bilmirdi. O, sehrbazlar iman gətirdiyi zaman “burada həqiqətən də bir qeyri-adiliyin olması” barədə düşünməmişdi. Firona ən çox təsir edən yeganə şey bu idi ki, sehrbazları bu addımı ondan icazə almadan atmışdılar. Firon azad düşüncə ilə deyil, təkəbbürünün ona verdiyi psixoloji təzyiq altında düşünürdü və buna görə də ölüm anı gəlib qüruru sınana qədər Allahı inkar etdi.

Fironun Allahı inkar etməsinə səbəb olan bu vəziyyət əslində Allahı inkar edən hər bir insana aiddir. Onların inkarçılığının əsası kifayət qədər dəlil görməmələrindən asılı deyil, təkəbbürləri ilə özlərinə etdiyi təzyiqdir. Quranda bu insanlardan belə bəhs olunur:

Möcüzələrimiz aşkar şəkildə gəlib onlara çatdıqda: “Bu, açıq-aydın bir sehrdir!” - dedilər. Möcüzələrimizin həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər. Bir gör fitnə-fəsad törədənlərin axırı necə oldu! (Nəml surəsi, 13-14)

## Firon qiyamət günündə öz qövmünün başında duracaq

Firon həm dünya nemətlərindən məhrum olmuş, əlindəki bütün sərvətlərini itirmiş, həm də sonsuz həyatında əbədi əzaba düçar olmuşdur. Onun təkəbbürünə səbəb olan bağçalar, bulaqlar, gözəl evlər, əkinlər, qısaca desək, bütün dünya malı əlindən çıxmışdır. Göründüyü kimi, insanın nə qədər varlı, nə qədər böyük mal-mülkə və gücə sahib olmasından asılı olmayaraq bunları onun əlindən almaq Allah üçün çox asandır.

Belə azğın və təkəbbürlü bir insan üçün axirət əzabı da çox çətin olar. Həmçinin belə insanlara uyan və Rəbbimizi unudan adamların bu azğın əməlləri də cavabsız qalmaz. Fironun və onun əxlaqında olanların ardınca düşüb onları özünə nümunə götürən adamlar hesab günü bu hərəkətlərinin cəzasını çəkmək üçün başçıları ilə birlikdə dirildiləcəklər. Eynilə, Fironun və ona tabe olanların qiyamət günü yaşayacağı aqibət ayələrdə belə ifadə edilir:

Firona və onun əyan-əşrafına... Onlar Fironun əmrinə tabe oldular. Halbuki Fironun əmri düzgün deyildi. Firon qiyamət günü camaatının qabağında gedib onları atəşə aparacaq. Onların düşəcəkləri yer neçə də pisdir! Onlar burada da, qiyamətdə də lənətə düçar olmuşlar. Onların qisməti necə də pisdir! (Hud surəsi, 97-99)

Bir qədər əvvəl də qeyd olunduğu kimi, bütün bunları sadəcə olaraq Fironun şəxsinə aid etmək doğru olmaz. Hər bir təkəbbürlü insan belə aqibətdən qorxub çəkinməlidir. Belə xarakterə və niyyətə malik olan insanlar Fironun aqibəti haqqında düşünüb öz aqibətlərinin ona bənzəməsindən qətiyyətlə çəkinməlidirlər.

Lakin bir məqama çox diqqətlə nəzər yetirmək lazımdır. Yalnız "Fironun təkəbbürü" deyil, təkəbbürün hər bir növü böyük bəladır. Çünki təkəbbür göstərmək düşüncəni kor etdiyinə görə insanın təkəbbürü özü də bilmədən arta bilər. Bir çox ayələrdə də qeyd olunduğu kimi, bu, Allahın sevmədiyi bir davranışdır. Bu səbəbdən də xüsusən möminlər heç bir məsələdə nəfslərinin yüksəlməsinə, lovğalanmasına, üstünlük iddiasında olmasına izn verməməlidir. Yaddan çıxarmaq olmaz ki, nəfsə verilən hətta ən kiçik fürsət də böyük fəlakətə səbəb ola bilər. İnsan özü də hiss etmədən yalnız öz düşüncələrinin doğru olması, öz davranışlarının üstün olması kimi bir lovğalıq və təkəbbür hissinə qapıla bilər. Belə ki, ən böyük lovğalıq və təkəbbürə malik olan Firon da eynilə belə bir aldanışın içində idi. Fironun bu vəziyyəti ayələrdə belə bildirilir:

> *...Firon dedi: "Mən sizə ancaq münasib gördüyüm rəyimi bildirirəm, mən sizə ancaq doğru yolu göstərirəm!"*
>
> **(Mumin surəsi, 29)**

Fironun öz düşüncəsinə və ağlına necə güvənməsi yuxarıdakı ayədən aydın olur. O, özü azğın bir insan olduğu halda kütlələri idarə etmək, onları öz arxasınca sürükləmək və yoldan azdırmaq

istəmişdi. Firon öz dünyagörüşünə o qədər arxayın idi ki, səhv yolda olmasını hətta ehtimal da etmirdi.

Bu, bütün təkəbbürlü insanların əsas xüsusiyyətidir. Təkəbbürlü insanlar özlərinə hədsiz dərəcədə güvənir və onlardan daha yaxşı bilənin olduğunu qəbul etmək istəmirlər. Beləl期ri özlərindən üstün olub Allah tərəfindən seçilmiş insanların varlığına isə heç dözmürlər. Öz ağlına bu şəkildə güvənib təkəbbür göstərən insanlar Fironun Quranda bildirilən vəziyyətindən ibrət dərsi almalıdır. Onun hərəkətlərinin nə qədər ağılsız olduğunu görüb vaxt varkən özlərini ona bənzətməkdən uzaq tutmalı və tövbə edərək Allaha boyun əyməlidirlər.

VIII FƏSİL

# QARUN

> *Həqiqətən, Qarun Musa qövmündən idi. Onlara qarşı həddini aşmışdı. Biz ona açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik. Qövmü ona belə dedi: "(Malına qürrələnib) sevinmə. Şübhəsiz ki, Allah qürrələnib sevinənləri sevməz!*
>
> **(Qəsəs surəsi, 76)**

Ayələrdən də aydın olduğu kimi, Qarunun doğru yoldan azmasına və təkəbbür göstərməsinə səbəb olan amil də var-dövlət idi. Allah Qarunu sınağa çəkmək üçün ona böyük xəzinə vermişdi. Bütün təkəbbürlü insanlar kimi Qarun da bu var-dövlət hesabına azğınlaşaraq yolunu azmışdı. Qarun bütün mal-mülkün yalnız Allaha məxsus olduğunu və onları istədiyi vaxt geri alacağını yaddan çıxarmış, bütün bu sərvəti Allah tərəfindən onu sınamaq üçün verildiyini anlaya bilməmişdi. Təkəbbürlü olması səbəbi ilə bunlara layiq olduğunu, bunların ona bəzi üstün xüsusiyyətlərə görə verildiyini düşünmüşdü:

> *Dedi: "Bu məni yalnız məndə olan elm sayəsində verilmişdir". Məgər o Allahın ondan əvvəl özündə daha qüvvətli və daha varlı olan neçə-neçə kəsləri məhv etdiyini bilmirdimi? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmazlar.*
>
> **(Qəsəs surəsi, 78)**

Təkəbbürlü insanların azğın dünyagörüşü məhz belədir. Onlar hər şeyi verən qüvvənin Allah olduğu halda Ona şükür etmək və ya Ondan bağışlanma diləmək əvəzinə təkəbbür göstərməyi üstün tuturlar. Bütün bu nemətlərin hər an əllərindən çıxa biləcəyini isə hətta ağıllarına da gətirmirlər. Halbuki yuxarıdakı ayədə də ifadə edildiyi kimi, Allah Qarundan daha varlı və güclü olan bir çox insanları təkəbbürlülük etdiklərinə görə məhv etmişdir. Qarunu da onun bənzədiyi insanlar kimi məhz təkəbbürünə görə bu dünyada ikən cəzalandırmışdır. Qarun özünü elə öz gözündə böyütdüyü kimi qüvvətli olsaydı, şübhəsiz ki, əvvəlcə özünə kömək edərdi. Lakin nə etibarı, nə mal-dövləti, nə adamları, nə də öyündüyü biliyi onu Allahdan gələn əzabdan xilas etməmişdi:

Nəhayət, onu sarayı ilə birlikdə yerə gömdük. Allaha qarşı ona yardım edə biləcək bir camaat da yox idi. O özü də özünə heç bir kömək edə bilmədi. Dünən onun yerində olmaq istəyənlər

ertəsi gün səhər belə deyirdilər: “Vay! Sən demə, Allah Öz bəndələrindən istədiyinin ruzisini artırarmış da, azaldarmış da! Əgər Allah bizə lütf etməsəydi, yəqin ki, bizi də yerə gömərdi. Sən demə, kafirlər nicat tapmayacaqlarmış!” (Qəsəs surəsi, 81-82)

IX FƏSİL

# 9 HAMAN

Quarandan da bildiyimiz kimi, Haman Fironun yanında olan və Fironun əxlaqı və düşüncəsi ilə hərəkət edərək onun əmrlərini yerinə yetirən bir insan idi. O da Firon kimi təkəbbürlü və azğın olduğuna görə onunla eyni cərgədə olmuş və Fironu dəstəkləmişdi. Hz. Musa öz qövmünə peyğəmbər kimi göndəriləndə Haman da Fironla birlikdə onu yalançılıqda ittiham etmişdi. Bu məsələ Quranda belə təsvir olunur:

Həqiqətən, Biz Musanı ayələrimizlə və açıq-aydın bir dəlillə göndərdik. Fironun Hamanın və Qarunun yanına. Onlar isə: "Bu sehrbazdır, yalançıdır!" -dedilər. Musa onların yanına dərgahımızdan haqq ilə gəldikdə onlar: "Onunla birlikdə iman gətirənlərin oğlanlarını öldürün, qadınlarını isə diri saxlayın!" - dedilər. Kafirlərin hiyləsi ancaq boşa çıxar. (Mumin surəsi, 23-25)

Firon Allaha qarşı azğın və çirkin bir tərzdə davrandığı zaman Haman da həmişə onun yanında olmuş və ona dəstək vermişdi. Hətta Fironun ən azğın fikirləri ilə də razılaşmış və Fironun ondan istədiyi hər şeyi yerinə yetirmişdi. Ayələrdə Fironun Hamana Allahı görmək üçün (Allahı tənzih edirik) göylərə ucalan bir qüllə tikməyi əmr etməsindən bəhs olunur:

> *"Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir ilah olduğunu bilmirəm. Ey Haman! Mənim üçün od qalayıb palçıqdan kərpic bişir və bir qüllə tikdir ki, ora qalxıb bəlkə, Musanın ilahsına tamaşa edim. Axı mən onu, həqiqətən, yalançı sayıram!*
>
> **(Qəsəs surəsi, 38)**

Lakin öz təkəbbürünə görə Allahı və Onun elçisini tanımaq istəməyən Hamanın aqibəti də tabe olduğu insanların (şeytanın və Fironun) aqibəti ilə eyni olmuş, Allah Hamanı da Firon kimi həlak edərək ona təkəbbürün və lovğalanmağın mütləq fəlakətli sonluqla bitməsinin acısını daddırmışdı:

Biz Qarunu da, Fironu da, Hamanı da məhv etdik. Musa onların yanına açıq-aydın dəlillərlə gəldi. Lakin onlar yer üzündə təkəbbürlük etdilər və sovuşa bilmədilər! Biz onların hər birini öz günahı ilə yaxaladıq. Kiminin başı üstünə qızmar daş yağdırdıq, kimini dəhşətli səs yaxaladı, kimini yerə batırdıq, kimini də suya qərq etdik. Allah onlara zülm etmirdi, onlar özləri özlərinə zülm edirdilər. (Ənkəbut surəsi, 39-40)

X FƏSİL

# Hz. İBRAHİMİN ATASI

Hz. İbrahimin atası bir çox başqa qövmlərdə olan inkarçı xüsusiyyətlərə malik idi. O, Allah qarşısında təkəbbür göstərən, elçiyə qarşı çıxıb ziddiyyət və çaxnaşma yaradan insanlardan biri idi. Din əxlaqını öz oğlundan öyrənmək bu təkəbbürlü insana ar gəlmiş və onu peyğəmbər kimi qəbul etmək istəməmişdi. Hz. İbrahim atasına dini gözəl bir dillə və hikmətlə təbliğ etmiş, onu bütlərə ibadət etməkdən çəkindirməyə çalışmışdı. Lakin onun bütün bu səmimi səylərinə baxmayaraq atasının davranışı olduqca sərt olmuşdu. Atası sadəcə olaraq Allaha iman gətirdiyinə görə Hz. İbrahimdən imtina etmək istəmiş, hətta öz doğma oğlu olmasına baxmayaraq onu daş-qalaq etməklə hədələmişdi:

Kitabda İbrahimi də yad et. Həqiqətən, o, büsbütün doğrudanışan kimsə - bir peyğəmbər idi. O, bir zaman atasına belə demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir fayda və zərər verə bilməyən bütlərə ibadət edirsən? Atacan! Həqiqətən, sənə gəlməyən bir elm mənə gəlmişdir. Ardımca gəl ki, səni doğru bir yola çıxardım! Atacan! Şeytana ibadət etmə, həqiqətən, şeytan Rəhmana çox asi olmuşdur! Atacan! Qorxuram ki, Rəhmandan sənə bir əzab toxunsun və beləcə şeytana yoldaş olasan!" (Atası) dedi: "Ya İbrahim! Sən mənim tapındığım ilahlardan üzmü çevirirsən? Əgər bu hərəkətlərinə son qoymasan, səni mütləq daşqalaq edəcəyəm. Bir müddət məndən uzaq ol!" (Məryəm surəsi, 41-46)

Bütün bu hədələrə baxmayaraq Hz. İbrahim yenə də Allahın haqq dinini təbliğ etməklə məşğul olmuş, atasının və qövmünün onun peyğəmbərliyini inkar etməsinə məhəl qoymayaraq Allaha sadiq qalmış və onlardan uzaqlaşmışdı. Hz. İbrahimin bu nümunəvi və ibrətamiz davranışı Quranda Allah tərəfindən belə mədh edilir:

> *"Həqiqətən, İbrahim Allaha müti, batildən haqqa tapınan bir ümmət idi. O heç vaxt müşriklərdən olmamışdı.*
>
> **(Nəhl surəsi, 120)**

> *"Sonra sənə: "Batildən haqqa dönərək müşriklərdən olmayan İbrahimin dininə tabe ol!" - deyə vəhy etdik.*
>
> **(Nəhl surəsi, 123)**

XI FƏSİL

# ƏBU LƏHƏB

Məlum olduğu kimi, Əbu Ləhəb Hz. Məhəmmədin (s) dövründə yaşamış, öz təkəbbürü, lovğalığı və azğınlığı ilə tanınan inkarçı birisi olmuşdu. Başqaları kimi varlı olması ilə də məşhur olan Əbu Ləhəbin həyat yoldaşı ilə birlikdə etdiyi hərəkətlərin müqabilində cəhənnəm əzabı ilə cəzalandırıldıqları Quranda bildirilir. Bu iki insanın təkəbbürünə cavab olaraq Allah onlara alçaldıcı cəzalar vermişdir. Məsələn, öz var-dövləti və əsli-nəsli ilə öyünərək yaşadığı bu dünyada lovğa adamların bəyənməyəcəyi odun daşımaq kimi bir iş görmək təkəbbürlü insanları alçaldan işdir. Həmçinin boyunlarına bir kəndirin bağlanması da onların nəzərində təhqiramiz və alçaldıcı bir vəziyyətdir. Lakin Allah Əbu Ləhəblə arvadını axirətdə cəhənnəm odu ilə yanaşı həm də bu rüsvayçı vəziyyətə salaraq onları heç təsəvvürlərinə belə gətirmədikləri bir tərzdə alçaldıb. Əbu Ləhəbin və arvadının bu vəziyyəti onlardan sonrakı insanlara ibrət olsun deyə Quranda ayrıca bir surə şəklində bildirilir:

Əbu Ləhəbin əlləri qurusun, qurudu da! Ona nə mal-dövləti fayda verəcək, nə də qazandığı... O, alovlu atəşə girəcəkdir. Onun odun daşıyan övrəti də həmçinin! Onun boğazında xurma lifindən hörülmüş ip olacaqdır! (Məsəd surəsi, 1-5)

XII FƏSİL

# 12 BAĞ SAHİBİ

Quranda əlində olan nemətlərə görə lovğalanıb təkəbbür göstərən və nəticədə əzaba düçar olan bir bağ sahibindən bəhs edilir. Bu hadisə zənginlikdən irəli gələn təkəbbürə dair ən bariz nümunədir. Bu məsələ ilə bağlı vəziyyət ayələrdə belə bildirilir:

Onlara iki adamı mİsal gətir. Onların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. O bağların hər ikisi öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir irmaq axıtdıq. Bu adamın başqa sərvəti də var idi. O öz yoldaşı ilə söhbət edərkən ona dedi: “Mən səndən daha dövlətli və əşirətcə səndən daha qüvvətliyəm!” O özünə zülm etdiyi halda bağına girib dedi: “Bu bağın nə vaxtsa yox olacağını güman etmirəm. Qiyamətin də qopacağını zənn etmirəm. Əgər Rəbbimin hüzuruna qaytarılsam, özümə bundan da yaxşı bir məskən taparam!” (Kəhf surəsi, 32-36)

Allah ayədə haqqında “bağ sahibi” deyə bəhs olunan bu insanı sınağa çəkmək üçün ona böyük sərvət vermişdi. Bağ sahibinə verilən bu nemətlər isə onun haqsız yerə lovğalanmasına səbəb olmuşdu. O, şükür edib Allahdan bağışlanma diləmək və bunlardan Allah yolunda istifadə etmək əvəzinə lovğalıq edib təkəbbürlü ifadələr işlətmiş, həddini hətta o qədər aşmışdı ki, ağılsızcasına malının və gücünün əbədi olacağına inanmışdı.

Bu hadisə təkəbbürlü insanların məntiqinin və düşüncələrinin olduqca çürük və tutarsız olmasına açıq bir nümunədir. Bağ sahibi mülkünün əbədi olacağını iddia etdiyi halda Allahı açıq şəkildə inkar etmir və Onun hüzuruna çıxmaq ehtimalını da nəzərdən qaçırmırdı. Lakin bu ehtimal hətta həyata keçsə də onun Allah tərəfindən cəzalandırılmayacağını, tam əksinə, hətta mükafatlandırılacağını düşünməsi çox maraqlıdır.

Təkəbbürlü insanlarda buna bənzər psixologiyaya bu gün də rast gəlmək olar. Onlar dini açıq şəkildə inkar etməsələr də Allah qorxusundan çox uzaqdırlar. Eyni zamanda “axirətə getsələr belə” bir yolla xilas ola biləcəkləri haqqında düşünürlər. Quranda verilən bağ sahibi nümunəsi bu və buna bənzər vəziyyətdə olanların ağılsız insanlar olmasına əyani bir sübutdur. Bu adamın düşüncəsi təkəbbürünün şiddətindən korşalmış, özü isə Allahın sonsuz qüdrətini dərk etməmişdir.

Quranda da bildirildiyi kimi, bağ sahibinin aqibəti də bir ibrətamiz nümunədir. O, əlində olan bütün var-dövləti itirmiş, qüvvəsi heç nəyə çatmamışdı. Sonda “kaş ki” desə də bu peşmançılıq yersiz olmuş və bir nətica verməmişdi:

Beləliklə, onun meyvəsi tələf edildi. (Səhər o kafir bağa gəldiyi zaman onu bu vəziyyətdə görüb bağa) qoyduğu xərcə görə əllərini ovuşdurmağa başladı. Bağın talvarları yerə çöküb viran qalmışdı. O: “Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!” - deyirdi. Allahdan başqa ona yardım edə biləcək kəslər yox idi və o da kömək edə biləcək bir halda deyildi. (Kəhf surəsi, 42-43)

XIII FƏSİL

# QÖVMLƏRİN BAŞÇILARI

Qurandan da bizə aydın olduğu kimi, Allahın göndərdiyi elçiləri inkar edənlər, onlara qarşı mübarizə aparanlar və böyük düşmənçilik edənlər qövmlərin başçıları olmuşdur. Belə qabaqcıl inkarçıların ən bariz xüsusiyyəti onların təkəbbürlü və lovğa olmasıdır. Bu məsələ ilə bağlı bəzi ayələr aşağıdakı kimidir:

Saleh tayfasının (iman gətirməyi) özlərinə sığışdırmayan başçıları içərilərindən iman gətirən əlsiz-ayaqsız yoxsullara üz tutub: “Siz Salehin, doğrudan da, Rəbbi tərəfindən göndərilmiş olduğunu bilirsinizmi?” - deyə soruşdular. Onlar: “Bəli, biz onunla göndərilən hər bir şeyə (bütün dini hökmlərə) inanırıq!” - deyə cavab verdilər. (İman gətirməyi) özlərinə ar bilənlər: “Sizin inandığınıza biz inanmırıq!” - dedilər. (Əraf surəsi, 75-76)

> *“Şüeyb tayfasının iman gətirməyi özlərinə sığışdırmayan əyanları: “Ey Şüeyb! Ya səni və səninlə birlikdə iman gətirənləri məmləkətimizdən mütləq qovacağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!” - dedilər. Şüeyb belə cavab verdi: “Biz istəməsəkdə?”*
>
> **(Əraf surəsi, 88)**

İnkarçı qövmlərin başçıları lovğalıqda və təkəbbürdə o qədər irəli getmişdilər ki, onlara da peyğəmbər kimi vəhy gəlməyincə Allaha iman gətirməyəcəklərini elan etmişdilər:

Beləliklə, hər bir obanın günahkarlarını oranın başçıları təyin etdik ki, onlar orada bacardıqları qədər məkrlə məşğul olsunlar. Onlar yalnız özlərinə qarşı məkr edərlər, lakin bunun fərqinə varmazlar. Onlara bir ayə gəldiyi zaman: “Allahın peyğəmbərlərinə verildiyinin misli bizə verilməyincə biz iman gətirməyəcəyik!” - deyərlər. Allah peyğəmbərliyi kimə göndərəcəyini Özü daha yaxşı bilir. Günahkarlar Allahın hüzurunda etdikləri məkrlərə görə zillətə və şiddətli əzaba düçar olacaqlar! (Ənam surəsi, 123-124)

Onların belə davranmasının ən böyük səbəblərindən biri peyğəmbərlərin Allah tərəfindən seçilib göndərilməsi faktını qəbul edə bilməmələri, elçilərə tabe olub onlara itaət etməyi özlərinin mövqe, şöhrət, zənginlik və etibarlarına sığışdırmamalarıdır. Buna görə də hər bir dövrdə qövmlərin inkarçı başçıları Allah tərəfindən onlara göndərilən elçiləri öz mövcud statuslarına, xalqın gözündəki mövqe və etibarlarına qarşı bir təhdid və təhlükə mənbəyi hesab etmişlər. Bu hal onların peyğəmbərlər və təbliğ etdikləri həqiqətlər qarşısında təkəbbür və nifrətlərinin ortaya qoymalarına səbəb olmuşdur.

“Qövmün qabaqcıl insanları” anlayışı hər bir dövrdə və hər bir cəmiyyətdə mövcud olan “elita təbəqəsi”ni təşkil edir. Məlum olduğu kimi, elita təbəqəsinin əsas xüsusiyyəti bu zümrədə

cəmləşənlərin var-dövlət və sərvət baxımından çox üstün, nüfuzlu və hörmətli insanlar olması, "dayaqlarının" və yaxın ətraflarının qüvvətli olması, qısaca zahiri bir gücə malik olmalarıdır. Kitabın əvvəlində də bildirildiyi kimi, qeyd olunan bu xüsusiyyətlər Allaha iman gətirməyən, dərindən düşünə bilməyən insanlarda təkəbbürə və lovğalığa səbəb olur. Belə insanlar var-dövlət, sərvət, güc və hakimiyyət kimi zahiri xüsusiyyətlərinə güvənərək cəmiyyətdə nüfuz əldə etmək və söz sahibi olmaq istəyirlər. Onlar o qədər təkəbbürlü olurlar ki, bu, onların Allaha və elçisinə qarşı çıxmalarına səbəb olur. Onlar üstünlüyün təqva (Allah qorxusu) ilə mümkün olması reallığını qəbul etmir, çünki belə olan halda özlərinin heç bir qiymətinin olmadığı üzə çıxacaq. Onların ürəyində güclü bir lovğalanmaq və təkəbbür göstərmək arzusu var. Bu adamların Allahı inkar etməsinin əsas səbəbi də elə budur. Onların şüuru və düşüncəsi o qədər qapalı, o qədər küt, o qədər donuqdur ki, öləndən sonra torpağın altına heç nə apara bilməyəcəklərini, varlı, yoxsul, güclü və ya zəif olmasından asılı olmayaraq hamının sonda bir neçə metrlik bezə bükülləcəyini, qısa bir müddətdən sonra yalnız skeletlərinin qalacağını düşünmürlər. Onlar malik olduqları özəlliklərin axirətdə heç bir faydasını görə bilməyəcəklərini ağıllarına da gətirməzlər.

Özünü qövmünün lideri, başbiləni, qabaqcıl ismi, avanqardı sayan bu cür adamların təkəbbüründən və lovğalığından, eyni zamanda inkarçılığından irəli gələn müəyyən azğın xüsusiyyətləri Quranda möminlərə bildirilib. Burada əsas məqsəd hər dövrdə möminlərin qarşısına çıxaraq onlara düşmənçilik edəcək insanları tanımalarını, onlardan qorunmalarını və onlardan gələ biləcək zərərlərə qarşı tədbir görmələrini təmin etməkdir. Məqsəd həm də budur ki, möminlər belə hallardan ibrət alsınlar və həmin vəziyyətə düşməmək üçün öz hərəkət və davranışlarına diqqət yetirsinlər. Çünki heç bir insan Quranın əmrindən kənarda qala bilməz, möminlər də inkarçılar haqqında olan ayələri özlərinə tətbiq edib düşünərək inkarçılara xas səhvlərdən tamamilə təmizlənməyə çalışmaq kimi bir məsuliyyət daşıyırlar.

Bu səbəbdən də sözügedən "elita" təbəqəsinin Quranda haqqında bəhs olunan əsas xüsusiyyətlərini aşağıdakı başlıqlar altında nəzərdən keçirəcəyik.

## İnsanları yoldan azdırmağa səy göstərirlər

Birlikdə yaşadıqları insanların iman gətirməsi inkarçıları narahat edir, buna görə də onların iman gətirməsini istəmir, bacardıqları qədər onlara mane olmağa çalışırlar. Çünki xalq iman gətirsə, onların üzərində hakimiyyət qurmaq üçün bir zəmin qalmayacaq. Hər şeydən öncə dünyəvi üstünlük ölçülərinin, dəyər meyarlarının hamısı yox olacaq. Üstəlik bütün cəmiyyət insanların gözündə böyük tutulan adamların əslində nə qədər aciz və zəif adamlar olduğunu da anlayacaq. Beləliklə, böyük sayılan bu insanları mədh edərək yüksəldəcək, onlara tabe olacaq adamlar qalmayacaq.

Onlara tabe olan, bir növ öz malları hesab etdikləri və əsasən də təhqir edib alçaltdıqları insanları itirmək başbilənlərin işinə yaramır. Bu adamlar xalqın nəyin bahasına olursa-olsun onların yolu ilə getməsini istəyirlər. Buna görə də xalqı doğru yoldan azdırmaq üçün hər bir yoldan istifadə edir, camaata bəzən hətta hədə-qorxu da gəlirlər. Allah bunun nümunələrini Quranda belə bildirir:

> *Şüeyb tayfasının kafir olan əyanları dedilər: "Əgər Şüeybin ardınca getsəniz, şübhəsiz ki, ziyana uğramış olarsınız!".*
>
> **(Əraf surəsi, 90)**

> *Firon (onlara) dedi: "Mən sizə izn vermədən əvvəl siz ona iman gətirdiniz?" Bu, şübhəsiz ki, əhalisini çıxartmaq məqsədilə şəhərdə qurduğunuz bir hiylədir... Gördüyünüz işlərə görə başınıza nə oyun açacağımı biləcəksiniz!*
>
> **(Əraf surəsi, 123)**

## Vicdanları qəbul etdiyi halda inkar edirlər

Qövmün başçılarının inkarçılığının əsas səbəbi eynilə Fironda olduğu kimi Allahın varlığını dərk etməməkdən yox, inadla təkəbbür göstərməkdən irəli gəlir. Onlar Allahın və axirətin varlığını dərk etsələr də təkəbbür artıq qəlblərinə keçdiyi üçün buna qarşı çıxırlar. Quranda bu insanlar barədə belə deyilir:

> *...həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər...*
>
> **(Nəml surəsi, 14)**

Bu təkəbbürün səbəbi də bir qədər əvvəl qeyd olunduğu kimi, zənginlik və gücdür:

Biz hər hansı bir məmləkətə qorxudan bir peyğəmbər göndərdiksə, onun naz-nemət içində yaşayan zəngin başçıları ancaq: "Biz sizinlə göndərilənləri inkar edirik!" -dedilər. Onlar: "Bizim mal-dövlətimiz və övladımız daha çoxdur və bizə əzab da verilməyəcəkdir" - dedilər. (Səba surəsi, 34-35)

Halbuki var-dövlət, övlad və insanların sahib olduqları başqa nemətlər Allahın rizasına uyğun istifadə edilmədikdə onların heç bir qiyməti və faydası yoxdur. İnsan yalnız Allahın dininə faydalı olmaq şərti ilə saleh, doğru, yaxşı əməllər sahibi olsa, dünyanın bu müvəqqəti bər-bəzəyinə görə axirətdə bir mükafat gözləyə bilər:

> *Sizi bizə yaxınlaşdıran nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Yalnız iman gətirib yaxşı işlər görənlərin əməllərinə görə mükafatları qat-qat artıq olacaq və onlar cənnət otaqlarında əmin-amanlıq içində yaşayacaqlar.*
>
> **(Səba surəsi, 37)**

## Atalarının dininə tabe olurlar

Yüksək səviyyədə rifahlı həyat tərzi yaşayan bu insanların ən çox istifadə etdiyi (Allaha qarşı haqsız olaraq verdikləri izah) ifadələrdən biri də gələn elçinin onları atalarının dinindən ayırmağa çalışmaq istədiyini deməleridir:

> *Ayələrimiz onlara açıq-aşkar olaraq oxunduğu zaman: "Bu ancaq sizi atalarınızın ibadət etdiklərindən döndərmək istəyən bir adamdır!" - deyər və "Bu, uydurma yalandan başqa bir şey deyildir!" - söyləyərlər. Kafir olanlara haqq gəldikdə onun barəsində: "Bu yalnız açıq-aşkar bir sehrdir!" - deyərlər.*
>
> **(Səba surəsi, 43)**

Təkəbbürlü və lovğa insanların qabaqcıl simalarının dilindən əsla düşməyən başqa bir məsələ də "atalarının dini"dir. Əlbəttə, bu da onların təkəbbürünün nəticəsində ortaya çıxan bir anlayışdır. Onlar öz ata-babalarının getdiyi yolun doğru olmasından son dərəcə böyük əminliklə danışırlar. Öz nəslini-soyunu, adət-ənənələrini və mədəni irslərini üstün hesab etmələri və özlərindən daha yüksək şüurun varlığını qəbul edə bilməmələri bu adamların ən böyük xəstəlikləridir:

Biz səndən əvvəl hər hansı bir məmləkətə qorxudan bir peyğəmbər göndərdiksə, onun naz-nemət içində yaşayan böyükləri sadəcə olaraq: "Biz atalarımızı bir din üzərində gördük və biz də onların ardınca getməkdəyik!" - dedilər. Hər peyğəmbər öz ümmətinə belə dedi: "Əgər siz atalarınızın sitayiş etdnyini gördüyünüz dindən daha doğrusunu gətirmiş olsam necə?!" Onlar: "Biz sizinlə göndərilənləri inkar edirik!" - deyə cavab verdilər. (Zuxruf" surəsi, 23-24)

## Allahın göndərdiyi kitablara tabe olmurlar

Təkəbbürlü və lovğa insanların Allahın göndərdiyi Kitablara tabe olmadıqları da göz önündədir. Onları bu həddə gətirən amil daxillərində olan "yüksək və hamıdan üstün olma" istəyidir. Onların bu istəklərini Allahı inkar etmə məntiqlərindən də görmək olar. Bu inkarçı adamlar özlərindən çox razıdırlar və səhv yolda olduqlarını hətta ehtimal etmək də istəmirlər. Belə adamların şəxsi azğın məntiqlərinə görə, əgər bircə doğru yol varsa, bu da onların getdiyi yoldur:

> *"Kafir olanlar iman gətirənlər barəsində deyirlər: "Əgər (Quran və ya iman) yaxşı bir şey olsaydı, möminlər bu işdə bizdən qabağa düşə bilməzdilər". Onlar doğru yola gəlmədikləri üçün: "Bu, köhnə yalandır!" - deyəcəklər.*
>
> **(Əhqaf surəsi, 11)**

## Elçilərə itaət etmirlər

Allahın qövmlərə göndərdiyi elçilər çox üstün əxlaqa malik, ağıllı, uzaqgörən və açıq gözlü, həmçinin Allah tərəfindən xüsusi olaraq seçilib hikmət verilmiş insanlardır. Belə ki, bir ayədə "Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!" (Bəqərə surəsi, 269) şəklində ifadə edilərək elçilərin xeyir verilməyə layiq insanlar olduğu bildirilmişdir.

Həmin elm sahibi olan insanlar təqva, bilik və ağıl cəhətdən üstün olmalarına görə möminlər üçün çox qiymətli adamlardır. Qövmün yüksək səviyyədə rifahlı həyat tərzi keçirməkdən azğınlaşmış başçıları isə təkəbbür göstərərək cəmiyyətin ən etibarlı və ən qiymətli insanları olan elçilərə qarşı çıxırlar. Bununla da kifayətlənməyərək onları təhqir edir, iftira atır, hətta hiylə ilə onları öldürmək də istəyirlər. Bu hal onların qəlbindəki təkəbbür xəstəliyindən irəli gəlir. Onların içindəki təkəbbür Allaha səmimi şəkildə iman gətirmələrini əngəlləyib inkar etmələrinə səbəb olur:

> *“Məgər səndən əvvəlki Nuh, Ad, Səmud tayfalarının və onlardan sonra gəlib getmiş, ancaq Allahın bildiyi ümmətlərin xəbərləri sizə gəlib çatmadımı? Peyğəmbərləri onlara açıq-aşkar möcüzələrlə gəlmişdilər. Onlar əllərini ağızlarına qoyub: “Biz sizinlə göndərilənlərə inanmırıq və bizi dəvət etdiyiniz barəsində də möhkəm bir şəkk-şübhə içindəyik!” - demişdilər.*
>
> **(İbrahim surəsi, 9)**

Həddini aşmış bu lovğa, təkəbbürlü və azğın insanların haqq yoluna dəvət edildikləri zaman peyğəmbərlərə qarşı necə davrandıqları və necə bir məntiqsizlik sərgilədikləri Quranda belə bildirilir:

> *“Nuh qövmünün kafir başçıları dedilər: “Bu sizin kimi yalnız adi bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik.*
>
> **(Muminun surəsi, 24)**

> *“Tayfasının kafir olan, axirətə qovuşacaqlarını yalan hesab edən və dünyada nemət verdiyimiz əyan-əşrafı dedilər: “Bu sizin kimi ancaq adi bir insandır; yediyinizdən yeyir, içdiyinizdən içir.*
>
> **(Muminun surəsi, 33)**

Bu ayələrdə diqqəti cəlb edən məqam qabaqcıl inkarçıların elçilərdən möcüzə göstərməyi gözləmələridir. Elçilərin ağıl, elm, əxlaq, fəzilət, mənəviyyat və bunun kimi bir çox nemətlər baxımından seçilmiş üstünlüklərə malik olması inkarçıların qüruruna sığmamış, həmin həqiqəti qəbul etmək istəmədiklərinə görə də onları adi insan olmaqda günahlandırmış və elçilərdən bəzi möcüzələr göstərməyi tələb etmişdilər. Hətta peyğəmbərlərin yemək yeməsi, su içməsi kimi bəşəri cəhətlərini də çaşqınlıqla qarşılamış, bu cəhətləri də onlara inanmamaq üçün bir bəhanəyə çevirmişdilər. Belə ki, inadkarlıq edən inkarçılar elçilərdən hətta möcüzə görsəydilər də onlara inanmayacaqdılar:

> *Onlar dedilər: "Sən bizi ovsunlamaq üçün nə möcüzə gətirsən də, yenə sənə iman gətirən deyilik!"*
>
> **(Əraf surəsi, 132)**

Qabaqcıl inkarçıları daha çox narahat edən məsələ əllərində olan güc, etibar və hakimiyyətə baxmayaraq onların özlərindən olmayan, həmçinin onların özlərini və sistemlərini pisləyən bir insanın din əxlaqını təbliğ edib yayması və bu insanın cəmiyyət tərəfindən də qəbul edilməsidir. İnkarçılar bu hadisəni tamamilə şəxsi mübarizə kimi görmüş və peyğəmbərin onlardan üstün olmasını qəbul edə bilməmişdilər. Bu səbəbdən Peyğəmbərimizə (s) qarşı da hücumlar etmiş, "Məgər bu Quran iki şəhərdən olan böyük bir adama nazil edilməli deyildimi?" (Zuxruf surəsi, 31) deyərək özləri kimi qabaqcıl inkarçılardan birinin peyğəmbərlik etməsini tələb etmişdilər. Onların bu istəklərinin müqabilində isə Allah belə buyurur:

> *Məgər sənin Rəbbinin mərhəmətini onlarmı paylaşdırırlar?!*
>
> **(Zuxruf surəsi, 32)**

## Elçilərə müxtəlif yollarla zərər vurmaq istəyirlər

> *Firon tayfasının əyanları dedilər: "Şübhəsiz ki, bu çox bilikli bir sehrbazdır.*
>
> **(Əraf surəsi, 109)**

> *Firon tayfasının əyan-əşrafı dedilər: "Musanı və tayfasını fitnə-fəsad törətmək, həm səni, həm də sənin ilahlarını atıb getmək üçünmü buraxacaqsan?" Firon onlara belə cavab verdi: "Biz onların oğullarını öldürəcək, qadınlarını isə diri saxlayacağıq. Biz onlara, mütləq, qələbə çalacağıq!*
>
> **(Əraf surəsi, 127)**

Ayələrdən də aydın olduğu kimi, Fironla bərabər qövmünün digər qabaqcıl şəxsləri də çox azğın insanlar idi. Hətta Fironu bu məsələ ilə bağlı həmişə aqressiv davranmağa təşviq edənlər də elə onlar idi. Onlar sehrbazlıq və azğınlıq kimi ittihamlarla Fironun Hz. Musaya və onunla olanlara qarşı daha da azğınlaşacağını ehtimal etmiş və möminlərə qarşı qəddar qərar verməsini təmin etməyə çalışmışdılar.

Qövmün qabaqcıl inkarçılarının onların batil sistemini kökündən sarsıdan elçilərə qarşı olduqca hörmətsiz şəkildə davranması mütəmadi hal almış və bu vəziyyət Quranda tez-tez ifadə edilmişdir. İnkarçıların elçilərə qarşı davranışları çox çirkin bir hörmətsizlik nümayişi şəklində idi. Bu məsələ ilə bağlı bir neçə nümunə aşağıdakı kimidir:

> *Tayfasının başçıları ona: "Biz səni açıq-aydın azmış görürük!", - deyə cavab verdilər.*
>
> **(Əraf surəsi, 60)**

> *Tayfanın kafir başçıları ona: "Biz səni səfehlik içində görür və yalançılardın hesab edirik!" - deyə cavab verdilər.*
>
> **(Əraf surəsi, 66)**

Allahın göndərdiyi elçilərin ən mühüm xüsusiyyəti onların ağıllı olması idi. Çünki Allahı layiqincə qiymətləndirib təqdir edə bilmək, dini dərk etmək və din əxlaqına uyğun şəkildə yaşaya bilmək məhz ağıla bağlı olan məsələdir. Buna görə də Allahın təqdir edilib qiymətləndirilməsinə cavab olaraq inkarçıların elçilərə ünvanlanan həmin "ağılsızlıq" ittihamları həm öz kompleks və qısqanclıqlarını ört-basdır etmək, həm də elçilərin arxasınca gedən xalqlara mənfi təsir göstərmək məqsədi daşıyırdı. İnkarçılar bu davranışları ilə reallıqları ağılla dərk edə bilməyən adamların əslində elə özləri olduğunu nümayiş etdirirdilər.

## Qazdıqları quyulara özləri düşürlər

Aydın olduğu kimi, inkarçıların qabaqcıl şəxslərinin hər dövrdə ortaq xüsusiyyəti olan çirkin cəsarət və qorxmazlıq demək olar ki, həmişə eynidir. Eyni zamanda aldıqları cavab da eynidir. Bu, əsrlər boyu belə olmuşdur. Qabaqcıl azğın adamların qurduğu tələlər həmişə boşa çıxmış, iş hətta bununla da bitməmiş, qazdıqları quyulara özləri düşmüşlər. Allahın insanlar arasında tətbiq etdiyi dəyişilməz sünnəsi ilə bağlı bir ayədə belə buyurulur:

> “*Yer üzündə təkəbbür göstərmələri və pis əməlləri ucbatından idi. Pis əməl ancaq onun öz sahibinin başında çatlayar. Məgər onlar Allahın adəti üzrə özlərindən əvvəlkilərin düçar olduqları müsibətlərimi gözləyirlər? Sən Allahın qoyduğu qayda-qanun da heç bir dəyişiklik tapmazsan!*
>
> **(Fatir surəsi, 43)**

XIV FƏSİL

# 14 ALLAHI İNKAR EDƏN QÖVMLƏR

Bura qədər də bəhs etdiyimiz kimi, qövmlərin bütün inkarçı başbilənləri hər bir dövrdə eyni azğınlıq və üsyankarlıqla ortaya çıxmışdı. Bu inkarçı başbilənlər onları doğru yola dəvət etmək üçün Allahın göndərdiyi elçiləri təkəbbür göstərərək yalançı hesab etmiş, onlara qarşı çıxaraq doğrunu inkar etmişdilər. Onlar Allaha qarşı olduqlarına görə də bunun cavabını bu dünyada və axirətdə buna müvafiq şəkildə almışlar.

İndi isə inkarçıların qabaqcıl simalarının Quranda haqqında bəhs olunan qövmlərə və onlara göndərilmiş peyğəmbərlərə qarşı olan davranışlarını bir-bir nəzərdən keçirək.

## Nuh qövmü

Nuh qövmünün qabaqcıl inkarçıları da tarixdəki oxşarları kimi olduqca lovğa və təkəbbürlü idilər. Hz. Nuh onları dinə dəvət etdiyi zaman onların arasından çox az sayda insan onun bu dəvətinə cavab vermişdi. Buna baxmayaraq Hz. Nuh onların axirət əzabına düçar olmaması üçün böyük səy göstərmişdi. Lakin Hz. Nuhun bütün səylərinin müqabilində qövmünün ona cavabı belə olmuşdu:

> *“Nuh tayfasının kafir əyan-əşrafı dedilər: “Biz səni ancaq özümüz kimi adi bir insan sayır, elə ilk baxışda yalnız içimizdəki səfillərin sənə uyduğunu görürük. Eyni zamanda sizin, bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik!”*
>
> **(Hud surəsi, 27)**

Azğın ifadələrindən təkəbbürləri asanlıqla sezilən bu adamlar Hz. Nuhun yanındakı insanları da təhqir etmişdilər. İnkarçıların fikrincə üstünlük yalnız var-dövlətə, mal-mülkə, çoxlu övlada, mövqe və vəzifə cəhətdən yüksək olmağa bağlı bir obyektdir və buna görə də onlar peyğəmbərə tabe olan möminlərdə də bu xüsusiyyətləri axtarmışdılar. Əsl üstünlüyün əxlaqla, Allaha olan yaxınlıqla bağlı olduğunu isə heç düşünməmişdilər. Nuh qövmünün öz elçilərinə münasibətdə istifadə etdiyi təkəbbür və lovğa davranış üsulu aşağıdakı ayələrdən açıq şəkildə görünür:

> *Onlar dedilər: “Ey Nuh! Bizimlə çənə-boğaz olub çox mübahisə etdin. Əgər doğru danışanlardansansa, bizi təhdid etdiyin əzabı gətir görək!”*
>
> **(Hud surəsi, 32)**

> *Bunlardan əvvəl Nuh qövmü təkzib etmiş və bəndəmizi yalançı sayıb: “Divanədir!” -demişdilər. Ona risaləti təbliğ etmək qadağan edilmişdi.*
>
> **(Qəmər surəsi, 9)**

Hz. Nuh öz qövmünün bütün bu çirkin davranışının müqabilində ona qarşı çox səbirli olmuş, haqqa dəvət etmək kimi vəzifəsini tamamilə səmimi şəkildə yerinə yetirmişdi. Lakin onların düzəlib doğru yola gəlməyəcəklərini dərk etdiyi zaman qövmünün təkəbbürü ilə bağlı Allaha şikayət etmiş və Ondan kömək istəmişdi:

O dedi: “Ey Rəbbim! Mən qövmümü gecə-gündüz dəvət etdim! Lakin dəvətim onların qaçmalarını daha da artırmaqdan başqa bir şeyə yaramadı. Sənin onları bağışlamağın üçün mən nə zaman onları dəvət etdimsə, onlar barmaqlarını qulaqlarına tıxadılar, libaslarına büründülər, İsrar edib durdular və təkəbbür göstərdilər. Sonra mən onları uca səslə dəvət etdim. Daha sonra onlara aşkar və gizli bildirdim”. (Nuh surəsi, 5-9)

Nuh dedi: “Ey Rəbbim! Onlar mənə qarşı çıxdılar və mal-dövləti, oğul-uşağı özlərinə ziyandan başqa bir şey artırmayan kimsələrə tabe oldular. Çox böyük bir hiylə qurdular. Və dedilər: “Öz ilahlarınızı tərk etməyin, xüsusilə Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri atmayın!” Onlar çoxlarını yoldan çıxartdılar. Sən də ancaq onların zəlalətini artır!” Nuh dedi: “Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma!” (Nuh surəsi, 21-24, 26)

Hz. Nuhun bu duasından sonra Allah ona cavab vermiş, Hz. Nuh qövmünün təkəbbür göstərməsinə və öz elçisini yalançı hesab etməsinə görə ona bu dünyada və axirətdə əzab vermişdir:

> *Onlar öz günahlarından dolayı suda boğdurulub cəhənnəmə daxil edildilər və özlərinə onları Allahdan qurtaracaq köməkçilər də tapa bilmədilər!*
>
> **(Nuh surəsi, 25)**

## Ad qövmü

Allah Ad qövmünə peyğəmbər kimi Hz. Hudu göndərmişdi. O da qövmünü Allahın yoluna dəvət etmiş, lakin başqa peyğəmbərlər kimi böyük azğınlıq və inkarla qarşılaşmışdı. Ad qövmünün təkəbbürü Quranda aşağıdakı kimi bildirilir:

> *“Ad qövmünə gəlincə, onlar yer üzündə nahaq yerə təkəbbür göstərib dedilər: “Bizdən daha qüvvətli kim ola bilər?!” Məgər onlar düşünmədilərmi ki, özlərini yaratmış olan Allah onlardan daha qüvvətlidir?! Onlar ayələrimizi inkar edirdilər.*
>
> **(Fussilət surəsi, 15)**

Allaha münasibətdə göstərilən belə bir təkəbbür azğınlığın ən yüksək səviyyəsidir. Çünki inkarçılar heç bir varlığın cəsarət göstərə bilməyəcəyi bir şeyi etməyə cürət etmişdilər. Onlar öz güc və qüvvələrini elə öz gözlərində o qədər böyütmüşdülər ki, qəlbləri həqiqət qarşısında kor olmuş, hətta ən asanlıqla sezilən bir həqiqəti də ayırd edə bilməmişdilər. Allahın onlara verdiyi və hər an onların əlindən ala biləcəyi bir qüvvə ilə Allaha və peyğəmbərinə qarşı çıxmışdılar. Bunların müqabilində isə həm bu dünyada, həm də qiyamət günündə lənətlənmişdilər. Bu həqiqət ayələrdə belə bildirilir:

Bu da Ad tayfasıdır! Onlar Rəbbinin ayələrini inkar etdilər, Onun peyğəmbərlərinə qarşı çıxdılar, başlarının üstündə duran hər bir inadkar böyüyün əmrinə tabe oldular. Və beləliklə, dünyada da, qiyamət günündə də lənətə uğradılar. Bilin ki, Hud tayfası Rəbbini inkar etmişdi. Xəbəriniz olsun ki, Hudun tayfası Ad Allahın mərhəmətindən kənar oldu. (Hud surəsi, 59-60)

## Səmud qövmü

Allah Hz. Salehi Səmud qövmünə peyğəmbər kimi göndərmişdi. Hər bir peyğəmbər kimi Hz. Saleh də öz qövmünü haqqın yoluna dəvət etmiş, həqiqətləri görə bilmələri üçün onlara yaradılışlarını xatırlatmışdı. Lakin qövmü onu həmişə yalançı hesab etmişdi. Bu hadisə Quranda belə ifadə edilir:

Səmud təhdidləri yalan saymışdı. Onlar demişdilər: “Məgər biz özümüzdən olan bir adamamı tabe olacağıq?! Biz onda haqq yoldan azmış və dəlilik etmiş olarıq! Məgər içərimizdən vəhy yalnız onamı nazil olmuşdur?! Xeyr, o, yalançının, lovğanın biridir!” (Qəmər surəsi, 23-25)

Diqqətlə baxanda aydın olur ki, peyğəmbərin özləri kimi bir insan olması inkarçıların üzərində ən çox durduğu məsələlərdən biridir. Onların primitiv məntiqinə görə, arxasınca gedəcəkləri peyğəmbər adi insandan üstün bir varlıq (mələk kimi) olmalı və ya möcüzə göstərməlidir. Çünki

onların azğın təkəbbürü özləri kimi adi bir insana tabe olmalarına izn vermirdi. Bu səbəbdən də inkarçılar elçiləri yalançılıqda ittiham edib onlara iftiralar atdılar.

## İsrail oğulları

Quranda qövm kimi haqqında ən çox bəhs olunan xalq İsrail oğullarıdır. Ayələrdə Allahın onlara verdiyi nemətlər qarşısında nankorluq etmələri səbəbi ilə tez-tez qeyd edilmiş bu camaat tarixə azğın bir qövm kimi düşmüşdür. Tarixə hadisələrin ardıcıllığı baxımından nəzər yetirəndə bu qövmün Allahın mərhəmətinə və bağışlayıcı olmasına baxmayaraq həmişə təkəbbür və inadkarlıq göstərməsi olduqca heyrətləndirici olaydır.

Məlum olduğu kimi, İsrail oğulları bir vaxtlar bütün dünyaya üstün tutulacaq qədər bol nemətlər almış və onlardan bunun müqabilində yalnız "Allahın vədinə sadiq qalmaları" tələb olunmuşdu. İsrail oğulları onlara bu qədər nemət verən Allaha itaəti və sədaqəti həvəslə yerinə yetirmək əvəzinə Rəbbimizin əmrlərindən misli görünməmiş şəkildə imtina etmiş, həddi aşaraq öz nəfslərinə zülm etmişdilər:

> *"...Rəbbin tərəfindən sənə nazil edilən onlardan bir çoxunun yalnız azğınlığını və küfrünü artıracaqdır...*
>
> **(Maidə surəsi, 68)**

> *"...Biz onların arasına qiyamət gününə qədər davam edəcək düşmənçilik və kin saldıq. Onlar müharibə alovu yandırdıqca Allah onu söndürər. Onlar yer üzündə fitnə-fəsad törətməyə çalışarlar. Allah isə fitnə-fəsad törədənləri sevməz!*
>
> **(Maidə surəsi, 64)**

Allah bu qövmü istər nemətlərlə, istərsə də əziyyətlərlə bir neçə dəfə sınaqdan keçirdiyini Quranda bildirmişdir.

Məlum olduğu kimi, İsrail oğulları qövmü Fironun dövründə qul kimi işlədilən və bu vəziyyəti Fironun qurduğu əzazil sistem səbəbi ilə yüz illər boyunca dəyişə bilmədən qalmış bir xalq olmuşdur. Hegemon olan Fironun əxlaq sistemi və hökmranlıq anlayışı olduqca mürtəce və əzazil bir idarəetmə üsulundan qidalandığına görə İsrail oğulları yüz illər boyunca həmin despotik quruluşun içində əzilmiş, ayədə də ifadə edildiyi kimi, çarəsiz qalaraq "qadınlarına toxunmayıb oğlan uşaqlarının boynunu vuran" bu quruluşa tabe olmuşdular. Bu böyük sınağın sonunda Allah

Hz. Musanı kölə vəziyyətində olan bu qövmə peyğəmbər kimi göndərmiş və onlara "dənizin iki hissəyə ayrılması" möcüzəsini göstərərək Fironun əzazil hakimiyyətindən xilas etmişdir:

> *Ey İsrail övladı! Sizə bəxş etdiyim nemətimi və bir vaxtlar sizi bütün aləmlərdən üstün tutduğumu yadınıza salın!*
>
> **(Bəqərə surəsi, 47)**

> *Firon əhli sizə ən ağır işkəncələr verdikləri, oğlan uşaqlarınızı boğazlayıb, qadınlarınızı sağ buraxdıqları zaman Biz sizi onların əlindən xilas etdik. Bunlarda Rəbbiniz tərəfindən böyük bir imtahan var idi.*
>
> **(Bəqərə surəsi, 49)**

> *Biz sizdən ötrü dənizi yarıb sizə nicat verdik və Fironun adamlarını siz baxa-baxa suda qərq etdik.*
>
> **(Bəqərə surəsi, 50)**

Qəlbi daş bağlamamış hər bir insan tərəfindən böyük bir şükür vəsiləsi kimi qiymətləndiriləcək bu hadisə İsrail oğullarının qəlbində Allah qorxusu səbəbi ilə yumşaqlıq yaratmaq əvəzinə rahatlığa və özündənrazılığa səbəb olmuşdu. Bu böyük möcüzə nəticəsində imanlarının qat-qat artması əvəzinə bu qövm aradan bir müddət keçdikdən sonra Hz. Musanın yoxluğunu fürsət bilərək azğınlıq etmişdi. Onlar inanılmaz dərəcədə azğınlaşaraq buzovu Allaha şərik qoşmağa cürət etmişdilər:

Musa sizə açıq-aydın dəlillər gətirmişdi. Siz isə onun ardınca buzova sitayiş edərək zülm etdiniz. Yadınıza salın o vaxtı ki, Biz sizdən əhd alıb, Tur dağını üzərinizə qaldırmış və: "Sizə verdiyimizdən möhkəm yapışın, eşidin!" -demişdik. Onlar isə: "Eşitdik və qarşı çıxdıq (əməl etmədik)!" - dedilər. Çünki küfirləri üzündən buzovun məhəbbəti qəlblərini bürümüşdü. Onlara de: "Əgər iman gətirmisinizsə, imanınızın sizə belə əmr etməsi necə də pisdir!" (Bəqərə surəsi, 92-93)

Quranda bütün insanlara ibrət kimi göstərilən bu qövmün azğınlığı və Allaha qarşı təkəbbürü təkcə bu hadisə ilə bitmir. Allahın onları bağışlamasını qiymətləndirə bilməyib öz azğınlıqlarını davam etdirən bu qövmlə bağlı bir çox başqa nümunələr də var.

Məsələn, Allah İsrail oğullarının Ona şükür etməsi üçün onlara bir-birinin ardınca nemətlər vermişdi. Bütün bunların müqabilində isə onlardan yalnız nemətlərlə dolu olan şəhərin qapısından içəri daxil olan zaman səcdə etmələrini istəmişdi. Lakin onlar öz nəfslərinə zülm etmiş və Allaha qarşı üsyan etmişdilər:

Yadınıza salın ki, üstünüzə buludla kölgə saldıq və: "Ruzi olaraq verdiyimiz halal şeylərdən yeyin!" - deyərək sizə qüdrət halvası və bildirçin göndərdik. Onlar isə Bizə deyil, ancaq özlərinə zülm etmiş oldular. Xatırlayın ki, sizə: "Bu kəndə girin, bəyəndiyiniz yerdə, istədiyiniz şeyləri rahatlıqla yeyin və buranın qapısından səcdə edən halda "hittə!" (bizi bağışla!") söyləyərək daxil olun, Biz də günahlarınızı bağışlarıq. Biz yaxşı əməl edənlərin savabını artıracağıq", - demişik. Özlərinə zülm edənlər onlara deyilən sözü başqası ilə dəyişdirdilər, Biz də o zalımlara etdikləri haqsızlığa görə göydən şiddətli əzab göndərdik. (Bəqərə surəsi, 57-59)

Buna dair başqa bir nümunə isə onlara "Allahın verdiyi ruzilərdən yeyib-için, yer üzündə azğınlıq edərək fəsad törətməyin" deyildiyi zaman Hz. Musaya yalnız bir yeməklə kifayətlənməyəcəklərini deməleridir. İsrail oğullarının Allahın verdiyi yeməklərlə razı olmayıb başqa yeməklər tələb etməsi Allahın onlar üçün seçib bəyəndiyi dini dərk etməməsinin bariz nümunəsidir. Onların bu bəsit davranışı, nankorluğu və bu dünyada aldıqları cəza Quran ayələrində aşağıdakı kimi ifadə edilir:

> *"Xatırlayın ki, siz: "Ya Musa! Biz eyni təama heç vaxt dözməyəcəyik! Rəbbinə dua et ki, bizim üçün torpağın bitirdiyi şeylərdən - tərəvəzindən, sarımsağından, mərciməyindən və soğanından yetirsin!" - dediniz. Musa da cavabında: "Siz xeyirli olan şeyləri bu cür alçaq şeylərlə dəyişdirmək istəyirsiniz? (O halda) şəhərlərdən birinə gedin, istədiyinizi orada taparsınız!" -demişdi. Onlara zəlillik, miskinlik damğası vuruldu və Allahın qəzəbinə düçar oldular. Bu onların Allahın ayələrini inkar etdiklərinə və peyğəmbərləri haqsız yerə öldürdüklərinz görə idi. Bu onların asi olduqlarına və həddi aşdıqlarına görə idi.*
>
> **(Bəqərə surəsi, 61)**

Onların başqa bir çirkin davranışı isə peyğəmbərləri vasitəsilə Allah tərəfindən göndərilmiş bir əmrə çirkin danışıq tərzi ilə cavab verməsi olmuşdur. Onların işlətdiyi söz və ifadələr təkəbbür və hörmətsizliklərini üzə çıxarmışdır:

> *Yadınıza gətirin o vaxtı ki, Musa öz qövmünə: "Allah sizə bir inək kəsmənizi əmr edir!" -dedi. Onlar isə: "Bizi məsxərəyəmi qoyursan?" -dedilər". Musa da: "Allah Özü məni cahil olmaqdan saxlasın!" - dedi.*
>
> **(Bəqərə surəsi, 67)**

> *Ey camaatım! Allahın sizin üçün əzəldən müəyyən etdiyi müqəddəs torpağa daxil olun, geri dönməyin, yoxsa zərər çəkmiş halda geri dönərsiniz.*
>
> **(Maidə surəsi, 21)**

> *İsrail oğulları dedilər: "Ey Musa, nə qədər ki, onlar oradadırlar, biz ora girməyəcəyik. Sən və Rəbbin gedib onlarla vuruşun. Biz isə burada oturacağıq".*
>
> **(Maidə surəsi, 24)**

İsrail oğullarının Allahın və peyğəmbərin əmrlərinə qarşı çıxaraq belə cürətli ifadələr işlətməsi iman gətirən ağıllı insanların ibrət almasına vəsilə olmuşdur. Çünki inkarçıların bu davranışları ilə axirətdə böyük əzab görəcəkləri hamıya məlumdur. Allah İsrail oğullarının onları belə ciddi üsyana qaldıran azğın məntiqləri və görəcəkləri cəza haqqında Quranda belə hökm vermişdir:

> *Allahın Öz qullarından istədiyi şəxsə lütf etməsinə həsəd aparmaq Onun göndərdiyini inkar etməklə vicdanlarını satmaları nə qədər də pisdir! Bununla onlar Allahın qəzəbi üstünə bir qəzəb də artırdılar. Kafirləri zəliledici əzab gözləyir!.*
>
> **(Bəqərə surəsi, 90)**

Ayələrdən də aydın olduğu kimi, onların belə davranışının yeganə səbəbi təkəbbürlü olmaları idi. İsrail oğulları peyğəmbərliyin onlara yox, başqasına göndərilməsinə qısqanclıq hissi ilə yanaşmış, elçilərin üstün olduğunu qəbul etməmişdilər. Onlar yalnız özlərinin ən üstün olmasını

istəyirdilər. Qısaca, İsrail oğullarının bütün bu inadkarlığının, ziddiyyət və çəkişmə yaratmasının və özlərinə diqqət çəkməsinin səbəbi onların təkəbbürlü olmasıdır. Beləliklə, İsrail oğulları tarixə öz peyğəmbərlərinə problemlər yaradan və onlara əzab verməyə çalışan qövm kimi düşdü. Əlbəttə, onlar bu hərəkətlərinin cavabını aldılar və doğru yoldan azan və əbədi əzaba məhkum olan da yenə özləri oldular:

> *Xatırla ki, bir zaman Musa öz qövmünə demişdi: "Ey qövmüm! Mənim Allahın sizə göndərilmiş peyğəmbəri olduğumu bildiyiniz halda, niyə məni incidirsiniz?" Onlar üz döndərdikdə Allah da onların qəlblərini döndərdi. Allah fasiqləri doğru yola yönəltməz!*
>
> **(Səff surəsi, 5)**

İsrail oğulları yalnız Hz. Musaya qarşı deyil, Allah tərəfindən göndərilmiş bütün elçilərə qarşı təkəbbür göstərmiş, bu təkəbbürləri səbəbi ilə elçiləri bəzən hətta öldürmüşdülər:

> *Hər dəfə ürəyinizə yatmayan bir əmrlə gələn peyğəmbərə təkəbbürlük göstərmirdinizmi? Məhz buna görə də onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz.*
>
> **(Bəqərə surəsi, 87)**

İsrail oğulları təkəbbürlərindən irəli gələn azğın davranışlarını sonralar da davam etdirmiş, Hz. Davudun dövründə onlara "məlik" (rəhbər) kimi göndərilən Taluta münasibətdə həddini aşan inkarçıların hərəkətlərinə bənzər bir şəkildə davranmışdılar:

> *Peyğəmbəri onlara dedi: "Allah Talutu sizə padşah göndərdi". Onlar isə: "Biz hökmdarlığa daha layiq ikən və ona var-dövlət verilmədiyi halda, o necə bizə padşah ola bilər?" - deyə cavab verdilər. Peyğəmbər onlara dedi: "Allah sizdən ötrü onu bəyənib seçmiş, elm və bədəncə ona üstünlük vermişdir. Allah Öz mülkünü istədiyinə verər. Allah (lütf və kərəmi ilə) genişdir, biləndir!"*
>
> **(Bəqərə surəsi, 247)**

İsrail oğullarına verilən möcüzələrin hətta bircəsi də iman gətirən insanın bütün ömrü boyunca davranışlarında Allah qorxusunu hiss etməsi üçün kifayət edəcəkdir. Halbuki İsrail oğulları dəfələrlə rəhm edilib bağışlanmalarına baxmayaraq həmişə ağılsızlıq etmiş və azğın həyat tərzi keçirmişdilər. Buradakı həqiqət də odur ki, Allah pis əxlaqının müqabilində bu qövmün şüurunu və gözlərini bağlamış, qulaqlarını kar etmişdir. Yol verdikləri azğınlıqlarla tarixə düşmüş İsrail oğullarının axirətdə alacaqları cəza da Quranda bildirilmişdir. Qeyd olunduğu kimi, bu qövm ona verilən nemətlərə görə lovğalanmaqda, onların yalnız özlərinə aid olduğunu düşünməkdə, təkəbbür göstərməkdə və yer üzündə fitnə-fəsad törətməkdə bütün təkəbbürlü insanlara ibrətamiz bir nümunədir.

## Hz. Məhəmmədin (s) qövmü

Peyğəmbərimiz (s) də qövmünə göndərildiyi zaman onlara Allahın elçisi olduğunu və ona itaət etmələrinin lazım gəldiyini bildirmişdi:

> *“De: “Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. O Allah ki, göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir ilah yoxdur. O dirildir və öldürür. Buna görə də Allaha, eləcə də Onun Allaha və Allahın sözlərinə inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!”*
>
> **(Əraf surəsi, 158)**

Aydın olduğu kimi, Peyğəmbərimiz (s) qövmünə göndərildiyi zaman onları Allaha itaət etməyə, doğru yola gəlməyə dəvət etmişdi. Qövmü isə onun bu təbliğinə belə cavab vermişdi:

> *“Onlar dedilər: “Bunlar qarmaqarışıq yuxulardır! Xeyr, o bunu özündən uydurmuşdur! Xeyr, o, bir şairdir! Qoy o, əvvəlki elçilərə göndərilən möcüzələr kimi bizə də bir möcüzə gətirsin”.*
>
> **(Ənbiya surəsi, 5)**

Qövmünün belə cavab verməsinin səbəbi onların Peyğəmbərimizin (s) dediklərini dərk etməməsi deyildi. Bu cavab qövmün azğınlığının bir təzahürü idi. Başqa qövmlər kimi onlar da Hz. Məhəmmədi (s) öz təkəbbür və lovğalıqları ucbatından inkar etmişdilər. Qövmdəki inkarçıların vəziyyəti Quranda belə ifadə edilir:

Onlara: “Allahdan başqa heç bir ilah yoxdur!” -deyildiyi zaman təkəbbür göstərirdilər. Və: “Biz heç divanə bir şairdən ötrü ilahlarımızı tərk edərikmi?!” -deyirdilər. (Saffat surəsi, 35-36)

Eynilə keçmiş qövmlərdə olduğu kimi Məkkə müşrikləri də yenə də öz təkəbbür və lovğalıqlarına görə Hz. Məhəmmədin (s) peyğəmbərliyini qəbul etmədilər. Əslində özləri də həqiqətin belə olmadığını bildikləri halda Peyğəmbərimizə (s) şair adı qoşdular. Həmçinin Peyğəmbərimizin (s) dediklərinin onun yalnız özünə məxsus olması iddiasını irəli sürdülər, yəni bu mübarək elçinin yalançı olması iftirasını dilə gətirdilər.

Onların bu iftirasının əvvəlki qövmlərin sözlərinə bu dərəcədə bənzəməsi isə bunun Allahın dəyişilməyən bir qanunu olduğunu göstərir. Lakin Allahın dəyişilməyən başqa bir qanunu da var. Bu da elçiləri inkar edən, təkəbbür göstərən və lovğalanan qövmlərə əzab vermək, onları bu dünyada və axirətdə alçaltmaqdır.

Hər bir qövmün öz elçilərinə qarşı istifadə etdiyi ifadələrin bir-birinə bənzəməsi çox diqqət çəkicidir. Aralarında yüz illərlə zaman fərqinin, mədəni və coğrafi fərqlərin olması da heç nəyi dəyişdirmir. Onların lovğalığı və təkəbbürü ucbatından həqiqətləri görə bilməyən, görsələr də özlərini görməzliyə vuran inkarçılar hər dövrdə eyni xarakterə malik olmuş, eyni nümunələri göstərmiş, eyni fikirləri müdafiə etmişlər. Əlbəttə, onların aqibəti də eyni olmuş və öz təkəbbürləri müqabilində alçaldıcı əzab görmüşlər.

Quranda biz insanlara öz davranışlarının müqabilində axirət əzabından əvvəl bu dünyada da əzabla cəzalandırılmış bir çox qövmlər haqqında bilgilər verilir. Bura qədər haqqında bəhs olunan qövmlərdən başqa Eykə, Mədyen, Hicr, Rəss xalqları, Lut qövmü həmin qövmlərdən yalnız bir neçəsidir. Bunlardan əlavə, adları, yaşadıqları dövrlər, coğrafi mövqeləri bilinməsə də bir çox qövmlərin həlak edilərək yer üzündən silinməsi və elə həmin səbəblə də onlara cəza verilməsi də mütləq bir həqiqətdir:

> *“Neçə-neçə məmləkəti zülm etdiyi üçün məhv etdik; onlar alt-üst olmuşdu. Neçə-neçə quyular, neçə-neçə möhtəşəm qəsrlər bomboş qalmışdı.*
>
> **(Həcc surəsi, 45)**

XV FƏSİL

# MÖMİNLƏRİN TƏVAZÖKARLIĞI

Quranda xəbər verilən "Bizim ayələrimizə ancaq ayələrimizlə öyüd-nəsihət olunduqları zaman səcdəyə qapananlar və təkəbbür göstərməyərək Rəbbini həmd-səna ilə təqdis edənlər iman gətirərlər" (Səcdə surəsi, 15) ayəsindən də aydın olur ki, imanın ən mühüm şərtlərindən və ən bariz əlamətlərindən biri təkəbbür göstərməməkdir. Möminlər isə "Səcdə" surəsindəki bu ayəyə əsasən və Allahın lovğalanıb təkəbbür göstərən insanları sevməyəcəyini (Nisa surəsi, 36) bildiklərinə görə daim təvazökarlıq göstərirlər:

> *"Rəhmanın bəndələri o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları zaman salam deyərlər.*
>
> **(Furqan surəsi, 63)**

Din əxlaqı özü ilə bərabər Allaha səmimi şəkildə iman gətirməyi və Ona təslim olmağı, təslimiyyət isə həmin möminin öz acizliyini və zəifliyini dərk etməsini gətirir. Hər şeyin Allaha aid olduğunu və özlərinin də Onun qarşısındakı çatışmazlıq və qüsurlarını, zəiflik və acizliklərini bilən möminlər Rəbbimizin yaratdığı digər bəndələrə qarşı da təbii olaraq bir təvazökarlıq göstərirlər.

Təkəbbürün və təvazökarlığın ən çox insanlar arasındakı münasibətlərdə ortaya çıxdığını demək əslində səhv olmazdı. Təkəbbür bəndənin Allah qarşısında lovğalanması, özünü böyük tutması olduğu halda yenə də əsasən insanlara qarşı göstərilir. Çünki birbaşa Allaha qarşı təkəbbürlü olmaq çox az insanın cürət edəcəyi bir dəlilikdir. Bu, Firona və azğınlıqdan gözü bağlanan onun kimi insanlara xasdır. Bunun əksinə olaraq təkəbbürlü insanların çoxu bu günahı Allaha qarşı etsələr də əslində Allaha qarşı açıq şəkildə təkəbbür göstərmirlər, təkəbbürlərini əsasən Allahın bəndələrinə qarşı göstərirlər.

İblis də onlardan biridir. O da Hz. Adəmə səcdə etməyi qəbul etməmişdi. İblis Allahın sonsuz qüdrətini bilib tanıdığı üçün Onun qarşısında açıq şəkildə üstünlük iddiasına düşməsi qeyri-mümkün idi. Lakin İblis, Allahın "Adəmə səcdə et" əmrini öz qüruruna sığışdırmamış, Hz. Adəmə qarşı təkəbbür göstərmişdi ki, bu da əslində Allaha qarşı üsyan etmək demək idi. Dolayısı ilə belə deyə bilərik ki, Allah qarşısında böyük bir günah sayılan təkəbbürün üzə çıxdığı məqam bir insanın başqaları ilə olan münasibətidir.

Əlbəttə, təvazökarlıq da elə eyni şəraitdə yaranır. Möminlər Allaha səmimi surətdə boyun əymələrini Onun mömin bəndələrinə qarşı göstərdikləri təvazökarlıqla büruzə verirlər. Çünki onlar malik olduqları xüsusiyyətlərin heç birinin özlərinə aid olmadığını bilirlər. Buna görə də həmişə şükür edir və Allahın onların əlində olan hər şeyi dilədiyi andaca geri ala biləcəyini əsla yaddan çıxarmırlar. Onları yaradan əbədi qüdrət sahibinin əzabından qorxur və sığınacaqları

yeganə qüvvənin yenə də Allah olduğunu bilirlər. İman gətirmiş möminlərin bu səmimi və itaətkar ruhi vəziyyəti və Allah qorxusu ayələrin birində belə ifadə edilir:

> *De: "Məni Allahdan heç kəs qurtara bilməz və mən də Ondan başqa heç bir sığınacaq tapa bilmərəm!*
>
> **(Cin surəsi, 22)**

Bütün bu səbəblərə görə də imanlı insanların mənəvi durumu, davranışları, fiziki xüsusiyyətləri təkəbbürlü insanlarda olanlardan tamamilə fərqlənir. İman gətirməyən inkarçıların təkəbbür göstərdikləri vəziyyətlərdə möminlərin sərgilədiyi davranış metodlarını aşağıdakı kimi sıralaya bilərik.

## Allah qarşısında aciz olduqlarını bilirlər

Özlərinin var-dövləti, gözəlliyi, gəncliyi və nüfuzu ilə, ümumiyyətlə, əllərində olan bütün şeylərlə dünyada əbədi qalmaq istəyən təkəbbürlü insanlar əbədi (baqi) varlığın yalnız Allah olduğunu, Onun ən böyük güc sahibi və ən üstün varlıq olmasını dərk edə bilmirlər. Buna görə də çirkin bir şəkildə Allahın ayələrinə qarşı çıxmağa cürət edirlər.

Möminlər isə daim Allahın böyüklüyünü dərk etməyə çalışırlar. Buna görə də bütün varlıqlarla birlikdə aciz olduqlarını bilirlər. Onlar inkarçı insanların davranışının əksinə olaraq qəlbləri titrək şəkildə Allahdan qorxur və Rəbbinə qarşı olan acizliklərini dilə gətirməkdən çəkinmirlər:

> *De: "Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki, (özüm üçün) daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı ancaq qorxudan və müjdələyənəm!"*
>
> **(Əraf surəsi, 188)**

## Heç nəyi Allaha şərik qoşmurlar

> *İnsanların içərisində Allahdan qeyrilərini şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər (özlərinə) zülm edənlərin vaxtında görəcəkləri əzabdan xəbərləri olsaydı, onlar bütün qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər.*
>
> **(Bəqərə surəsi, 165)**

Allahdan başqasını qəbul edənlər Ona əsasən öz nəfslərini, istək və arzularını, pullarını və gözəlliklərini, var-dövlətlərini və sahib olduqları başqa şeyləri şərik qoşurlar. Belə insanlar hər şeyin həqiqi sahibinin Allah olduğunu dərk edə bilməzlər. Bunun da ən mühüm səbəbi onların təkəbbürlü olmalarıdır.

Möminlər isə Allahdan başqa heç bir ilahnın olmadığına qəti bir şəkildə iman gətirirlər. Bir şey istədikləri zaman onu verən qüvvənin yalnız Allah olduğunu bilirlər. Yəni yeganə dostlarının və köməkçilərinin onları yaradan Uca Allah olduğunu dərk edirlər. Möminlər Rəbbimizin onlara verdiyi saysız-hesabsız nemətlərə görə yalnız Ona könüldən boyun əyir və daxildən gələn səmimi bir təslimiyyətlə məhz Uca Yaradana iman gətirirlər.

Möminlərin Allaha qarşı olan bu səmimi münasibəti və təslimiyyəti "Firon kimi təkəbbürlü" insanlarla onların arasında kəskin bir təzad yaradır. Çünki təkəbbürlü insanlar öz acizliklərinin dərəcəsini dərk edə bilməzlər. Möminlər isə "Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın! Şübhəsiz ki, Allahdan qeyri ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər - lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də!" (Həcc surəsi, 73) ayəsinə qəti şəkildə iman gətirdiklərinə görə heç nəyi özlərinə əsla aid etmir, hər şeyə qüvvəsi çatan iqtidar sahibinin yalnız Allah olduğunu bilirlər.

## Allahın elçilərinə itaət edirlər

> *Biz onları əmrimizlə doğru yola gətirən rəhbərlər etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.*
>
> **(Ənbiya surəsi, 73)**

Allah kafirlər üçün onları cəhənnəm oduna çağıran insanlar yaratdığı kimi möminlər üçün də onları doğru yola yönəldən başçılar göndərmişdir. Rəbbimiz elçilərini göndərdiyi qövmlərə də onları doğru yola dəvət edən bu başçılara itaət göstərməyi əmr etmişdir. Lakin haqqında Quranda bəhs olunan qövmlərdə gördüyümüz kimi, bu cəmiyyətlərin bir çoxu və həmin cəmiyyətlərin içindəki "qövmün başbilənləri" qəlblərindəki təkəbbür səbəbi ilə elçilərə qarşı çıxmış, onları tanımamış, onlara qarşı üsyan etmişdilər. Möminlər isə "Biz hər bir peyğəmbəri, ancaq ona Allahın izni ilə itaət olunsun deyə, göndərdik..." (Nisa surəsi, 64) ayəsinin də buyurduğu kimi, elçilərə itaət etməyin Allahın əmri olduğunu bilirlər. Bu səbəbdən də elçilərə göstərilən itaət Allaha səmimi iman gətirməyin, Ona təslim olmağın və təkəbbür göstərməməyin ən mühüm əlaməti hesab edilir. "Fəth" surəsinin 9-cu ayəsində də bildirildiyi kimi, iman gətirən möminlər həyatları boyunca elçiləri müdafiə edib dəstəkləyir və onlara qarşı dərin hörmət bəsləyirlər.

## Səhvə yol verəndə inadkarlıq göstərmirlər

Möminlər Allah qarşısındakı acizliklərini və bu dünyada onlara verilmiş çatışmazlıq və qüsurlarını qəbul etdiklərinə görə səhv etməkdən qorxmurlar. Bu adamlar ortaya böyüklük iddiası ilə və təkəbbürlə çıxmadıqlarına görə qüsur və səhvlərinin olması onlara mənfi təsir etmir. Çünki onlar başqa insanlar qarşısında "nüfuzumu qoruyum" dərdi çəkmirlər, yeganə məqsədləri yalnız Allaha qul olmaq, Onu razı salmaqdır.

Möminlər hər hansı bir səhvə yol verdikləri zaman dərhal səmimi şəkildə tövbə edir və Allaha yönəlirlər. Onların Quranda verilən bir duası bunun ən bariz nümunəsidir:

> *"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər. Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. Möminlər deyirlər: "Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə yükləyib daşıtdırma! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən. Kafirlərə qələbə çalmaqda bizə kömək et!"*
>
> **(Bəqərə surəsi, 286)**

Təkəbbürlü və lovğa insanların öz səhvlərinin və qüsurlarının üzə çıxmasından çox qorxmalarından, tənqid ediləndə hiddətlənmələrindən və bunu qəbul etmədiklərindən əvvəlki fəsillərdə də bəhs etmişdik. Möminlər isə bunun əksinə olaraq səhvə yol verəndə və ya qüsurları onlara deyiləndə bunu dərhal qəbul edir, Allahdan bağışlanma diləyirlər. Onlar belə vəziyyətə düşəndə əsla təkəbbür göstərmir, lovğalanmır və deyilənlərlə razılaşırlar:

> *O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini bildikdə bir daha ona qayıtmatmazlar.*
>
> **(Ali-İmran surəsi, 135)**

Azğın təkəbbür sahibi olan insanların tam əksinə olaraq möminlər onlara xüsusilə də ayələrlə bağlı bir cəhət xatırladılanda bunu dərhal qəbul edirlər. Belə ki, "Səcdə" surəsində möminlərin bu xüsusiyyəti onların ayələrə imanının bir əlaməti kimi bildirilir:

> *Bizim ayələrimizə ancaq ayələrimizlə öyüd-nəsihət olunduqları zaman səcdəyə qapananlar və təkəbbür göstərməyərək Rəbbini həmd-səna ilə təqdis edənlər iman gətirərlər.*
>
> **(Səcdə surəsi, 15)**

## Sahib olduqları şeylərə görə hədlərini aşmırlar

Təkəbbürlü insanların yolundan azmasına səbəb olan amil Allahın onları sınamaq üçün verdiyi xüsusiyyət və imkanlardır. Onlar malik olduqları imkanlara görə həddi aşıb tamamilə haqsız yerə təkəbbür göstərirlər. Möminlər isə hansı şərtlər daxilində yaşamalarından asılı olmayaraq öz davranış və əxlaqlarını dəyişmirlər. Onlar var-dövlətə, sərvətə və gücə malik olub-olmamalarından asılı olmayaraq həmişə təvazökar və gözəl xarakterə malik olurlar. Quranda möminlərdən belə bəhs edilir:

> *O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu Allaha aiddir.*
>
> **(Həcc surəsi, 41)**

Möminlərin əllərindəki imkanlara görə dəyişməmələrinə, həddi aşmamalarına ən gözəl nümunələrdən biri Hz. Yusifdir. Əlində böyük vəzifə, mal-mülk olan və elm sahibi olan Hz. Yusif bütün bu imkanların Allahın izni ilə mümkün olduğunu bilmiş və bu vəziyyətdə yenə də Rəbbinə

yönəlmişdi. Hz. Yusifin təvazökarlığı, Allah qarşısındakı təslimiyyəti və səmimi imanı aşağıdakı ayədə belə bildirilir:

> *“Ey Rəbbim! Sən mənə səltənətdən bir pay verdin. Mənə sözlərin yozumunu öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim ixtiyar sahibimsən. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!”*
>
> **(Yusif surəsi, 101)**

## Onlar bu dünyanı deyil, axirəti seçirlər

Güclü təkəbbür hissinə malik olan insanlar dünyaya sıx bağlı olurlar. Onlar malik olduqları imkanlarla birlikdə sanki əbədi yaşayacaqlarına inanırlar. Allahı və axirət gününü heç bir zaman ağıllarına belə gətirmək istəmirlər. Buna görə də əslində Allah tərəfindən onlara verilən və əsla onlara məxsus olmayan mal-mülk, var-dövlət, gözəllik və imkanlar ucbatından daim təkəbbür göstərirlər. Möminlər isə əsasən axirəti seçir və dünyada olanların müvəqqəti olduğunu bilirlər. Quranda əməlisaleh möminlər haqqında belə bildirilir:

> *“Biz yurdu (axirət yurdunu) anmaq xislətini onlara məxsus elədik.*
>
> **(Sad surəsi, 46)**

Möminlər həmçinin dünyaya gəlmələrinin səbəblərini, burada sınağa çəkildiklərini və Allahın razılığını qazandıran işlər görməli olduqlarını bilirlər. Ayələrdə də ifadə edildiyi kimi, onlar “dünyanı verib əvəzində axirəti satın alanlar”dır (Nisa surəsi, 74). Onlar bu dünyada malik olduqları sərvət və imkanlarla təkəbbür göstərməyi deyil, Rəbbinə qul olmağı üstün tuturlar. Möminlərin bu dünyada mallarını və canlarını qurban verərək axirəti qazanması “Tövbə” surəsinin 111-ci ayəsində belə ifadə edilir:

> *“Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur (uğurdur)!*
>
> **(Tövbə surəsi, 111)**

## Heç kimi lağa qoymurlar

Möminlər təkəbbürlü insanların başqalarını lağa qoymaq, adamları təhqir edib ələ salmaq kimi xüsusiyyətlərinin əksinə olaraq belə bir hərəkətə əsla yol vermirlər. Onlar bunun yalnız təkəbbürlü insanlara aid olduğunu bilirlər. Çünki əsl üstünlük mal-mülklə deyil, təqva (Allahdan qorxub çəkinməklə) ilədir. Kimin daha təqvalı, Allaha bağlı insan olmasını isə yalnız Allah bilir. Təkəbbürlü insanların başqalarını lağa qoymaq xüsusiyyəti Quranda pislənir, bütün möminlər bundan çəkindirilir:

> *“Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar (lağa qoyulanlar) o birilərindən (lağa qoyanlardan Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə rişxənd eləməsinlər. Bəlkə, onlar o birilərindən (rişxənd edənlərdən) daha yaxşıdırlar...*
>
> **(Hucurat surəsi, 11)**

## Şeytanın yolu ilə getmirlər

Allah iman gətirən insanları ən böyük düşmənlərindən Quranda aşağıdakı kimi çəkindirir:

> *“Ey insanlar! Yer üzündəki şeylərin təmiz, halal olanlarını yeyin. Şeytanın izi ilə getməyin! Həqiqətən, o sizinlə açıq-açığına düşməndir.*
>
> **(Bəqərə surəsi, 168)**

> *"Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim Şeytanın getdiyi yolla getsə, o, çirkin, pis işlər görməyi əmr edər...*
>
> **(Nur surəsi, 21)**

Şeytanın ardınca gedən adamlar yalnız qəlblərində olan üsyan və təkəbbür arzuları səbəbi ilə Allahın əmrinə qarşı çıxmaqdan zövq alan insanlardır. Şeytan Allahın gözəl gördüyü hər şeyi onlara çirkin və çətin göstərməyə çalışır, beləliklə də insanları bir-birinə qarşı qoyub onları bir-birinin üstünə salışdırır, Allahın qadağan etdiyi və çirkin saydığı şeyləri isə insanlara bəzəkli və cazibədar göstərir. Bunlar şeytanın qurduğu ən böyük tələlərdir. Qəlbində təkəbbür, başqalarından fərqlənmək, üsyan etmək arzusu olan insanlar da şeytanın ardınca gedirlər.

Gözəl xarakterə malik olan itaətkar möminlər isə Allahın əmrlərinə etinasız yanaşmırlar. Belə qətiyyətli olmaları nəticəsində şeytanın təhriklərinə və vəsvəsələrinə uymayan yeganə cəmiyyət möminlərin cəmiyyətidir. Onlar şeytanın vəd etdiyi boş sözlərə və hiylələrə aldanmır, Qurana çox bağlı olurlar. Şeytan möminlərə təsir etməyə çalışan zaman dərhal Rəbbimizə sığınıb həqiqəti görür və şeytanın vədlərinin boş bir yalan olduğunu anlayırlar. Çünki onlar Allahın rizasını və axirəti qazanmağı üstün tuturlar. Onların dünyadakı yeganə məqsədləri də budur. Məqsədlərinə çatmaq üçün seçdikləri bu yolda son dərəcə əzmkarlıq nümayiş etdirirlər. Çünki öz dünyəvi və nəfsani məqsədlərinə Allahın rizasına zidd olacaq şəkildə tabe olacaqları təqdirdə onlara zülm edəcəklərini anlayırlar.

## Təkəbbürlü insanlara baş əymirlər

Əvvəlki fəsillərdə də qeyd olunduğu kimi, Fironun qövmü içində insanların əksəriyyəti Fironun qorxusundan iman gətirməsə də bir qrup insan Hz. Musaya tabe olmuşdu. Firon onların oğlan uşaqlarını öldürüb qadınlarına toxunmadığına görə şübhəsiz ki, bu azsaylı qrupu böyük təhlükə gözləyirdi. Üstəlik Firon o qədər qəddar bir insan idi ki, onun yanındakı sehrbazlar Hz. Musaya tabe olub Allaha iman gətirdikləri zaman Firon onların əllərini və ayaqlarını çarpaz şəkildə kəsib sonra da asmaqla hədələmişdi. Səmimi möminlər isə bütün bu ağır şərtlərə baxmayaraq Hz. Musaya tabe olmaqdan az da olsa çəkinməmişdilər:

> *"Fironun və əyanlarının bəlası qorxusundan Musaya öz qövmündən yalnız kiçik bir dəstə iman gətirdi. Çünki Firon o yerdə hakim idi. O, həddi aşmışdı.*
>
> **(Yunus surəsi, 83)**

Göründüyü kimi, başqa insanların iman gətirməməsi möminlərə mənfi təsir etmir, əksinə, onların şövqünü və həvəsini daha da artırır. Çünki ayələrdə insanların çox az bir hissəsinin iman gətirəcəyi əvvəlcədən bildirilmişdir. Həmçinin iman gətirənlərin inkarçılarla sınağa çəkiləcəklərindən də bəhs edilmişdir. Belə olan halda möminlər, içində "Firon təkəbbürü" gəzdirən lovğa və inkarçı başbilənlərin bütün əməli və mənəvi təcavüzləri qarşısında haqq yolundan çəkinmir, imanlarından qalmırlar. Aşağıdakı ayədə də bildirildiyi kimi, eyni zamanda belə insanların zülmlərinə də boyun əymirlər:

> *"Neçə-neçə peyğəmbər bir yığın allahpərəstlə (Allah adamı ilə) birlikdə (düşmənə qarşı) vuruşmuşlar. Lakin onlar Allah yolunda çəkdikləri müsibətlərə görə nə zəiflik, nə acizlik göstərmiş, nə də boyun əymişlər. Allah səbr edənləri sevər!*
>
> **(Ali-İmran surəsi, 146)**

## Cənnətlə müjdələniblər

İnkarçılar Allahın onlara verdiyi imkan və nemətlər sayəsində həddini aşıb azğınlaşdıqları halda möminlər azğınlığın və təkəbbürün Allah dərgahında sevilməyən bir hərəkət olduğunu bilirlər. Möminlər sadə və səmimi şəkildə davranaraq Allahın rizasını qazanmağa çalışırlar. Onlar Allah rizası üçün olan bu əxlaqlı davranışlarını bütün həyatları boyunca və bütün insanlara münasibətdə göstərirlər. Möminlər nəfslərinə zidd olan hallarda və ya çətinliyə düşdükləri anda da ətrafındakı insanlara qarşı təvazökar davranış və gözəl əxlaq nümunəsi göstərirlər. Çünki onlar üçün ən mühüm məsələ Allahın razılığıdır. Möminlər Allahın hər an hər şeyi gördüyünü bildikləri üçün bu məsələdə çox diqqətlidirlər. Bunun müqabilində sadə, səmimi və gözü-könlü tox olduqlarına görə Allah onları cənnətlə müjdələmişdir:

Cənnət də müttəqilər üçün yaxın bir yerə gətiriləcəkdir. Bu, vəd olunduğunuzdur. O, hər bir qayıdan, qoruyan. Rəhmandan görmədən qorxan və haqqa dönmüş qəlblə gələn bəndə üçündür! Ora sağlıqla daxil olun. Bu, əbədiyyət günüdür! (Qaf surəsi, 31-34)

## Təvazökarlığın sirri

Möminlərin Quranda təsvir edilən bütün bu xüsusiyyətlərinə baxanda görürük ki, təvazökarlıq imanın təbii nəticəsidir. Belə ki, Quranda iman gətirənlərdən bəhs olunarkən təvazökarlığın onların təbii haləti olduğu bildirilir. Yəni möminlər özlərini təvazökar göstərməyə çalışan insanlar deyil, bu, onların daxili səviyyəsindən və mənəviyyatından irəli gəlir. Ayələrin birində möminlərdən bəhs olunarkən "O Rəhmanın bəndələri yer üzündə sadə gəzib-dolaşır və cahillər onlara müraciət etdiyi zaman onlarla "salam" deyərlər" deyə bildirilir. Ondan sonra gələn ayədə isə bu təbii təvazökarlığın səbəbi belə izah edilir:

> *Onlar gecəni Rəbbi üçün səcdə və qiyam (namaz) içində keçirər.*
>
> **(Furqan surəsi, 64)**

Yəni möminlərin təvazökarlığı onların Allah qarşısındakı təslimiyyətinin bir nəticəsidir. Sadəlikləri, səmimiyyətləri, gözütox olmaları onların dünyanın sirrini bilməsindən, yəni Allahın varlığını və gücünü dərk etməsindən irəli gəlir.

Yəni bu kitabda haqqında danışdığımız həqiqi təvazökarlıq yalnız və yalnız imanla əldə edilir. Həqiqi təvazökarlığın imandan kənar olan bir yolla əldə edilməsi isə qeyri-mümkündür. Çünki iman gətirməyən insanların həyatında olan "təvazökar" insanlar əslində "sınmış" və məzlum insanlardır. Bu dünyada dünyəvi dəyərlər yeganə ölçü olduğu üçün həmin dəyərləri əldə edənlər təkəbbür göstərib lovğalanır, onları əldə edə bilməyənlər isə mənəvi olaraq məzlum, sınmış, əzilmiş və ümidsiz bir xarakterin daşıyıcısına çevrilirlər. Bu halda varlı adamlar həmişə təkəbbürlü, yoxsullar isə həmişə yazıqdırlar. Belə məzlumluq isə həqiqi təvazökarlıqdan, yəni xalis sadəlikdən çox uzaqdır.

Qurandakı Qarun hekayəsi bizə bu məsələdə mühüm bir nümunə verir. Ayələrdə Qarunun varlı olmasına görə təkəbbür göstərməsindən bəhs olunarkən digər tərəfdən də özünü Qaruna bənzədən və onun kimi ola bilmədikləri üçün təəssüflənən insanlardan danışılır. Bu iki qrupdan kənarda qalan adamlar isə imanın sirrini dərk etmiş əməlisaleh insanlardır:

Qarun öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: "Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir". Elm verilmiş kəslər isə dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbir edənlər nail olarlar". Biz onu öz evi ilə birlikdə yerə batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: "Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!" Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir. (Qəsas surəsi, 79-83)

Özlərini Qaruna bənzədən adamlar bəlkə də Qarun qədər təkəbbürlü və lovğa deyil, hətta bəlkə də "əzilmiş" və "məzlum" insanlardır. Lakin onlar Qarunun yerində olsaydılar, onun kimi təkəbbür göstərəcəkdilər. Çünki onlar da Qarun kimi sərvətin əsl sahibini və Onun gücünü dərk etməmişlər. Onlar bunu yalnız Qarunun həlak edilməsi ilə dərk etmişlər.

Həqiqi təvazökarlığa malik olan insanlar isə "elm sahibi olan", yəni dünyanın sirrini dərk edən möminlərdir. Onlar Qarunun malik olduğu şeylərin vacib olmadığını bildiklərinə görə özlərini Qaruna bənzətməmişdilər. Möminlərə hətta Qarun kimi bir zənginlik də verilsəydi belə onlar yenə də öz fədakarlıqlarını və təvazökarlıqlarını əsla dəyişmədən həyatlarına davam edəcəkdilər.

Beləliklə, Qarunun hekayəsi haqqında danışılan bu "elm sahibləri", ümumən bütün möminlər üçün bir nümunədir. Onlar əsl təvazökarlığın yalnız Allaha qul olmaqla əldə ediləcəyini və

Allahın da yalnız belə insanlara nemət verəcəyini insanlara öyrədirlər. Çünki onlar “yer üzündə təkəbbür göstərməyənlər və azğınlıq etmək istəməyənlər”dir. Bu insanlar onlara verilən nemətlərə təkəbbürlə deyil, şükürlə cavab verirlər.

XVI FƏSİL

16

# TƏKƏBBÜRLÜ OLUB DİN ƏXLAQINA UYĞUN YAŞAMAQ MÜMKÜNDÜRMÜ?

Təkəbbürlə din əxlaqının vacib şərtlərinin bir yerdə ola bilməməsi aşkar bir həqiqətdir. Çünki dinin ən mühüm şərti yalnız Allahı üstün və böyük bilmək, yalnız Onu ilah kimi qəbul etməkdir. Təkəbbürlü insan isə özünü Allahdan asılı deyil, sərbəst bir varlıq kimi görür və öz istəklərindən irəli gələn əmrləri yerinə yetirir, həmçinin Allahın qulu olması haqda düşünmür. Allahın ona verdiyi xüsusiyyətlərə görə təkəbbür göstərərək öz nəfsini ucaldır. Qısaca, öz nəfsini ilah sayıb ona tapınır, onu Allaha şərik qoşur. Bu səbəbdən də təkəbbürlə bir yerdə din əxlaqının yox, yalnız şirkin (Allaha şərik qoşmaq) olması mümkündür.

Qeyd etdiyimiz kimi, təkəbbürlü insan nəfsini ilahiləşdirdiyinə görə o, Allahdan başqa ilah olmadığını təsbit edən haqq dinlə ən əsas nöqtədə toqquşur. Bu səbəbdən də onun din əxlaqına uyğun yaşamasından hətta söhbət də gedə bilməz. Bir qədər sonra da bildirəcəyimiz kimi, bəziləri istisna olmaqla təkəbbürlü insanların din əxlaqına uyğun yaşamaq kimi bir istəkləri də olmur. Təkəbbür göstərərək lovğalanan adamların dinə qarşı necə inadla müqavimət göstərməsi və dindən sürətlə uzaqlaşması bir çox ayələrdə bildirilir: “Onlara: “Allahdan başqa heç bir ilah yoxdur!” - deyildiyi zaman təkəbbür göstərirdilər” (Saffat surəsi, 35-36). Bu ayədə də ifadə edildiyi kimi, bu adamların qəlbindəki lovğalıq hissi onların Allahı və elçilərini qəbul etməsinə mane olur. İnkarçıların təkəbbürü bəzən elə dəhşətli həddə çatır ki, onlar Allaha hətta açıq şəkildə düşmənçilik edirlər. Əsassız bir təkəbbür və lovğalıq göstərən bu insanların Allahın xatırlanmasına qarşı olan davranışları Quranda aşağıdakı kimi bildirilir:

> “ *...Sən Quranda Rəbbini bir tək ilah olaraq andığın zaman onlar nifrət əlaməti olaraq arxalarını çevirib gedərlər.*
>
> **(İsra surəsi, 46)**

Din əxlaqının məqsədi insanın öz Rəbbini tanıyıb təqdir etməsi və Ona yaxınlaşması, Onun razılığını əldə etməyə vəsilə olacaq əxlaqı qazanmasıdır. Bu baxımdan təkəbbürlülük dinin məqsədinə tamamilə zidd olan bir amildir. Çünki təkəbbürlülük və lovğalıq Allahın sevmədiyi, Onun qəzəbinə səbəb olan bir xüsusiyyətdir. Ayələr bunu belə ifadə edir:

> *Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!*
>
> **(Loğman surəsi, 18)**

> *Şübhəsiz ki, Allah onların gizlində də, aşkarda da nə etdiklərini bilir. Allah təkəbbür edənləri sevməz!*
>
> **(Nəhl surəsi, 23)**

Buna görə də məqsədi Allahın rizasını qazanmaq olan din əxlaqına uyğun yaşamağa çalışmaq, bununla paralel şəkildə isə Allahın razı olmadığı təkəbbür hissindən geri çəkilməmək özlüyündə tamamilə məntiqsiz və ziddiyyətli bir davranışdır.

Din əxlaqı təvazökarlığı, səmimi imanı, təslimiyyəti, sadəliyi, Allaha boyun əyməyi tələb edir. Möminə xas olan bütün bu xüsusiyyətlərin təkəbbürlü insanda olması isə qeyri-mümkündür. Buna görə də belə bir insan Allaha həqiqi surətdə iman gətirə bilməz.

Təvazökarlığın və sadəliyin ən böyük əlamətlərindən biri də Allaha və Onun elçisinə itaət etməkdir. Təvazökar olmayan bir insan itaət edə bilməyəcəyi üçün din əxlaqı ilə təkəbbürün birlikdə olmasının mümkünsüzlüyü burada bir daha ortaya çıxır. Təkəbbürlü insanlar olduqları mühitdə heç bir nüfuzlu adamın olmasını qəbul etmir, belə mötəbər adamı tanımaq istəmirlər. Onlar hər bir məsələdə yalnız özlərinin ən yaxşı düşünən, ən ağıllı və qabiliyyətli olan, ən doğru hərəkət edən adamlar olduğunu güman edirlər. Onlar özlərinə çox arxayın olduqlarına görə bir şeyi daha yaxşı bilən bir adamın olmasını hətta ehtimal da etmirlər.

Bəlli olduğu kimi, şeytanın gizli təkəbbürü də itaət məqamında üzə çıxmış və o, təkəbbürlü olması səbəbi ilə itaətdən qaçmış və kafirlərdən olmuşdur. Quranda itaət məsələsinə böyük əhəmiyyət verilir və mömin insanda necə bir itaətkarlığın olmasının vacibliyi bütün təfsilatları ilə bildirilir. Qurana görə, itaət ruhən, qəlbən və əməli baxımdan yerinə yetirilməli olan çox həssas bir məsələdir. Elçinin verdiyi qərara əməli şəkildə boyun əydiyi halda qəlbən sıxıntı və tərəddüd hiss etməyin özü də imansızlıq əlaməti kimi qiymətləndirilmişdir:

> *“Amma, xeyr! Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə iman gətirmiş olmazlar.*
>
> **(Nisa surəsi, 65)**

Bir qədər əvvəl də qeyd etdiyimiz kimi, təkəbbürlü insanların ən mühüm əlaməti Allah onlara elçi göndərdiyi zaman həmin elçiləri qəbul etməmələri və onlara qarşı mübarizə aparmalarıdır. Çünki gözəl əxlaq, ağıl və təqva kimi üstün xüsusiyyətlərə malik olan və həmin cəmiyyətdəki hər bir kəsə başçı kimi göndərilən bu insana itaət etmək fikri təkəbbürlü insanlara son dərəcə ağır gəlir. Halbuki elçiyə itaət etməmək Allaha itaət etməmək deməkdir. Allaha itaətin olmadığı yerdə isə din də, din əxlaqı da ola bilməz. Bir çox ayələrdə peyğəmbərə itaət etməyin əslində Allaha itaət etmək demək olduğu bildirilir. Məsələn, bir ayədə belə buyurulur:

> *“Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə qoy döndərsin! Biz ki səni onların üzərində gözətçi olmağa göndərməmişik.*
>
> **(Nisa surəsi, 80)**

Göründüyü kimi, itaət məsələsi təkəbbürlü insanların din əxlaqına uyğun həyat tərzinə keçməsinə əsla keçid imkanı verməyən bir qala kimidir. Bu qalanın qapıları yalnız təvazökarlıqla, səmimiyyətlə, Allah qarşısındakı təslimiyyətlə və sadəliklə açılır.

Bütün bunlarla yanaşı, təkəbbür bir insanın bütün əxlaqi keyfiyyətlərinin aşınıb məhv olmasına, qəlbinin kor olmasına səbəb olan bir xəstəlikdir. Yəni təkəbbür din tərəfindən qəbul edilməyən bir xüsusiyyət olduğu kimi insan xarakterinin təkəbbürdən irəli gələn başqa mənfi xüsusiyyətləri də Quranda təsvir olunmuş üstün əxlaq modeli ilə tamamilə təzad təşkil edir. Məsələn, mömin comərdlik, fədakarlıq, səbir, idrak, şəfqət, mərhəmət, qətiyyət, vəfa, xoşniyyətlilik və bunlara bənzər bir çox üstün əxlaqi xüsusiyyətlərə malikdir. Halbuki möminə xas olan bütün bu cəhətlərin təkəbbürlü insanda həqiqi mənada olması mümkün deyildir. Bütün bunların əksinə olaraq təkəbbürlü insan xəsisdir, yalnız öz nəfsinin mənafelərini düşünür, səbirsizdir, qərarsızdır, anlayışsızdır, zalımdır və özündə bunlara bənzər digər xüsusiyyətləri birləşdirən bir xarakterə malikdir. Belə mənfi cəhətlərə malik olan bir insanın da din əxlaqına uyğun yaşaması, dini hökm və qaydalara əməl etməsi və dinin əmrlərini lazımınca yerinə yetirməsi mümkün deyil. Əslində dinin əsas məqsədi də insanın Allahın razı qaldığı, qəbul etdiyi həmin üstün cəhətləri əldə etməsidir.

## Təkəbbürlü insanın dinə əməl etdiyini iddia etməsi nə deməkdir?

Buraya qədər söylənənlərdə təkəbbürlü insanın dinə səmimi şəkildə əməl etməsinin qətiyyən mümkün ola bilməyəcəyinin, Quranda təsvir edilən mömin insan modeli ilə təkəbbürlü bir insan modelinin bir-biri ilə daban-dabana zidd olmasının şahidi olduq. Lakin bunun əksinə olan davranış tərzi göstərənlər də vardır. Daha doğrusu, dinə əməl etdiyini iddia etdikləri halda əslində gizli bir təkəbbürə malik olan “ikiüzlü” insanlar vardır.

Bu, İslam dini tarixində yeni bir hadisə deyil. Quranda bizlərə Peyğəmbərimizin (s) dövrü də daxil olmaqla hər bir dövrdə möminlərin arasından çıxan belə insanlar haqqında məlumat verilir. Möminlərin belə insanlara aldanmaması, onlar haqqında səhvən müsbət fikirlərə düşməməsi üçün də həmin insanların əsl sifəti göstərilir, onların əsas xüsusiyyətləri, fərqləndirici və özünəməxsus əlamətləri bildirilir.

Quranda möminlərin arasında olub iman gətirdiklərini iddia edən, lakin əslində iman gətirməmiş bir qrup insandan bəhs olunur. Bu insanlar təkəbbürlü insanların bütün xüsusiyyətlərinə (itaətsizlik, sadiq olmamaq, üz döndərmək, dönüklük, saxtakarlıq və s. kimi) malikdir. Bunlar “münafiqlər”dir. Münafiqlər özlərinin müxtəlif şəxsi mənfəətlərini əsas götürüb möminlər arasında yaşayaraq küfrlərini gizlətməyə çalışır, özlərini iman gətirən adamlar kimi göstərirlər. Lakin münafiqlərin Qurana və möminlərin başlıca davranış tərzinə zidd olan düşüncə və hərəkətləri onların dərhal tanınıb seçilməsinə səbəb olur. Quran bizlərə onların bir çox davranış və hərəkətlərindən, danışıqlarından nümunələr verərək bu adamların ikiüzlülüyünü ifşa etmiş, başda elçi olmaq şərti ilə bütün möminlərin onları asanlıqla tanımasına imkan yaratmışdır.

Bizim burada münafiqlərdən danışmağımızın əsas səbəbi isə ən bariz xüsusiyyətləri təkəbbür və lovğalıq olan bu qrupun təkəbbürlü insanların dini qayda və hökmlərə hətta təqlid və özünü göstərmək naminə də olsa əməl etmədiklərini göstərən əyani sübut rolunda çıxış etməsidir. Həqiqətən də münafiqlər başda elçilərə itaət və hörmət olmaq şərti ilə Quranın bir çox hökmlərini yerinə yetirməzlər. Onların el gözünə yerinə yetirdikləri bəzi şeylər var, amma bunları da olduqca çətinliklə, özlərini nəyəsə məcbur edib zora salaraq və ətrafdakıları şübhələndirəcək şəkildə edirlər.

Sonrakı bölümlərdə münafiqlərin tərifini verən ayələrin köməyi ilə təkəbbürlü insanların dini hökmlərə necə və nə üçün əməl edə bilməyəcəklərini, bunu etməyə çalışdıqları zaman isə hansı ziddiyyətlərin üzə çıxacağını ayrı-ayrı başlıqlar altında nəzərdən keçirəcəyik.

## Allahı lazımınca təqdir edə bilməmələri

Təkəbbürün şeytanın xüsusiyyəti olmasını kitabın əvvəlki fəsillərində qeyd etmişik. İblis Allahın böyüklüyünü və gücünü təqdir edə biləcək bir vəziyyətdə olduğu halda malik olduğu təkəbbür səbəbi ilə ağıldan və düşüncədən tamamilə uzaqlaşmış və məntiqsizlik göstərmişdi. Buna görə də Allaha qarşı çıxmağa cürət etmişdi. Təkəbbürlü insanlar da eyni qaydada azğın bir düşüncəyə malikdirlər. Bu xüsusiyyətə ən çox münafiqlərdə rast gəlmək olar.

Çünki onların da ən bariz cəhəti lovğa və təkəbbürlü olmalarıdır. Onların bu xüsusiyyəti də özünü Allahın qüdrətini lazımınca təqdir edə bilməmələrində göstərir. Bu məsələ ayələrin birində belə bildirilir:

> *“Bir surə nazil edildiyi zaman bir-birinə baxıb: “Sizi görən varmı?” - deyə soruşur, dönüb aradan çıxırlar. Onlar anlamaz bir tayfa olduqları üçün Allah da ürəklərini döndərmişdir!*
>
> **(Tövbə surəsi, 127)**

Ayələrdən də aydın olduğu kimi, təkəbbür göstərib lovğalanan münafiqlər Allahın hər şeyə şahid olan, hər şeyi eşidən, hər şeyi bilən olduğunu əsla dərk etmirlər. Belə ki, bu təkəbbürlü insanların hətta Allahı da aldatdıqlarını (bu ifadələrdən Allaha sığınırıq) düşünmələri onların nə qədər ağılsız varlıqlar olduğunu bilməyimiz üçün kifayətdir. Bu azğın adamların həmin xüsusiyyətləri aşağıdakı ayədə belə vurğulanır:

İnsanlar içərisində elələri də var ki, iman gətirmədikləri halda: “Biz Allaha və qiyamət gününə iman gətirdik”, - deyirlər. Onlar elə güman edirlər ki, Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar. (Bəqərə surəsi, 8-9)

## İtaət və hörmət məsələsində tabe olmamaları

Təvazökarlıq hörmətin, təkəbbür isə hörmətsizlik və məsxərənin yaranmasına səbəb olur. Ehtiram göstərmək hissi təkəbbürlü insanlara ağır gəlir, belə adamlar xüsusən də elçiyə hörmətlə yanaşmaqda çətinlik çəkirlər. Onlar yalnız kiməsə lağ etməkdən, hörmətsizlik göstərməkdən, özlərinin guya fərqli adamlar olduqlarını başqalarına hiss etdirib lovğalanmaqdan zövq alırlar. Təkəbbürlü insanlar öz qərarlarını üstün hesab etdiklərinə görə peyğəmbərlərin hökmlərini müsbət qarşılayıb bu hökmlərə tabe ola bilmirlər. Buna görə də onların dində ən çox çətinlik çəkdiyi məsələ elçiyə tabe olub ona itaət etmək məsələsi ilə bağlıdır. Lakin Allah bu dərin itaəti dinin ən mühüm şərtləri arasında saymış, zalımlar kimi xarakterizə etdiyi münafiqlərin hallarını da ayələrdə belə bildirmişdir:

Aralarında hökm etmək üçün Allahın və Peyğəmbərin yanına çağırıldıqda onlardan bir dəstə dərhal üz çevirər. Əgər haqq onların tərəfində olsa, itaət edib (tez) onun yanına gələrlər. Onların qəlblərində mərəzmi var? Yaxud Allahın və Peyğəmbərinin onlara haqsızlıq edəcəklərindən qorxurlar? Xeyr, onlar özləri zülmkardırlar! (Nur surəsi, 48-50)

## Allahı xatırlaya bilməmələri

Öz nəfslərində böyüklük iddiasına düşüb lovğalanan insanların ən bariz xüsusiyyətlərindən biri də onların Allahı tez-tez anıb xatırlamamasıdır. Çünki bu

adamların Allahı öyüb mədh etməsi, Onu ucaltması, gücünü və qüdrətini təqdir etməsi eyni zamanda onların Allahın qulu olmalarını və öz acizliklərini görüb təsdiq etmələri mənasına gəlir. Böyüklük iddiasında olan adamlara da məhz elə bunlar çox ağır gəlir. Buna görə də onlar Allahı xatırlamağa can atmırlar. Bu tipli adamlar bu vəziyyətlərinin nəticəsində də şeytanın təsiri altına düşdüklərinə görə tamamilə dünyaya bağlanmışlar, şeytan isə onları dünyəvi əməllərin, təkəbbür hissinin, lovğalığın və böyüklük iddiasının ağuşuna ataraq öz arxasınca sürüyüb aparır:

> *“Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsidirlər. Bilin ki, ziyana uğrayanlar məhz onlar şeytanın firqəsidir!*
>
> **(Mucadələ surəsi, 19)**

## Quranı dinləyə bilməmələri

İçlərində Firon təkəbbürü daşıyan bu insanlar hətta Allahın Öz elçiləri vasitəsilə göndərdiyi Müqəddəs Kitabları da dinləmək istəmirlər. Çünki Kitabdan oxunan hər bir ayə onlar üçün bir nəsihət və xəbərdarlıqdır, onlara qul olmalarını və acizliklərini xatırladır. Halbuki bunlar içlərindəki təkəbbür ucbatından nəsihət almağa, aciz olduqlarını eşitməyə dözə bilmirlər:

> *“O kəslər ki, gözləri Məni anmaqdan qapalı idi və eşitməyə də qadir deyildilər.*
>
> **(Kəhf surəsi, 101)**

## Allaha sadiq ola bilməmələri

Din əxlaqı sədaqətli və vəfalı olmağı tələb edir. Lakin bu təkəbbürlü insanlar yalnız öz mənfəətləri və nüfuzları barədə düşündüklərinə görə həmişə öz mənfəətlərinə uyğun şəkildə hərəkət edirlər. Təkəbbürlü və lovğa bir insandan sədaqət və vəfa gözləmək əslində yersiz işdir. Belə insanlar yalnız özlərinə sadiqdirlər:

> *“...İş qətiləşdiyi zaman Allaha sadiq olsaydılar, sözsüz ki, onlar üçün daha yaxşı olardı!*
>
> **(Muhəmməd surəsi, 21)**

## Çətinliyə və zəmanəyə qarşı dözümsüz olmaları

İslam dininin hökmləri Allaha bütün malik olduqları ilə birlikdə tam təslim olub Ona səmimi şəkildə iman gətirən, yalnız Ona ümid edən, axirəti dünyadan üstün tutan möminlər üçün çox asandır və onlara zövq verir. Halbuki bəzi hallar özlərinin bir çox dünyəvi mənfəətləri naminə dindən sui-istifadə etməyə çalışan münafiqlərin işinə əsla yaramır və onlar Quranın əzab, fədakarlıq, qətiyyət tələb edən belə hökmlərindən müxtəlif yalan və hiylələrlə qaçmağa çalışırlar:

> *“Əgər o, asan əldə edilən mənfəət və orta bir səfər olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin yorucu məsafə onlara uzaq gəldi. Bununla belə, onlar: “Əgər gücümüz çatsaydı, biz də sizinlə bərabər səfərə çıxardıq”, - deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Allah isə onların yalançı olduqlarını bilir.*
>
> **(Tövbə surəsi, 42)**

## Var-dövlətlərini Allah yolunda asanlıqla sərf edə bilməmələri

Təkəbbürlü insanların ən çox çətinlik çəkdiyi məsələlərdən biri də onların öz var-dövlətlərini, sərvətlərini Allah yolunda əvəzsiz olaraq fəda etmək məsələsidir. Lakin özlərinin bəzi mənfəətlərinə görə möminlər arasında nəzərə çarpmaq və gözə girmək məqsədilə var-dövlətlərini Allah yolunda sərf edənlər bunu istəməyə-istəməyə də olsa edirlər:

> *“Onların xərclədiklərinin qəbul olunmasına mane olan yalnız Allahı və Onun Peyğəmbərini inkar etmələri, namaza tənbəl-tənbəl gəlmələri və istəməyə-istəməyə xərcləmələridir.*
>
> **(Tövbə surəsi, 54)**

Elə həmin ayədə münafiqlərin namaz qılmaq məsələsində də çətinlik çəkməsi ifadə edilir.

Bura qədər söylədiklərimizdə münafiqlərə dair nümunələr verərək din əxlaqına uyğun yaşamağın təkəbbürlü insanlardan ötrü nə qədər ağır, hətta qeyri-mümkün olduğunu bildirməyə çalışdıq. Təkəbbürlü və lovğa insanların sırf dünya mənfəətləri səbəbi ilə hətta el gözünə də olsa din əxlaqına uyğun yaşamağı bacarmayacağından, gec-tez üzə çıxıb ifşa olacaqlarından bəhs etdik. Belə insanların hətta ən qabiliyyətliləri də Allahın onlara ayırdığı müəyyən vaxt ərzində

möminləri çox gözəl şəkildə təqlid etsələr də təkəbbürləri ilə ziddiyyət təşkil edən elə birinci haldaca özlərinin əsl simalarını ortaya qoyacaqlar.

Bir insanın səmimi təvazökarlığı və sadəliyi isə onun əsl mömin olmasının əlamətlərindəndir. Eyni şəkildə mömin olduğunu iddia edən bir insandakı təkəbbür hissi də onun münafiqliyinin və yaxud münafiqliyə olan meylinin əlamətidir.

Nəticə kimi ümumiləşdirsək, deyə bilərik ki, təkəbbürlü bir insan həqiqi mənada din əxlaqına uyğun yaşaya və dini hökmlərə tam mənada əməl edə bilməz. Belələri hətta dini məsələləri çox yaxşı bilsələr və Allahın Kitabını əvvəldən-axıra qədər əzbərləsələr də bu, onların dini hökmlərə əməl etmələrinə dəlalət etməz. Əksinə, onlar bildikləri hökmləri yerinə yetirmədiklərinə görə daha çox məsuliyyət daşıyarlar, sonda isə dini əmr və hökmləri yalnız bir münafiq kimi yerinə yetirə bilərlər. Bu tip adamların səmimi mömin olmaq üçün hər şeydən əvvəl öz nəfslərini ilahiləşdirərək onu Allaha şərik qoşmaqdan əl çəkmələri, öz təkəbbür və lovğalıqlarından imtina edərək acizlikləri və qul olmaları barədə düşünmələri lazım gəlir. Əsl din yalnız belə bir əsas üzərində qurula bilər.

XVII FƏSİL

17

# TƏKƏBBÜRLÜ İNSANLARIN AXİRƏTDƏKİ VƏZİYYƏTİ

Allah Quranda təkəbbürlü insanlar haqqında buyurarkən "Firon təkəbbürü" olan insanların aqibətinin nə olacağını da bildirmişdir. Allah Öz ayələrində belə hökm edir:

> *Ona: "Allahdan qorx!" -deyildiyi zaman lovğalıq onu günah törətməyə vadar edər. Beləsinə cəhənnəm kifayətdir. Ora nə pis məskəndir!*
>
> **(Bəqərə surəsi, 206)**

Quranda da bildirildiyi kimi, dünya həyatını Rəbbimizə qarşı təkəbbür göstərməklə yaşayan belə insanların axirətdə alacağı cavab yalnız cəhənnəm olacaqdır. Bunu bildirən ayələr aşağıdakı kimidir:

> *...Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar cəhənnəmə zəlil olaraq girəcəklər!*
>
> **(Mümin surəsi, 60)**

Bu sizin yer üzündə nahaq yerə sevinməyinizə və təkəbbürlənməyinizə görədir! Girin cəhənnəmin qapılarına orada əbədi qalmaq üçün! Təkəbbürlülərin sığınacağı necə də pisdir! (Mümin surəsi, 75-76)

Bu dünyada əllərində olan sərvət və imkanlar sayəsində öz həddini aşan, bütün bunlara güvənərək yollarını azan təkəbbürlü insanlar böyük səhvə yol verirlər. Onlar axirətdə başlarına nələrin gələcəyi haqqında heç düşünmür, özlərinə aid etmədikləri, özlərini uzaq hesab etdikləri axirət əzabına gözləmədikləri bir anda düçar olurlar. Bu dünyadakı qısa ömürlərində Allahı, hesab verəcəkləri anı və qiyamət gününü düşünməmələrinin müqabilində onlar cəhənnəmə sövq edilirlər. Bura əbədi hesab etdikləri həyatlarının bundan sonrakı hissəsini keçirəcəkləri məskəndir. Allahı və axirəti yaddan çıxaran bu insanların axirətdə düşəcəkləri vəziyyət Quranda belə bildirilir:

Onlara belə deyiləcək: "Siz bu gününüzə qovuşacağınızı unutduğunuz kimi, Biz də bu gün sizi unudacağıq. Sizin məskəniniz cəhənnəmdir. Sizə kömək edənlər də olmayacaqdır! Bu ona görədir ki, siz Allahın ayələrini lağa qoyurdunuz; dünya həyatı sizi aldatmışdı!" Bu gün onlar çıxarılmayacaq və onlardan heç bir üzrxahlıq qəbul olunmayacaqdır! (Casiyə surəsi, 34-35)

Allahın ayələrini lağa qoyduqları və dünya həyatına qapılaraq axirəti unutduqlarına görə sürüklənib cəhənnəmə salınan bu insanların hamını məsxərəyə qoyub ələ salmasının əsas səbəbi onların təkəbbürlü və lovğa olmalarıdır. Onları bu vəziyyətə də elə öz təkəbbür və lovğalıqları gətirmişdir. Çünki axirət həyatı onların indiyədək haqqında heç bir şey eşitmədikləri bir məsələ deyildi. Allah bunu həmin adamlara onlar hələ bu dünyada olduqları zaman Öz elçiləri və Kitabları vasitəsilə dəfələrlə xatırlatmışdı. Lakin onlar təkəbbür göstərdikləri üçün bu nəsihətləri dinləməmiş və onlardan üz döndərmişdilər. Nəticədə isə öz davranış və əməlləri səbəbi ilə qazandıqları cəzaya layiq olur və bu cəzanı çəkirlər:

> *“Xeyr, Mənim ayələrim sənə gəlmişdi, amma sən onları yalan saydın, təkəbbür göstərdin və kafirlərdən oldun!*
>
> **(Zumər surəsi, 59)**

Təkəbbürlü insanların ölməsi ilə birlikdə başlayacaq əbədi cəhənnəm həyatı, qiyamət günündəki vəziyyətləri, çəkəcəkləri əzablar Quranda bir-bir təsvir edilmişdir. Bu insanların axirətdəki vəziyyəti Allaha qarşı təkəbbür göstərən və ya ruhlarında belə bir təhlükə daşıyan hər bir kəsə nəsihət olsun deyə kitabın bu fəslində ayrı-ayrı başlıqlar altında nəzərdən keçirilir.

## Cəhənnəmdə alçaldılıb təhqir edilirlər

Dünya həyatında təkəbbür göstərənlər cəhənnəmdə bunun cəzasını çox alçaldıcı və təhqiramiz bir əzabla görəcəklər. Onlar böyük bir fiziki (cismani) əzabla yanaşı həm də mənəvi əzabla alçaldılıb təhqir olunacaq aqibətlə qarşılaşacaqlar. Dünya həyatında təkəbbür göstərib lovğalanmağın cəzası cəhənnəmdə yaşanacaq əbədi rəzalət və təhqirdir:

> *“Kafir olanlar cəhənnəm oduna göstəriləcəkləri gün onlara belə deyiləcəkdir: “Siz dünya həyatınızda nemətləri görüb daddınız və onlardan ləzzət aldınız. Bu gün isə yer üzündə nahaq yerə təkəbbür göstərdiyinizə və fasiqlər olduğunuza görə həqarətli əzabla cəzalandırılacaqsınız!*
>
> **(Əhqaf surəsi, 20)**

Allah belə təkəbbürlü adamları onların dünyada ikən ən çox nifrət etdiyi, heç xoşlamadığı vəziyyətlərə salır. Onlar odun içində üzü üstə sürüklənmək kimi alçaldıcı və təhqiramiz bir vəziyyətlə qarşılaşacaqlar. Oda girməyin özü əslində böyük bir əzabdır, lakin təkəbbürlü insanlar

üçün odun içində üzü üstə sürüklənərək alçaldılmaq daha ağır bir əzabdır. Ayələrdə belə buyurulur:

Xeyr! İnsan, doğrudan da, həddini aşır – özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə. Axı son dönüşün Rəbbinədir! Gördünmü o kəsi ki, mane olur – bir bəndəyə namaz qıldığı zaman? (Ələq surəsi, 6-10)

Xeyr! Əgər yaramaz əməlinə son qoymasa, Biz onun kəkilindən tutacağıq – yalançı, günahkar kəkilindən. (Ələq surəsi, 15-16)

Yuxarıdakı ayələrdə insanın azğınlaşaraq özündənrazı davranmasından, yəni təkəbbüründən bəhs edilmişdir. Həmçinin ayədən də aydın olduğu kimi, təkəbbürlü insanın bu azğınlığının ən bariz təzahürü onun iman gətirən möminlərə mane olmağa çalışmasıdır. Başqa bir ayədə isə bu dünyada özünü yüksək tutub üstün və qürurlu yaşayan lovğa insanların cəhənnəmdə bunun tamamilə əksinə olan bir vəziyyətə düşəcəkləri bildirilir:

Onu tutub cəhənnəmin tən ortasına sürüyün! Sonra başına əzab olaraq qaynar su tökün! Bir dad görək! Sən ki çox qüvvətli, möhtərəm bir şəxs idin! (Duxan surəsi, 47-49)

Beləliklə, təkəbbürlü insanların haqsız yerə lovğalanmasının nəticəsi məhz budur. Onların arxasınca qaçdığı, dördəlli yapışdığı dünyanın özü əslində müvəqqətidir. Əllərində nə qədər sərvət olsa da onların hamısı bir gün tükənib bitir, dünya həyatına aid olan bütün zövq və gözəlliklər arxada qalır. Halbuki axirət həyatı əbədidir. Həmçinin var olan hər bir şeyin sahibi Allahdır. Allah bu dünya həyatında insanlara verdiklərini onları yalnız sınamaq üçün verir. Rəbbimiz bütün bu nemətləri insanlara onların dünyada Allah rizasını axtarıb şükür edənlərdən olacağını yoxsa nankorluq edib inkarçı olacağını sınamaq üçün verir. Verilən bu nemətlər qarşısında lovğalanıb təkəbbür göstərməyi üstün tutan insanların bunun müqabilində alacağı cəza isə umduqlarının tam əksinə olan təhqiramiz bir əzab olacaq.

## Çirkin vəziyyətə salınırlar

Təkəbbürlü insanların ən çox öyündükləri məsələlərdən biri də öz fiziki xüsusiyyətləri və cismani gözəllikləridir. Bu səbəbdən də öz gözəllikləri ilə öyünüb lovğalanan adamların axirətdə ən çox qorxduqları şey onların başlarına gəlir. Onlar çirkin hala salınır, üzləri qapqara olur:

> *“Qiyamət günü Allaha qarşı yalan uydurub söyləyənlərin üzlərini qapqara görərsən. Məgər təkəbbür göstərənlər üçün cəhənnəmdə yer yoxdur?!*
>
> **(Zumər surəsi, 60)**

> *“Bu dünyada onlara lənət damğası vurduq, qiyamət günü isə onlar çirkin kimsələr olacaqlar.*
>
> **(Qəsəs surəsi, 42)**

## Əbədi olaraq cəhənnəmdə qalırlar

Ayələrdə ifadə edildiyinə görə, Allaha qarşı təkəbbür göstərənlər əbədi olaraq cəhənnəmdə qalacaq və oradan heç cürə çıxa bilməyəcəklər. Həmin insanların cəhənnəmə daxil olmalarının səbəbi kimi də onların təkəbbürlülük etmələri göstərilir. Allah onların bu təkəbbür və lovğalığını əbədi cəhənnəm əzabı ilə cəzalandıracağını ayələrdə belə xəbər verir:

> *“Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və dəvə iynənin gözündən keçməyənə qədər onlar da cənnətə daxil ola bilməzlər. Biz günahkarlara belə cəza veririk!*
>
> **(Əraf surəsi, 40)**

> *“Girin cəhənnəmin qapılarından orada əbədi qalmaq üçün! Təkəbbürlülərin sığınacağı necə də pisdir!*
>
> **(Mumin surəsi, 76)**

> *“Haydı, girin əbədi qalacağınız cəhənnəmin qapılarından. Təkəbbürlülərin məskəni necə də pisdir!*
>
> **(Nəhl surəsi, 29)**

Şübhəsiz ki, hətta gözlə görməyin belə qeyri-mümkün olduğu cəhənnəm əzabında milyard, trilyon illərlə qalmaq, bunun yenə də bitməyəcəyini və əbədi olaraq davam edəcəyini bilmək insanın hətta təxəyyülünə də sığmayan bir haldır. Belə bir əzabla cəzalandırılmaqdan da böyük və ağır cəza ola bilməz. Həmçinin bu əzab şiddətinə görə insanda yox olmaq arzusu yaradacaq, dünya həyatındakı hər bir hərəkətinə və davranışına görə onu utandırıb hədsiz şəkildə alçaldacaq bir əzabdır.

## Qiyamət günü malik olduğu sərvəti və övladları onlara heç bir fayda verə bilməz

Təkəbbürlü insanların bu dünyada yaşayarkən bütün hakimiyyət və gücün Allahın əlində olduğunu unudaraq öz sərvəti və övladları ilə öyünmələri və bu səbəbdən də lovğalanmaları aşkar bir həqiqətdir. Halbuki bütün bunlar sadəcə olaraq Allahın insanları sınağa çəkmək üçün verdiyi müvəqqəti nemətlərdir. Əbədi olan və Allah dərgahında məqbul sayılan yeganə üstünlük ölçüsü isə "təqva"dır. Bu barədə Quranda "Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır" (Hucurat surəsi, 13) deyə bildirilir. Buna baxmayaraq təqvada deyil, Allaha üsyan etməkdə yarışan insanlar nə qədər böyük səhv etdiklərini qiyamət günü biləcəklər, çünki axirətdə bunların heç birinin dəyəri olmayacaq:

O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!" (O gün) cənnət Allahdan qorxub pis əməllərdən çəkinənlərə yaxınlaşdırılar. Cəhənnəm də azğınlara göstərilər. (Şuəra surəsi, 88-91)

Təkəbbürlü insanların ən çox öyündükləri məsələlərin başında onların əsil-nəsilləri və övladları gəlir. Quranda bir çox insanların onları Allahın yaratdığını unudaraq sahibləndikləri övladlarından və nəsillərindən qiyamət günü qaçacaqları bildirilir:

Nəhayət, qulaqları kar edən gələndə; O gün insan qaçacaq öz qardaşından; anasından, atasından; zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! (Abəsə surəsi, 33-37)

Ayələrdə həmçinin nəsilləri ilə öyünən insanların qiyamət günü "əsil-nəsil" kimi bir anlayış tanımayacaqları və onları tamamilə unudacaqları, qohumlarından və övladlarından heç bir fayda görə bilməyəcəkləri də ifadə edilir:

> *"Sur çalınacağı gün artıq aralarında nə qohumluq olar, nə də onlar bir-birindən soruşub hal-əhval tutarlar.*
>
> **(Muminun surəsi, 101)**

> *"Nə qohum-əqrabanız, nə də oğul-uşağınız sizə bir fayda verəcəkdir. Allah qiyamət günü sizi bir-birinizdən ayıracaqdır. Allah nə etdiklərinizi görəndir!*
>
> **(Mumtəhinə surəsi, 3)**

Dünyada olarkən əllərindəki sərvətlərlə lovğalanan insanların var-dövlət yığıb toplamalarının da onlara heç bir fayda verməyəcəyi "Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib:

“Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi”, -deyəcək” (Əraf surəsi, 48) ayəsi ilə bizə bildirilmişdir. Bütün sərvətlərin Allaha məxsus olduğunu dərk etmədiklərinə görə özlərini güc-qüdrət sahibi sayan insanlar axirətdə əsl həqiqətləri görəcək, hər şeyin mütləq sahibinin Allah olduğunu dərk edəcəklər. Həmçinin onu da biləcəklər ki, axirət günündə nə bu dünyada sahib olduqları var-dövlətləri, nə sərvətləri, nə də gücləri onları dəhşətli əzabdan xilas etmək üçün kifayət deyil:

O kimsə ki, mal yığıb onu dönə-dönə sayar. Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır. Xeyr! O mütləq Hutəməyə atılacaqdır! Sən nə bilirsən ki, Hutəmə nədir?! O, Allahın yanar odudur. Elə bir od ki, ürəkləri yandırıb-yaxar. O, belələrinin üzünə qapanıb kilidlənəcəkdir. (Huməzə surəsi, 2-8)

XVIII FƏSİL

18

# TƏKƏBBÜRLÜ İNSANLARIN YOLDAN ÇIXARDIĞI ADAMLARIN AXİRƏTDƏKİ VƏZİYYƏTİ

Təkəbbürlü insanların ən bariz xüsusiyyətlərindən biri başqalarını da yoldan azdırmaqdır. Ayələrin birində onların bu işi "boynunu təkəbbürlə sağa-sola əyərək" etdikləri bildirilir:

İnsanlar içində eləsi də vardır ki, heç bir şey bilmədən, haqq yolu göstərən heç bir rəhbəri və nurani kitabı olmadan Allah barəsində mübahisə edər. O, boynunu əyərək Allah yolundan çıxarmaq məqsədilə bunu edər. Onu dünyada rüsvayçılıq gözləyir, qiyamət günü isə ona cəhənnəm odunun əzabını daddıracağıq! (Həcc surəsi, 8-9)

Təkəbbür göstərib lovğalanan insanlar axirətdə cəhənnəmə göndərilərkən bu dünyada özünü onlara bənzədən, onlara qibtə edən və bu adamların arxasınca gedərək onlara uyan insanlar da onlarla birlikdə cəhənnəm oduna atılacaqlar. Bu adamlar malik olduqları dünyəvi üstünlüklər səbəbi ilə təkəbbür göstərib lovğalanan insanlara uymuş adamlardır. Belə insanlar içində Firon təkəbbürü daşıyan adamlar qədər azğın olmasalar da onların yolu ilə gedən iradəsiz, mənfəətpərəst, imansız, şəxsiyyətsiz insanlardır. Belə bir vəziyyətdə olan Firon qövmündən Quranda aşağıdakı şəkildə bəhs edilir:

> *"Firon öz qövmünə müraciət edib dedi: "Ey qövmüm! Məgər Misir səltənəti, altımdan axıb gedən bu çaylar mənim deyilmi?! Məgər görmürsünüzmü?!"*
>
> **(Zuxruf surəsi, 51)**

> *"...Beləliklə, öz qövmünü yelbeyin yerinə qoydu, onlar da ona itaət etdilər. Həqiqətən, onlar fasiq bir qövm idilər!*
>
> **(Zuxruf surəsi, 54)**

Həyatları boyunca onlara edilmiş hər bir zülmə və ədalətsizliyə göz yuman belə insanlar təkəbbürlü insanların təsiri ilə Rəbbimizə sığınıb Ona qul olmaq haqqında düşünə bilməmişlər. Yol verdikləri ağılsız hərəkətlərini qiyamət günü başa düşsələr də artıq çox gec olur.

Hamı birlikdə Allahın qarşısında hesabat vermək üçün dayandığı zaman təkəbbürlü insanlar və bu adamlara uyaraq onlarla birlikdə cəhənnəmə göndərilənlər arasında mübahisələr yaranacaq:

Küfr edənlər dedilər: “Biz nə bu Qurana, nə də ondan əvvəlkilərə inanırıq!” Kaş sən o zalımları Rəbbinin huzurunda saxlanılıb bir-birinə söz qaytardıqları və acizlərin özlərini yuxarı tutanlara: “Əgər siz olmasaydınız, biz mütləq mömin olardıq!” - dedikləri zaman görəydin. Dünyada özlərini yuxarı tutanlar da acizlərə belə cavab verərlər: “Əcəba, sizə doğru yol göstərən rəhbər gəldikdən sonra sizi ondan bizmi döndərdik? Xeyr, siz özünüz günahkar idiniz”. Acizlər özlərini yuxarı tutanlara deyərlər: “Xeyr. Bəs gecə-gündüz qurduğunuz hiylələr? O zaman ki, bizə Allahı danmağı və Ona şəriklər qoşmağı əmr edirdiniz”. Onlar əzabı gördükdə için-için peşman olarlar. Küfr edənlərin boyunlarına zəncir vurarıq. Onlar ancaq etdikləri əməllərin cəzasını çəkərlər. (Səba surəsi, 31-33)

Ayələrdən də aydın göründüyü kimi, həm təkəbbür göstərən lovğa adamlar, həm də “yoldan azdırılanlar” günahı bir-birinin üstünə atacaq, lakin bu da onlara heç bir fayda verməyəcək. Haqqında bəhs olunan bu adamların düşdüyü vəziyyət başqa bir ayədə belə bildirilir:

Onlar səhər-axşam odda yandırılarlar. Qiyamət qopduğu gün isə: “Firon əhlini ən şiddətli əzaba salın!”, - deyiləcəkdir. O zaman onlar od içində bir-birilə çənə-boğaz olacaq, acizlər təkəbbür göstərənlərə deyəcəklər: “Biz sizə tabe idik. İndi siz cəhənnəm odunun bir hissəsini bizdən dəf edə bilərsinizmi?!” (Mumin surəsi, 46-47)

XIX FƏSİL

# NƏTİCƏ

Bütün kitab boyunca izah olunduğu kimi, təkəbbürlü və lovğa insanların ən başlıca xüsusiyyəti onların özlərinin yaradılmış, deməli, ölümlü varlıqlar olduqlarını və həyatlarının sonunda bir gün mütləq öləcəklərini yaddan çıxarmaları, Allah qarşısında çox aciz və yazıq olmaları haqqında heç düşünməmələridir. Belə insanlar düşdükləri şəraitdən asılı olmayaraq boş bir təkəbbür hissinə qapılmaq üçün evlərinin gözəlliyi, onun içində olan əşyalar, avtomobilinin markası və ya modeli, geyiminin keyfiyyəti, saçının uzun və sıx olması, gözünün rəngi, boyunun uzunluğu, fiziki gözəlliyi, cəmiyyətdə tutduğu mövqe, şöhrət, familiyasının məşhurluğu və s. bu kimi səbəblər tapa bilirlər.

Lakin onlar heç düşünmürlər ki, “Hər bir kəs ölümü dadacaqdır” (Ali-İmran surəsi, 185) ayəsində də qeyd olunduğu kimi, bir gün mütləq torpağın altına gedəcəklər. Onların dəyərli hesab etdikləri hər şey də özlərinin ardınca yox olacaq, yüksək qiymət verdikləri bədənləri çürüyəcək və ondan yalnız bir sümük yığını qalacaq, ən son model avtomobil adlandırdıqları metal yığınları isə bir neçə on ildən sonra işə yaramayacaq bir vəziyyətə düşərək paslanacaq, şöhrətləri, mövqeləri və nüfuzları bəlkə də bir neçə ildən sonra heç kim tərəfindən xatırlanmayacaq. Hətta aradan yüz il keçdikdən sonra dünyada onları tanıyan bir nəfər də olsun adam qalmayacaq. Bu adamların bütün bunları dərk edə bilməməsi, eyni zamanda bu məsələlər barədə heç düşünməməsi onların əslində nə qədər dar düşüncəyə malik olmasının, daha doğrusu, ağılsız insanlar olmasının bir əlamətidir.

Lakin ağılsızlıq böyük bir aldanış içində olan həmin insanlar üçün yüngülləşdirici bir səbəb deyil. Çünki Allah hər bir insanı yaratmış və ona iki yol, iki məqsəd təqdim etmişdir. Belə ki, insan Allaha qəlbən bağlı olan bir bəndə kimi bütün həyatını əbədi gözəlliklər məskəni olan cənnət uğrunda savab qazanaraq keçirə yaxud da öz nəfsini ilahiləşdirərək Rəbbinə qarşı təkəbbür göstərə bilər. Birinci halda Allah onun ağlını artırır, ikinci halda isə ağlını əlindən alır. İblis kimi təkəbbür göstərib lovğalanan insanlar məqsəd olaraq ikinci yolu seçmişdilər. Üstəlik onlar hər dəfə xəbərdar edilsələr də inadkarlıq göstərməkdə davam etmiş və Allaha qarşı çıxmışdılar. Belə insanlar ayələrin birində aşağıdakı kimi qiymətləndirilir:

> *“Ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə üz çevirər. Sən belələrini ağrılı-acılı bir əzabla müjdələ.*
>
> **(Loğman surəsi, 7)**

Təkəbbürlü olmaları səbəbi ilə Allah qarşısında lovğalanan və Onun ayələrindən üz çevirən bu insanlar belə davranışlarının əvəzini həm bu dünyada, həm də axirətdə alacaqlar. Bu davranışları

onlara heç bir fayda vermədiyi kimi onların cəhənnəmə sürüklənməsinə də səbəb olacaq:

> *“Kafir olanlara de: “Siz məğlub olacaq və cəhənnəmə sürüklənəcəksiniz!” Necə də pis yerdir!*
>
> **(Ali-İmran surəsi, 12)**

> *“Onlar cəhənnəmə üzü üstə sürüklənib gətiriləcək kəslərdir. Onlar ən pis yerdə olan, ən çox yoldan azan kimsələrdir.*
>
> **(Furqan surəsi, 34)**

Möminlər isə özlərinə birinci yolu məqsəd seçmişlər. Onlar Allaha hörmət və itaətkarlıq göstərir, başqa möminlərə münasibətdə sadə davranırlar. Çünki onlar Allahın sonsuz qüdrəti qarşısında özlərinin kiçik və aciz olduqlarını bilirlər. Eyni zamanda möminlər malik olduqları sərvətin və müsbət cəhətlərin də onlara Allah tərəfindən müvəqqəti müddət ərzində sınağa çəkilmələri üçün verildiyini bilirlər. Onlar bu imkanlarından başqa insanlara qarşı üstünlük vasitəsi kimi istifadə etmirlər. Təvazökar insanlar həm öz çatışmazlıq və qüsurlarını, həyatlarının ölümlə bitəcəyini, hətta ən kiçik mikroba da asanlıqla məğlub ola biləcəklərini, həm də başqalarının da onlar kimi aciz qullar olduqlarını bilirlər. Onlar eyni zamanda Allah dərgahındakı üstünlüyün yalnız təqva (Allah qorxusu) ilə olduğuna inanırlar. Bu səbəbdən də başqa heç bir şeyi həyatlarında ölçü meyarı kimi qəbul etmirlər.

Məhz bu insanlar Quranda ifadə olunan “düşüncə sahibləri”dir. Allah onlara “haqla-nahaqqı ayırd edən” anlayış (Ənfal surəsi, 29) verib və onlar bu şüurla dünya həyatının çox qısa olduğunu anlayır, axirət üçün, cənnətə qovuşmaq üçün hazırlıq görməyin zəruriliyini dərk edirlər. Bu səbəbdən də nəfslərində olan təkəbbür göstərib lovğalanmaq arzusunun qarşısını da tamamilə alır, şeytani təkəbbür hissindən təmizlənirlər.

Qurtuluşun yeganə yolu da elə budur.

Bunun yeganə həlli vicdanı dinləməklə Allahın əmrlərinə tabe olmaqdır. Əks təqdirdə, insan vicdanına tabe olmursa və ya yüz faiz istifadə etmirsə, ölüm mələyi ilə qarşılaşdığı anda əbədi olaraq qaça bilməyəcəyinə görə peşman və ümidsiz qalacaqdır.

ƏLAVƏ BÖLMƏ

20

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı

hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları

əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)

Təkamülçülər "ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər

aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi

metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)*

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)*

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)*

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> “…*Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

Eqoizm termini Ərəbcədə "mən" mənasını verən "enə" sözündən törəmişdir. İnsanın özünə müstəqil bir mənlik verməsi, həm öz varlığını həm də ətrafındakıların varlığını Allahdan müstəqil görməsi, həyatını bu səhv dünyagörüşünə görə tənzimləməsi mənasını verir. Eqoizm şeytanın xarakterinin ən fundamental xüsusiyyətidir. Bu səbəbdən "eqoizm" və ondan qaynaqlanan təkəbbür, bütün azğınlıqların qaynağıdır. təkəbbür, eqoizmin kənara yansımalarından biridir.

Təkəbbürlü insanların təməl xüsusiyyəti, yaradıldıqlarını və ölümlü olduqlarını unutmaları, Allaha qarşı içində olduqları acizliyi heç düşünməmələridir. Bu insanlar, olduqları mühit və şərtlər hər nə olursa olsun boş bir təkəbbürə qapılacaq səbəblər tapa bilərlər. Eqoizmdən ötəri Allaha qarşı böyüklənən və Quran ayələrindən üz çevirən bu kəslər, rəftarlarının qarşılığını həm dünyada həm də axirətdə alacaqlar.

Bu kitabın məqsədi, eqoizmi Quranda bildirildiyi kimi gizli və açıq bütün istiqamətləriylə gözlər önünə sərərək, təsiri altına almağa çalışdığı hər kəsi bu pislikdən təmizlənməyə və çəkinməyə dəvət etməkdir.

**ADNAN OKTAR**

## MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.